# GİZLİ ƏZABLARDAN QURTULMA YOLU

**“Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edirlər”. (Yunis surəsi, 44)**


**HARUN YƏHYA (ADNAN OKTAR)**

# İÇİNDƏKİLƏR

**Giriş**

**İnsanlar xoşbəxt olmaq olduğu halda, niyə əzab çəkərlər?**

**İman etdiklərini söylədikləri halda bədbəxt olan insanlar da var**

**İnsanları gizli əzaba sürükləyən iman və rəftar pozuqluqları**

**İnsanlar özlərini necə aldadırlar?**

**Səmimiyyətsizliyin başa düşülməsi: 6-cı hiss**

**Möminlər ətraflarındakı insanları da səmimiyyətə dəvət edərlər**

**Səmimiyyətə çağrıldıqlarında səmimiyyətsizliklə cavab verənlər**

**Allah səmimiyyətsizliklərində israr edənlər üçün dünya əzabını artıra bilər**

**Dünya həyatındakı gizli əzablar axirətdə sonsuz əzaba çevrilə bilər**

**Dünyadakı gizli əzablardan qurtulma yolu**

**Nəticə**

**Darvinizmin süqutu**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI Və ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Həyatınız boyu bir çox insanla qarşılaşmısınız. Ailəniz, yoldaşlarınız, məktəb və iş həyatınızda qarşılaşdığınız insanlarla yanaşı, hər gün qəzet səhifələrində dünyanın müxtəlif yerlərindən olan yüzlərlə insan görmüş, televiziya ekranlarında yüzlərlə insanın rəftarını izləmisiniz. Bir anlıq yaddaşınızdakı bu görüntüləri gözünüzün qarşısından keçirin. Uşaqlığınızdan bəri görməyə alışdığınız üz ifadələrini, danışıqları xatırlamağa çalışın; bəzi insanların həyata dair verdikləri açıqlamaları, sıxıntılarını, dərdlərini dilə gətirdikləri hallarını; iş yoldaşlarınızın hər gün təkrarlanan gündəlik danışıqlarını, ailəvi problemlərindən, maddi sıxıntılarından, insanlarla aralarındakı problemlərindən bəhs etmələrini; küçədə gördüyünüz insanları, avtobus dayanacaqlarında gözləyən, tıxacda qalıb evinə qayıtmağa çalışanları, keçən avtomobillərin su sıçratdığı insanların üz ifadələrini, öz özlərinə deyinmələrini gözünüzdə canlandırın.

Əyləncə proqramlarından ekranlara əks olunan insan görüntülərini xatırlayın; kameraların qarşısında əylənirmiş kimi görünməyə çalışıb xoşbəxtlik oyunu oynayan, bir-birləriylə dost olduqlarını söyləyən, amma hər fürsətdə bir-birlərinin arxasınca heç gözlənilməyən pis sözlər danışan, qısqanclıq, kin və ya rəqabət kimi duyğulardan ötrü narahatlıqdan qurtula bilməyən bəzi insanların və ya peşələrinin tələbindən ötrü başqalarını əyləndirməyə çalışdıqları halda, öz bədbəxtlikləri hər hallarından bəlli olan bəzi insanların ruh hallarının necə olduğunu bir düşünün.

Bir də dünya şəraitində ola biləcək ən yüksək həyat səviyyəsini yaşayan, istədiyi anda istədiyi hər şeyi əldə edə biləcək qədər çox pulu olan, ən gözəl evlərdə oturub ən son model avtomobillərlə gəzən, ən bahalı geyimləri geyən, kariyeralarıyla, nüfuzlarıyla cəmiyyətdə ən hörmət edilən, ən sözü dinlənilən insanların həyatlarına bir nəzər salın.

Bütün bunları diqqətlə düşündüyünüzdə çox mühüm bir həqiqəti öyrəndiyinizi görəcəksiniz. Hansı şərait altında olsalar belə, bu insanları ortaq məxrəcdə birləşdirən mühüm bənzərlik var; insanların böyük hissəsi bədbəxt həyat yaşayır.

Nə sahib olduqları mal-mülk, nə işlədikləri işlər, nə də sevdikləri insanlar, bu insanları əsl mənada xoşbəxt etməyə kifayət etmir. Xoşbəxtlik, dinclik, sevinc kimi xüsusiyyətlərin yerinə, bu insanların həyatına hakim olan daimi hüzn, pessimizm, ümidsizlik kimi mənfiliklərdir. Əksər insanın həyatının böyük hissəsini bu ruh halı içində yaşayar. Bu insanların xoşbəxt ola bildikləri anlarsa, həm müvəqqətidir, həm də real xoşbəxtliklə müqayisədə olduqca səthidir. Hətta bəzi hallarda, həm özlərini, həm də ətraflarındakı insanları aldatmaq məqsədli təqlidlərdən ibarətdir. Heç kəsə bəlli etmədən, ətraflarındakı gözəlliklərdən zövq almalarına mane olan gizli bir əzab yaşayarlar.

Bəs onda bu insanlar niyə bədbəxtdir? Niyə daxili aləmlərində əzab çəkər, niyə sıxıntılı bir həyat yaşayarlar?

Bu insanların, ən gözəl nemətlərin içərisində belə əzab çəkmələrinin və bədbəxt olmalarının səbəbi, Allahdan uzaq bir həyat yaşamalarıdır. Allah insanlara xoşbəxtliyi, ancaq imanla verər, həyatın gözəlliklərindən əsl mənada zövq ala bilmələrini, ancaq bu yolla mümkün edər. Qurana uyğun səmimi iman olmadığı müddətcə, insanların heç bir yol və heç bir üsulla həqiqi xoşbəxtliyi əldə etmələri qeyri-mümkündür.

Məhz bu kitabda bu əhəmiyyətli həqiqətə diqqət çəkəcək və insanları həqiqi və səmimi imanı yaşamağa dəvət edəcəyik. İnsanların, xoşbəxt ola bilmələrinə, nemətlərdən zövq ala bilmələrinə maneə törədən və özlərini əzaba sürükləyən bu sistemi, əslində öz əlləriylə meydana gətirdiklərini izah edəcəyik. Bədbəxtlikdən və gizli əzablardan qurtulmağın yeganə yolunun, Allaha səmimi-qəlbdən iman etmək olduğunu göstərəcəyik. Allaha qarşı bu mütləq səmimiyyət əldə edilmədiyi müddətcə, insanların heç bir yolla əsl mənada xoşbəxtliyi yaşaya bilməyəcəklərini və dünyadakı bu gizli əzabların axirətdə sonsuz bir əzaba çevrilə biləcəyini xatırladacağıq.

**Allah bir ayədə; "möminlər həqiqətən nicat tapmışdır" (Muminun surəsi, 1) deyə buyuraraq, xoşbəxtlik və nicat tapanların möminlər olduqlarını bildirmişdir.**

# İnsanlar xoşbəxt olmaq olduğu halda, niyə əzab çəkərlər?

İnsanların bir çoxu göstərdikləri bütün səylərə baxmayaraq, heç cür əsl mənada xoşbəxtliyi yaşaya bilməzlər. Bunun üçün dünya həyatında insanın ağlına gələ biləcək hər yolu sınayarlar; hər dəfə yeni ideallarin arxasınca qaçar və bunları əldə etdiklərində xoşbəxt olacaqlarına inanarlar. Bəzən yaxşı bir dost və ya yoldaş axtarışı, bəzən maddi gözləntilər, bəzən də mənəvi istəkləri olar. Bu istək və gözləntilərinin hər biri arzuladıqları şəkildə baş tutsa belə, nəticə yenə gözlədikləri kimi olmaz. Heç cür əsl mənada daimi bir xoşbəxtliyə qovuşa bilməzlər. Çox vaxt daxili aləmlərində yaşadıqları bu narazılıqları xaricə əks etdirməməyə çalışarlar. Amma hər nə qədər xoşbəxtlik təqlidi etsələr də, əslində, heç kəsə bəlli etmədən gizli bir əzab yaşayarlar.

Halbuki əllərində xoşbəxt ola bilmək üçün hər cür imkan var. Allah bir ayədə insanlara verdiyi nemətlərlə əlaqədar olaraq belə buyurur:

**Əgər Allahın nemətini saymağa çalışsanız, onu ümumiləşdirməklə belə sayıb qurtara bilməzsiniz. Həqiqətən Allah, bağışlayandır, əsirgəyəndir. (Nəhl surəsi, 18)**

Allahın bu ayədə bildirdiyi kimi insan həyatı boyu bir-birindən gözəl nemətlərlə qarşılaşar. Allah dünyanı insanın zövq ala biləcəyi müxtəlif nemətlərlə təchiz etmişdir. Ancaq insanlar, nə bütün bu nemətlər, nə də arxasınca qaçdıqları ideallarla əsl mənada xoşbəxt ola bilməzlər. Bu insanların bədbəxtliyi, həyatlarını üzərində qurduqları inanc sistemindəki pozuqluqdan qaynaqlanır.

# Bədbəxt insanlar, batil inanclara sahib insanlardır

İnsanların böyük hissəsi tərəfindən, geniş şəkildə yaşanan bir həyat tərzi var. Bu həyat tərzi, din əxlaqının olmadığı yerdə həyat tapan **"şeytanın sistemi"**dir. Bu sistemin təməli səmimiyyətsizliyə əsaslanır. Bu səmimiyyətsizlik insanların həyatına elə nüfuz etmişdir ki, kənardan ən səmimi görünən insanlar və ya ən səmimi hesab edilən rəftarlar belə əslində olduqca səmimiyyətsiz niyyətlərə əsaslanır. Necə ki, bu insanlar, hər nə qədər buna ad verə bilməsələr də, özləri də yaşadıqları bu sistemin yanlışlığından xəbərdardırlar. Hər fürsətdə əsl dostluğu və əsl sevgini heç cür yaşaya bilmədiklərindən, ətraflarında əsl mənada etibar edə biləcək insanlar olmadığından, insanların ikiüzlülüyündən şikayətlənərlər. Necə ki, özləri də ətraflarındakı insanlar qarşısında eyni əxlaqı nümayiş etdirməkdə bir problem görməzlər. Bu sistemdə, bütün insanlar, etdiklərindən özləri zərər çəkər. Bu insanlar hər yolu sınadıqları halda heç cür əsl daxili sevinci, dinclik və xoşbəxtliyi yaşaya bilməz və bunu da **"həyatın bir həqiqəti"** olaraq qəbul edərlər. Yəni onlara görə, həyat onsuz da əsl xoşbəxtlik və dincliyin daimi olaraq yaşana bildiyi bir yer deyil.

Halbuki bədbəxtlik qətiyyən həyatın bir həqiqəti deyil. Tam əksinə insanların yaşadıqları bu sıxıntının həlli olduqca asandır. Allah Quranda; **"...xəbəriniz olsun; qəlblər yalnız Allahın zikri etməklə rahatlıq tapar"** (Rad surəsi, 28) ayəsiylə, insanlara həqiqi xoşbəxtliyin ancaq imanla əldə edilə biləcəyini bildirmişdir. İnsanlar ancaq Allahın üzərlərindəki rəhmətini, onları qoruduğunu qavradıqları və ancaq iman əxlaqını yaşadıqları təqdirdə, dünya həyatının hər andan zövq ala bilərlər. Ancaq bu halda ətraflarındakı gözəllikləri gərəyi kimi qiymətləndirib, xoşbəxt olmağı bacara bilərlər.

Allah; **"mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq"** (Nəhl surəsi, 97) ayəsiylə iman edən qullarına dünyada və axirətdə gözəl bir həyat yaşadacağını vəd etmişdir. Məhz Qurana uyanlar dünyada və axirətdə Allahın vəd etdiyi bu nemətdən faydalanarlar.

Amma bu məqamda da insanların görməli oduqları mühüm bir həqiqət var. Bu gözəl həyatı yaşaya bilmək, həyatdan və dünya nemətlərindən, Allahın insanlar üçün yaratdığı o qədər gözəllikdən zövq ala bilmək üçün, iman qəlbə tam mənada yerləşməlidir. Yoxsa insanların yalnız dilləriylə iman etdiklərini söyləmələri və ya iman edənlərin yalnız bəzi xüsusiyyətlərini daşımaları, onları içində olduqları

bədbəxtlikdən qurtarmaz. Əsl xoşbəxtliyə nail olmaq üçün, insanlar, tam təslimiyyətlə qəlbən Allaha bağlanmalı və həyatlarının hər anını Quran əxlaqına uyğun yaşamalıdırlar. Əks halda gizlində həyatın hər anında əzabı dadmağa davam edərlər. Nə qədər xoşbəxt olmaq istəsələr də, bunu bacara bilməzlər. Əksinə həyatlarına hüzn, pessimizm, ümidsizlik kimi mənfiliklər hakim olar.

Görüldüyü kimi xoşbəxt olmağın yolu əslində olduqca asandır. Allah, endirdiyi haqq kitab olan Quranla insanlara xoşbəxt ola bilməyin sirrini açmışdır. İnsan ancaq öz yaradılışına, Allahın özü üçün müəyyənləşdirdiyi fitrətinə uyğun, hərəkət etdiyi vaxt gözəl bir həyat yaşaya bilər. Allahın özlərinə rəhmət olaraq göstərdiyi bu yoldan üz döndərən və ya bu yola gərəyi kimi tabe olmayan insanlar, öz əlləriylə özlərinə bədbəxt bir həyat yaradarlar. Allahın; **"həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edirlər"** (Yunis surəsi, 44) ayəsiylə bildirdiyi kimi, bu insanlar öz-özlərinə əzab verərlər.

Bu insanların yaşadığı bədbəxtlik, Allahın Quranda; **"sən onları sarsılacaqları günə qovuşana qədər tərk et! O gün hiylələri onlara heç bir fayda verməyəcək və onlara kömək göstərilməyəcəkdir. Həqiqətən, zalımlar üçün bundan başqa əzab da hazırlanmışdır. Lakin onların çoxu bunu bilmir"** (Tur surəsi, 45-47) ayələriylə bildirdiyi həqiqətin yaşanmasıdır. Allah insanlara etdiklərinin qarşılığını axirətdə verəcək. Ancaq Allah, bundan əvvəl, dünya həyatında da, insanların əksəriyyətinin xəbərsiz olduğu bir əzabın başlayacağını xəbər vermişdir.

Allah yenə başqa bir ayədə də; **"kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik"** (Taha surəsi, 124) hökmüylə, iman etməyənlərin dünya həyatında yaşayacaqları "sıxıntıdan" və axirətdə alacaqları qarşılıqdan bəhs etmişdir. Allah insanlara bu sıxıntıdan xilas ola bilməyin yolunu da göstərmişdir ki, bu daha əvvəl də ifadə edildiyi kimi, Allaha qarşı tam səmimiyyət və güclü imanı yaşamaqla mümkün olur.

# İman etdiklərini söylədikləri halda bədbəxt olan insanlar da var

Quranda; **"Onlar Allah yanında müxtəlif dərəcələrdə olacaqlar. Allah onların nə etdiklərini görür!"** (Ali İmran surəsi, 163) ayəsiylə mühüm bir həqiqətə diqqət çəkilmişdir. Bəzi insanlar heç iman etmirlər. İman edənlərsə qəlblərindəki Allah qorxusu və imana görə öz aralarında müxtəlif dərəcələrdədirlər. Allah bir ayəsində; **"Bədəvilər: "Biz iman gətirdik!" dedilər. De: "Siz qəlbən iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!" deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır..."** (Hucurat surəsi, 14) hökmüylə imanın hələ qəlblərinə yerləşmədiyi insanlardan bəhs edir. Allah digər bir ayədə isə; **"sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur"** (Fatir surəsi, 32) hökmüylə iman edənlər arasında geridə qalan, orta yolu tutan və ya önə keçən insanlar ola biləcəyinə diqqət çəkir.

Quranda bildirilən bu insanlar arasında digər bir qrup da vardır ki, bu insanlar "imanlarına zülm qatışdıranlardır". İmana zülm qatışdırmaq; insanın Allahın ucalığını, haqq dinin üstünlüyünü qavradığı və dünyada və axirətdə nicat tapması üçün Qurana uymaqdan başqa bir yol olmadığını anladığı halda, yenə də cahilliyyət əxlaqından tam olaraq xilas ola bilməməsidir. Bu insanlar imanlı olmaqla yanaşı, nəfslərinə zidd bir vəziyyət yarandıqda və ya çətinliklə qarşılaşdıqları anlarda, Quran əxlaqına uyğun bir rəftar göstərmək əvəzinə, dinsiz insanların göstərdiyi rəftarı göstərirlər.

Belə insanlardan danışarkən, ağla yalnız dinin hökmlərini açıq şəkildə rədd edən, dinə müxalif rəftarlar göstərən insanlar gəlməməlidir. Burada qeyd etdiyimiz insanlar, Quran hökmlərinin bir çoxunu tətbiq edib, həyatlarının böyük hissəsində mömin rəftarı göstərə bilərlər. Ancaq bəzi mövzular da vardır ki, bunların Qurana görə səhv olduğunu anlamaq istəməyə bilər və ya bunu gərəyi kimi qavraya bilməmiş ola bilərlər. Bəzi insanlar müsəlman olaraq yaşadıqları halda, bəzi inanc və davranışların Qurana zidd olmadığını, halal və haram olaraq bildirilən çərçivədən kənara çıxmadığını düşünə bilərlər. Məsələn, bir çox insan romantikliyin Quran əxlaqına uyğun bir davranış olmadığını anlamaz və ya bunu anlamazlıqdan gələr. Halbuki romantiklik Qurana zidd bir xarakter formasıdır və Quranın bir çox ayəsində bu açıq şəkildə görülür. Məsələn, bir müsəlman, bir yaxınının öldüyündən ötrü yox olmadığını, sonsuz həyatına başladığını düşünər və əgər bu yaxını mömindirsə onun cənnətə qovuşacağına ümid edərək sevinər. Həmçinin ölümü Allahın müəyyənləşdirmişdir və O hər hadisə kimi ölümü də xeyirlə yaradar. Dolayısilə mömin bir insan, yaxını belə olsa, ölməsində xeyir olduğunu bilər və Allahdan razı olduğunu göstərən bir rəftar nümayiş etdirər. Amma bir çox insan bu həqiqəti bilməsinə baxmayaraq, ölüm qarşısında cahilliyyət rəftarı göstərir, romantik davranaraq lazımsız reaksiyalar verə bilir.

Bu kimi rəftar pozuqluqlarının Quran əxlaqına zidd olduğunu düşünməyən insanlar, bu davranışlarını davam etdirməkdə bir problem görməzlər. Həyatlarının bəzi anlarında, bunlara bənzər cahil insan xüsusiyyətləri daşıyaraq, cahil insanların həyatına bənzər bir həyat yaşayarlar. Bunun əlaməti də, bu insanların möminlərin yaşamadığı, amma cahilliyyət insanlarında görülən sıxıntıları yaşamaları, möminlərin əksinə tez-tez bədbəxt ola bilmələridir.

Buna görə də, **"iman sahibiyəm"** deyən hər insan, Allahın Quran ayəsiylə möminlərə vəd etdiyi **"gözəl həyat bəxş edəcək"** vədinin özü üçün gerçəkləşib gerçəkləşmədiyini, bu məlumatlar əsasında nəzərdən keçirməlidir. Əgər hələ də həyatının müəyyən anlarında az da olsa bədbəxtliklər, sıxıntılar və əzablarla üzləşirsə, bu xatırlatmaları üzərinə almalıdır.

Bütün həyatı boyu əzab və sıxıntı yaşayan bir insan üçün çıxış yolu isə; **"...Allah, sizin üçün asanlıq istəyər, çətinlik istəməz..."** (Bəqərə surəsi, 185) ayəsiylə ifadə edildiyi kimi çox asandır: İnsanın gizli və ya açıq, cahilliyyət əxlaqından qalan hər nə xüsusiyyəti varsa bunlardan imtina etməsi və bunun yerinə Quran əxlaqını yaşaması əsas çıxış yoludur. Allaha iman edən və Qurana tabe olan hər mömin, Qurana daha səmimi yaxınlaşmalı və ayələrdə bildirilən mömin əxlaqına zidd olan hər cür rəftar və ya düşüncədən xilas olmalıdır; Quranla bildirilən həqiqətləri yalnız nəzəri baxımdan bilməklə kifayətlənməməli, bunları real həyatda da hər an hiss etməli və yaşamalıdır; Allahın hər yeri əhatə etdiyini, insanın içindən keçən bütün gizli niyyətlərini bildiyini, gizlətdiyi səmimiyyətsizliyini də gördüyünü unutmamalıdır.

Bir müsəlman ibadətlərini yerinə yetirməklə kifayətlənib, səmimiyyətsizliyi əhəmiyyətsiz bir şey hesab etməməli, Allahın səmimiyyətsizlikdən ötrü hər an amansız bir əzab verməyə qadir olduğunu, gec-tez

etdiklərindən ötrü haqq-hesaba çəkilib buna uyğun bir qarşılıq alacağını düşünməlidir. Dünya həyatındakı hər hadisəni Allah yaradar, bütün varlıqlar Allaha boyun əymişdir və Onun əmriylə hərəkət edər. Müsəlmanlar bu həqiqətləri unutmadan, hər hadisədə xeyir və hikmətlər olduğunu düşünərək, taleyə təslim olaraq yaşamalıdırlar.

Bir insan bu həqiqətləri dərk edərək yaşadıqda, özü üçün gözəl və fərqli bir həyatın başladığını görəcək. O günə qədər zövq aldığını düşündüyü nemətlərdən əslində heç zövq almadığını, insanların xoşbəxtlik hesab etdikləri şeylərin, əsl xoşbəxtliyin yanında nə qədər adi zövqlər olduğunu anlayacaq. Yediyi yeməkdən, seyr etdiyi mənzərədən, tənəffüs etdiyi havaya qədər hər şeyin düşündüyündən daha böyük sevinc bəxş etdiyini anlayacaq. Sevməkdən, sevilməkdən, gözəl əxlaq göstərməkdən, insanlardakı gözəllikləri, incəlikləri görməkdən, gülməkdən, əylənməkdən, dostluqdan, söhbətdən olduqca fərqli zövqlər alacaq. Dünyadakı həyatı, bir növ cənnət həyatını xatırladacaq.

Ancaq bu məqamda mühüm bir mövzu başa düşülməlidir; “gözəl həyat yaşamaq” deyərkən, insanın heç bir çətinlik yaşamaması nəzərdə tutulmur. Çünki dünya imtahan mühitidir və insan, həyatının sonuna qədər müxtəlif hadisələrlə imtahan olunacaq. İnsan, Allahın Quran ayələrində bildirdiyi kimi bəzən aclıq, bəzən qorxu, bəzən də mal-dövlət, insan, məhsul itkisiylə sınanacaq, yeri gəldikdə sıxıntı və çətinlik də üzləşəcək. Amma bunların heç biri, mömінin burada izah edilmək istənilən ruhi sakitliyindən, qəlb xoşbəxtliyindən heç nə əskiltməz. Çünki mömin; hadisələrdəki xeyirləri, hikmətləri görə bilən, görə bilmədikdə də bu həqiqətə inanıb, təvəkkül edən və bunun gözəlliyini yaşayan insandır. Hadisələrdəki xeyirlər barədə düşünmək və sonsuz ağıl sahibi olan Allahın yazısına təslim olmaq insanlara daimi və həqiqi xoşbəxtlik bəxş edər. Bu kitabda insanlara həqiqi xoşbəxtliyinə qovuşmağın yolu göstərilərkən, insanın hər cür şəraitdə yaşayacağı ruhi sakitlik və qəlb xoşbəxtliyi nəzərdə tutulur. Bu xoşbəxtlik, Allahın yalnız həqiqi imana sahib, səmimi möminlərə verdiyi bir nemətdir.

Allah dünyada və axirətdə iman edənlərə müjdə olduğunu xəbər verərək bu mövzunu insanlara belə açıqlamışdır:

**Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və Allahdan qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 62-64)**

Allah digər bir ayədə isə; **"iman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır"** (Ənam surəsi, 82) hökmüylə əmin-amanlığın da, yenə ancaq imanlarına zülm qatışdırmayan, səmimi-qəlbdən iman edənlər üçün olduğunu ifadə etmişdir.

# İnsanları gizli əzaba sürükləyən iman və rəftar pozuqluqları

Kitabın əvvəlindən bəri, bəzi insanların iman etdiklərini söylədikləri halda, yenə də mütləq rahatlıq və xoşbəxtliyi yaşaya bilməmələrinin səbəbinin səmimiyyətsizlik olduğundan bəhs etdik. Allahın Quranda; **"onlar tərəddüd edir, nə bunlara, nə də onlara tərəf olurlar. Allahın azdırdığı şəxs üçün heç bir yol tapa bilməzsən"** (Nisa surəsi, 143) ayəsiylə də bildirdiyi kimi, bu insanların vicdanı hər şeyi bildiyi halda, hələ də cahilliyyət əxlaqıyla Quran əxlaqı arasında tərəddüd edirlər. İman etdikləri halda, bilə-bilə belə bir əxlaqı yaşamaqda israr etmələri, bu insanların gizli əzablar çəkərək yaşamalarına səbəb olar.

Əksər insan gizlətdiyi səmimiyyətsizliyindən ötrü, bu sıxıntı və əzabı yaşadığından xəbərsizdir. Onlar bütün bunları **"həyatın həqiqətləri"**, yəni az çox hər insanın yaşamaq məcburiyyətində olduğu həyatın bir hissəsi olduğunu zənn edərlər. Halbuki özləri üçün bir əzaba çevrilən bu rəftarlardan heç biri, həyatın dəyişməz həqiqəti deyil.

Bu cür insanlarAllahın; **"əlif, lam, ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır"** (İbrahim surəsi, 1) ayəsiylə bildirdiyi, insanları "qaranlıqdan" qurtaracaq din əxlaqından üz döndərdikləri və ya din əxlaqını gərəyi kimi yaşamadıqları üçün sıxıntı və əzab çəkirlər.

Bəs hansı düşüncələr, yanlış məntiqlər və inanclar insanları din əxlaqından uzaqlaşdırır və cahilliyyət rəftarları göstərmələrinə səbəb olur? Məhz sonrakı sətirlərdə bu sualların cavablarını verəcək və insanlara bədbəxtliklə geri qayıdan çirkin rəftarlara toxunacağıq.

# Quran əxlaqının mükəmməlliyini tam olaraq qavraya bilməmələri

Bəzi insanların iman etdiklərini söylədikləri halda, hələ də gizlində cahilliyyət insanlarının çəkdikləri əzabı çəkmələrinin başlıca səbəbi, bu insanların tam şəkildə Quranda göstərilən yola tabe olamamalarıdır. Allah, ayələrində iman edənləri dünyada "gözəl həyat bəxş edəcəyi ilə" müjdələmişdir. Amma bunun üçün insanlar, Allahın əmrlərinə qeyd-şərtsiz itaət etməli, Onun bəyəndiyi əxlaqı tam şəkildə yaşamalıdırlar. İnsan bir tərəfdən din əxlaqını yaşayarkən, digər bir tərəfdən də az da olsa cahilliyyət əxlaqının təsiriylə hərəkət edirsə, bu halda Quranda bəhs edilən gözəl həyatı tam mənasıyla yaşaya bilməz. İnsanlar dünya həyatını Quranda vəd edildiyi şəkildə yaşaya bilmələri üçün, əvvəlcə Quran əxlaqından əlavə insanın fitrətinə uyğun başqa bir həyat tərzi olmadığını anlamalıdırlar.

# Təkəbbür, dünyada və axirətdə əzab və sıxıntı yaşama səbəbidir

Təkəbbür Allahın bəyənmədiyi əxlaq xüsusiyyətidir. Təkəbbürlü insan qürurlanmaq xəstəliyinə tutulmuşdur. Qürurlanmanın səbəbi isə, insanın özünə müstəqil mənlik hissi verməsi, həm özünü, həm də ətrafındakıları Allahdan müstəqil varlıqlar hesab etməsidir. Belə bir insan, hər şeyi özünün etdiyini və özünün sahib olduğunu zənn edər. Məsələn, müvəffəqiyyət qazandıqda bununla təkəbbürlənər, göstəriş edər, özünü ən üstün insan hesab edər. Halbuki, bu müvəffəqiyyəti ona bəxş edən Allahdır. Bu həqiqəti görə

bilmədiyi üçün qürurlanar. Belə bir insan hər hadisədə, hər mövzuda üstünlüyünü və böyüklüyünü ətrafına da hiss etdirmək istəyər.

Halbuki belə insanlar heç vaxt arxasınca qaçdıqları həqiqi qürur və üstünlüyü əldə edə bilməzlər. Çünki qürur və şərəf, ancaq Qurana tabe olmaqla qazanılar. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara şan və şərəflərini (Zikr) gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər. (Muminun surəsi, 71)**

İnsan, Qurana tabe olmadıqda isə, Allahın ayəsində bildirdiyi kimi, hər şey fəsada uğrayar. Allah Quranın digər bir ayəsində də insanların tez-tez bu səhvə yol verdiklərinə, qürur və şərəfi insanlara təkkəbürlə yanaşmaqda gördüklərinə diqqət çəkir:

**Onlar: “Əgər biz Mədinəyə qayıtsaq, ən güclü və şərəfli olanlar, düşkün və zəifləri mütləq oradan çıxardacaqlar!” deyirlər. Halbuki izzət (güc, şərəf, üstünlük) yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər. (Münafiqun surəsi, 8)**

Ayədə də bildirildiyi kimi, şərəf və izzət Allahındır və Allah bu üstünlüyü yalnız Qurana tabe olan, gözəl əxlaq göstərən qullarına verir.

Məhz bəzi insanlar da iman etdiklərini söylədikləri halda, hələ də cahilliyyət həyatlarından almış olduqları təlqinlərin təsiri altında qalaraq, təkkəbbürlərindən imtina etmək istəməzlər. Halbuki insanları əzaba sürükləyən şeylərin başında qürur və təkəbbür gəlir.

Təkəbbür, həmçinin insanı günaha sövq edən, insana Qurana zidd olan bir çox əxlaqsız və pis hərəkəti etdirən əxlaq pozuntusudur:

**Ona: “Allahdan qorx!” deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!. (Bəqərə surəsi, 206)**

Təkkəbbürlü insan özünü hamıdan daha çox sevər. Buna görə də, mənfəətinə uyğun olmayan hər şeydə, Allahın rizasını və vicdanını deyil, öz ehtiras və arzularını ön planda tutar. Bu isə, onu daim günaha və pis əxlaqa yönəldər.

Təkəbbürlü insan, özünü hər şeydən üstün görüb, daim nəfsinə uyduğu halda axtardığı xoşbəxtlik və rahatlığı da tapa bilməz.

Hər şeydən əvvəl eqoist insanlar, həqiqi möminlərin yaşadığı bir çox gözəllikdən heç vaxt zövq ala bilməzlər. Məsələn, heç vaxt həqiqi sevgini yaşaya bilməzlər. Həyatda hər kəsdən və hər şeydən çox özlərini sevdikləri üçün, başqalarını gərəyi kimi sevə bilməzlər. Sevdikləri insana, sevgilərini açıq şəkildə ifadə edə bilməz, iltifat edə bilməz, sevginin tələb etdiyi mehribanlığı, səmimiyyəti və dostluğu göstərə bilməzlər. Göstərdikləri bu soyuq və rəsmi xarakterdən ötrü qarşılarındakı insan tərəfindən də gərəyi kimi sevilə bilməzlər.

Təkəbbürlü insanlar, özlərinə ağır gəldiyi üçün, heç vaxt bir məsələdə geri qalmağı qəbul edə bilməz, daim dostluğu zədələyəcək, gərginliyə və narahatlığa səbəb olacaq rəftarlar sərgiləyərlər. Təvazökarlıq edib güzəştə gedən, xoş qarşılayan, səbirli, bağışlayıcı, barışdırıcı xarakter nümayiş etdirə bilməzlər. Hər zaman daim öz dediklərinin qəbul edilməsini istəyərlər. Anlaşılmazlıq yarandıqda isə, heç vaxt güzəştə getmədikləri üçün inadkar, dikbaşlı rəftar nümayiş etdirərlər. Öz istəkləri yerinə yetirilmədikdə isə, problem çıxardarlar və bütün bunlar bu insanları “çətin yola gedilən insanlar” halına gətirər. Onlarla yoldaşlıq etmək, danışıb söhbət etmək, sevgini, dostluğu, gözəl əxlaqı yaşamaq çox çətindir. Bu isə onların, ətrafları tərəfindən sevilməyən, yanlarında rahatlıq tapılmayan insanlara çevrilmələrinə səbəb olar ki, bu da onlar üçün böyük bir itkidir.

Bu gözəllikləri yaşaya bilməmək bu insanlarda gizlində böyük əzaba çevrilər. Çünki ruhlarında sevməyi, sevilməyi, dostluğu, ikitərəfli şəkildə gözəl əxlaqı yaşamağı çox istədikləri və bunlara böyük ehtiyac duyduqları halda, yalnız təkəbbürlərindən ötrü bunlardan məhrum qalırlar. Daxilən bunların həsrətini çəkib, heç cür əldə edə bilməmək də, onların daim gizli əzab çəkmələrinə səbəb olar.

Təkəbbürün səbəb olduğu digər bir əzab forması da, bu cür insanların **"səhv etmə qorxuları"**dır. Özlərini üstün və böyük gördükləri üçün, səhv etmədiklərini iddia edirlər. Buna görə də, səhv etdiklərində böyük sıxıntı yaşayarlar. Allahın rizasını qazanmaq əvəzinə, insanların gözündəki etimadlarını qorumağı hədəfləyərlər.

Hər hansı bir insanın, xətalarını və ya nöqsanlarını özlərinə xatırlatmasını qətiyyən qürurlarına sığışdıra bilməzlər. Bu vəziyyətdə biabır olduqlarını, insanların gözündəki etimadlarını itirdiklərini düşünərək sarsılarlar. Bundan ötrü də, həmişə daxilən bu qorxu və narahatlıq içində yaşayarlar; istədikləri kimi hərəkət edə bilməz, normal həyat yaşaya bilməzlər. Daim bunların haqq-hesabını aparar, istədikləri kimi səmimi olaraq davranmaq əvəzinə, apardıqları bu hesaba uyğun olanı tətbiq edərlər. Bundan ötrü də, özlərini daim müəyyən şəkildə davranmağa zorlamaq və süni hərəkət etmək məcburiyyətində qalarlar.

Məsələn, hər kəsin əyləndiyi bir yerdə, təkəbbürlü insanlar hər kəsin əksinə əzab çəkərlər. Bir tərəfdən ruhlarında əyləncəyə qatılmaq üçün böyük istək duyar, digər bir tərəfdən də mükəmməl rəftarlar göstərə bilməyəcəkləri təqdirdə biabır olacaqları qorxusuyla bundan uzaq dayanarlar.

Məhz bu insanlar göstərdikləri bu əxlaqdan ötrü, tənha və soyuq bir aləmdə eqoizmləriylə baş-başa bir həyat yaşamaq məcburiyyətində qalarlar. Halbuki bunun əvəzinə təvazökar, Allaha və möminlərə qarşı itaətkar bir xarakter göstərmiş olsalar bütün bu sıxıntılardan xilas olarlar.

Təvazökarlıqla yanaşı, əzabın yerini sevinc, rahatlıq və xoşbəxtlik də alacaq. Çünki təvazökar insan səhv etmə qorxusu içərisində yaşamaz. Hər hansı bir səhvə yol verdiyi özünə xatırladıldığında dərhal Allaha üz tutar, Allahdan bağışlanma diləyər, niyyət və rəftarını düzəldər. Həmçinin təvəkkülündən ötrü, bu səhvi özü üçün xeyir hesab edər, əxlaqını daha da inkişaf etdirməsinə vəsilə olduğunu düşünərək sevinər. İnsanların özü barədə nə düşündüyünə deyil, Allahın rizasına əhəmiyyət verər. Belə düşünən insanla, təkəbbüründən ötrü gərginlik və narahatlıq yaşayan insanın ruh halının və həyatının nə qədər fərqli olacağı açıqdır.

Bununla yanaşı unudulmamalıdır ki, təkəbbür şeytanın ən əsas xüsusiyyətidir. Təkəbbürlənməsi, onun cənnətdən qovulmasına, Allahın lənətinə uğramasına və cəhənnəm əzabına layiq olmasına səbəb olmuşdur. Bundan ötrü də, Allahın gücü qarşısındakı acizliyini unudan, əbəs yerə təkəbbürlənərək insanlarla yarışa girən kimsələr də şeytanın uğradığı aqibətə uğramaqdan qorxmalıdırlar. Çünki Allah bir ayəsində, cahilliyyət cəmiyyətinin dəyər mühakimələrindən xilas ola bilməyərək, təkəbbür adı altında eqoizmlərini davam etdirən insanların axirətdə ağrılı bir əzab düçar ola biləcəklərini xatırladır. Allah dünya həyatında təkəbbürlənənlərə o gün belə səsləniləcəyini bildirir:

**Dad bu əzabı! Sən ki qüdrətli və şərəfli idin. (Duxan surəsi, 49)**

Həqiqi şərəf və qüdrət isə, dünyada olarkən itaətkar, məzlum və yolagedən rəftar göstərən insanlara məxsusdur. Allah iman edənləri belə müjdələmişdir:

**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə (Cənnətə) daxil edərik. (Nisa surəsi, 31)**

# Taleyin mükəmməlliyini və hər şeydə xeyir olduğunu düşünməmək

Allah Quranın bir ayəsində; **"...ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz"** (Bəqərə surəsi, 216) deyə bildiririr. İnsanlar həyatlarında bəzən heç gözləmədikləri, istəmədikləri və ya xoşlanmadıqları hadisələrlə qarşılaşa bilərlər. Bütün bunlar da; **"əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur..."** (Mülk surəsi, 2) ayəsiylə bildirildiyi kimi, insanların sınanması üçün xüsusi olaraq yaradılmışdır. İnsan isə, yaşadığı hadisə hər nə qədər çətin və ya mənfi kimi görünsə də, Allaha təvəkkül etməli və Rəbbimizin bu hadisəni bir xeyirlə yaratdığını bilməlidir. Mömin insan, bu təvəkkül və təslimiyyəti əxlaqına da hakim edər. Məhz bu, Allahın Quranla insanlara əmr etdiyi təvəkküllü rəftardır.

Təvəkkül, insanlara Allah tərəfindən bəxş edilən rəhmət və böyük asanlıqdır. Allahın; **"…sizə üz verən Allahın izni ilə oldu…"** (Ali İmran surəsi, 166) ayəsiylə bildirdiyi həqiqəti qavrayan insanlar, Allahın ağlına güvənərlər. Beləliklə, həm həyatlarının hər anını, gözəllikləri və xeyirləri görərək keçirmiş, həm də göstərdikləri əxlaqla Allaha olan imanlarını və təvəkküllərini göstərmiş olarlar. Məhz Allah da bu əxlaq qarşılığında; **"...kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar"** (Talaq surəsi, 4) ayəsiylə bildirildiyi kimi, onlara dərgahından asanlıq göndərər. Allahın; **"Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq və etimad duyğusu göndərən Odur. Göylərin və yerin orduları Allahındır. Allah biləndir, hökm və hikmət sahibidir"** (Fəth surəsi, 4) ayəsində buyurduğu kimi, göstərdikləri təvəkküldən ötrü Allah möminlərin qəlbinə çətinliklər qarşısında rahatlıq və etimad duyğusu göndərər.

Quranda, Allahın xeyir və ya şər kimi görünən bütün hadisələrdə səmimi qulları üçün xeyir yaratdığını bilən möminlərin, Allaha olan təvəkküllərini bu sözlərlə dilə gətirdikləri xəbər verilir:

**Allah bizə doğru yolları göstərdiyi halda, biz nə üçün Allaha təvəkkül etməyək? Sizin bizə verdiyiniz işgəncələrə dözəcəyik. Qoy təvəkkül edənlər ancaq Allaha təvəkkül etsinlər". (İbrahim surəsi, 12)**

Allaha təvəkkül edən insan qətiyyən hüzn və qəmginlik yaşamaz. Bu, Allahın təvəkküllü qullarına olan vədidir. Ayədə belə buyurulur:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Əhqaf surəsi, 13)**

Görüldüyü kimi təvəkkül etdikdə, Allahın izniylə hər şey çox asanlaşar. Təvəkkülsüzlük etdikdə isə, həyatda hər şey insanlar üçün ayrı bir çətinlik, ayrı bir sıxıntı və ayrı bir əzaba çevrilər. Hər iş mürəkkəb və içindən çıxılmaz hal alar. Ən sadə, ən adi və ən asan həll olunan hadisələr belə təvəkkülsüz insanların gözündə böyüyər. Bu insanlar Allaha iman etdiklərini söylədikləri halda, bəzən taleyin necə mükəmməl nizam içində işlədiyini unuda bilər və hadisələrin Allahdan müstəqil şəkildə inkişaf etdiyi düşüncəsinə qapıla bilərlər. Bundan ötrü də, başlarına gələnlərə xeyir gözüylə baxa bilməz, hadisələrdəki hikmətləri görə bilməzlər. Daim qorxu və narahatlıq içində yaşayarlar. Hələ heç nə olmadığı halda, baş verə biləcək mənfi ehtimalları düşünərək təvəkkülsüzlüyün gətirdiyi narahatlığı yaşayarlar. Eynilə ən müsbət və ən yolunda gedən hadisələrdə belə, yenə daim problem kimi xarakterizə edəcəkləri bəzi şeylər taparlar.

Bununla yanaşı başlarına gələn hadisələrin Allahdan gəldiyini düşünmədikləri üçün, üzləşdikləri bütün axsaqlıqları və problemləri özlərinin həll edəcəklərini zənn edərək inanılmaz dərəcədə sıxılarlar. Lakin hər nə etsələr də, Allah istəmədikcə heç nəyə çıxış yolu tapa bilməzlər. Çıxış yolu tapdıqlarında belə, yenə bu ancaq Allahın əmri ilə baş tutar. Buna görə də, təvəkküllü insan, bütün çıxış yollarını sınayar, əlindən gələn bütün səyi göstərər, ancaq nəticəni Allahın verəcəyini bildiyi üçün, bunları rahatlıq içində edər.

Təvəkkülsüz insanların yaşadıqları çətinliklərə gündəlik həyatda tez-tez rast gəlmək mümkündür. Məsələn, işə getmək üçün minəcəyi avtobusa yubanan bir insanın, avtobusun arxasınca qəzəblə deyindiyinə bir çox dəfə rast gəlmisiniz. Bundan ötrü dəqiqələrlə özünə gələ bilməz, hətta digər bir yolla işinə vaxtında çatsa belə, gün boyu bu hadisənin təsirindən xilas ola bilməz. Günə problemlə başladığını, dolayısilə gün ərzində bütün işlərinin tərs gedəcəyini düşünərək, öz-özünə stressə girib əzab çəkər. Bunun əvəzinə Allahın bu hadisədə yaratmış ola biləcəyi xeyirləri düşünsə, həm qətiyyən belə sıxılmayacaq, həm də tərs getmiş kimi görünən bir hadisədə Allaha təslim olduğu üçün Allahın rizasını qazanmış olmağı ümid edəcək.

Eynilə, keçirdiyi yol qəzası nəticəsində yaralanan bir insan, yaşadığı bu hadisə qarşısında təvəkkülsüz rəftar göstərdiyi təqdirdə qapıldığı kədər hissindən xilas ola bilməz. Bunu yaradanın Allah olduğunu unutduğu üçün, günahı avtomobili idarə edən sürücüdə və ya özündə axtararaq qəzəblənər. Halbuki bu sıxıntısı tamamilə yersizdir. Bu qəza Allah istədiyi üçün yaşanmışdır. Belə vəziyyətdə hadisədə olan tək bir xeyiri düşünməsi belə, insanı yaşadığı bu qurtulmaz əzabdan xilas etməyə kifayət edəcək. Məsələn, yaralanmaq əvəzinə ölmüş də biləcəyini düşünməsi belə, Allaha şükür etməsinə, rahatlıq tapmasına və sevinməsinə səbəb olar və ya yaralanmasının ölümü və axirəti düşünməsinə vəsilə olduğunu, bundan ötrü də Allaha daha çox yaxınlaşdığını, Allah qorxusunun daha çox artdığını düşünərək sevinməlidir. Bəlkə bu sayədə təkəbbürdən xilas olacaq, təvazökar olub da Allahın rizasını qazanacaq. Bu isə axirəti üçün ona böyük bir xeyir və qazanc gətirəcək. Dolayısilə Allaha və axirət gününə qəti məlumatla iman edən insan, istənilən vəziyyətdə Allahın yaratdığı xeyir və hikmətləri görə bilər.

Səthi imana sahib insanlar tez-tez təvəkkülsüz rəftar göstərir və bundan ötrü möminlərin əksinə sıxıntı və əzab içində bir həyat yaşayırlar. Bunun əvəzinə həmin bu insanlar, Quranda; **"bəzi insanlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" dedilər"** (Ali İmran surəsi, 173) ayəsiylə bildirilən möminlər kimi Allaha təvəkkül etsələr, çəkdikləri bütün əzablar sona çatacaq.

# Nankorluq

Allah Quranda; **"...Biz insana Öz mərhəmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə insanın nankor olduğunu görərsən"** (Şura surəsi, 48) ayəsiylə, bir çox insanın sahib olduğu pis bir əxlaq xüsusiyyətinə diqqət çəkir. Həqiqətən də bəzi insanlar, saysız nemət içində yaşamalarına baxmayaraq, Allaha nankorluq edirlər. Halbuki, bəlkə, heç düşünməmiş ola bilərlər, amma bədbəxt həyat yaşamalarının başlıca səbəblərindən biri, Allah qarşısında göstərdikləri bu əxlaqdır. Çünki Allah; **"siz (yalnız) Məni yad edin ki, Mən də sizi yad edim! (Yalnız) Mənə şükür edin, (əsla) Mənə nankorluq etməyin!"** (Bəqərə surəsi, 152) ayəsiylə, insanlara nankorluqdan qaçınmalarını əmr edir. İman etdikləri halda Allahın rəhmətini və özlərinə verilən o qədər gözəlliyin qiymətini bilməmələri, əlbəttə ki, insanlara əzab olaraq geri qayıdır.

Bu insanların belə bir əxlaq sərgiləmələrinin əsl səbəbi, təməldə dinin özünü tam olaraq qavramamış olmalarıdır. Taleyin mükəmməl işləyişini, yaxşı və ya pis görünən hər şeydə bir xeyir olduğunu düşünməmələri, hadisələrə mənfi gözlə baxmalarına səbəb olar. Halbuki bir hadisədə insanın nemət kimi görüb sevinə biləcəyi yüzlərlə təfərrüat var. Amma bu insanlar yanlış dünyagörüşlərindən ötrü, bu nemətləri gərəyi kimi görüb qiymətləndirə bilməzlər. Bəzən də, Allahın özlərinə verdiyi bu gözəllikləri gördükləri halda, bunları özlərinin əldə etdiyini zənn edərək gərəyi kimi şükür etməzlər. Özünə, açarlarını belə daşıya bilməyəcəyi qədər çox xəzinələr verilən Qarunun, Allaha nankorluq edərək ayədə bildirildiyinə görə; **"...bu mənə ancaq məndə olan biliyə görə verilmişdir..."** (Qəsas surəsi, 78) dediyi kimi, bu insanlar da sahib olduqları nemətlərə onsuz da layiq olduqları düşüncəsinə qapılarlar. Buna görə də, bunları sevinc və xoşbəxtlik vəsiləsi nemətlər hesab etməzlər. Dünya ehtirasından tam xilas olmamalarından ötrü əllərindəkilərlə kifayətlənməzlər. Qənaətkar olmamalarından ötrü nemətlər qarşısında belə tərs və təkəbbürlü insan xarakteri sərgiləyərlər.

Həmçinin bu insanlar, neməti verənin də, alanın da, azaldan və artıranın da Allah olduğunu unudarlar. Bundan ötrü də, əlindəki bəzi nemətləri itirdikdə xeyli məyus olarlar. Halbuki bu Allahın imtahanıdır və insanın əlindəki nemətlərin qiymətini anlaması üçün əhəmiyyətli təhsil imkanıdır.

İnsan əslində, qarşısına çıxan bu imkanları qiymətləndirərək, şüküredən əxlaqıyla Allahın rizasını qazanmağa çalışmalıdır. Belə ki, bunun əksi edildikdə, Allah Quranda nemət içində yaşayarkən, Özünə nankorluq edən insanların əllərindəki nemətlərdən məhrum ola biləcəklərini bildirir. Bu həqiqəti xəbər verən ayədə belə buyurulur:

**Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir diyarı (Məkkəni) misal çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o diyarın əhalisi Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü. (Nəhl surəsi, 112)**

Əgər ayədə bəhs edilən insanlar, nankorluq etmək əvəzinə şüküredən əxlaq göstərsələr, Allah onları verdiyi nemətini artırar. İman edən insanlar bu əxlaqın gətirdiyi rahatlıq və xoşbəxtliyi yaşayarlar. Hər şeyə iman və hikmət gözüylə baxdıqları üçün ətraflarındakı nemətləri, gözəllikləri və incəlikləri dərhal görə bilərlər. Dünya nemətlərinə ehtirasla yanaşmadıqları üçün əllərindəkilərlə kifayətlənərlər. Ən çətin şəraitlər altında, ən çətin mühitlərdə belə bu əxlaqlarını davam etdirərlər. Hadisələrin pis tərəflərini görüb bədbəxt olmaqdansa, daim yaxşı tərəflərini görüb sevinməyi bacararlar. Allah, səmimi möminlərin göstərdikləri bu gözəl əxlaq qarşılığında Quranda olan; **"o zaman Rəbbiniz bildirmişdi: “Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir"** (İbrahim surəsi, 7) ayəsiylə bildirdiyi kimi bu əxlaqı göstərən insanların üzərindəki nemətlərini daha da artırır.

# Eqoistlik

Allah Quranda; **"həqiqətən, insan eqoist və həris yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə mane olar (və ya xəsislik edir)"** (Məaric surəsi, 19-21) ayələriylə insanlarda olan bir nöqsanı çatdırır. İnsan eqoist ehtiraslara qapılmağa meyilli varlıqdır; hər fürsətdə özünü ön plana çıxartmağa, öz mənfəətlərini qorumağa və özünü hamıdan çox sevməyə meyillidir. İnsan, əgər Allah qorxusuyla gözəl əxlaqda iradə göstərməsə, nəfsi onu daim; “təkcə mən sevilim”, “mən təriflənim”, “mən bəyənilim” kimi eqoist ehtiraslara qapılmağa təhrik edər. Belə əxlaq yaşandıqda başqalarının rahatlığı, dincliyi, xoşbəxtliyi daim ikinci plana atılar. “Əvvəlcə onların rahatlığı təmin edilsin” və ya “onların mənfəətinə uyğun olsun, lazım gəlsə mən öz mənfəətlərimdən güzəştə gedərəm”, “başqaları xoşbəxt olsun, mən də onların xoşbəxtliyindən zövq alım” kimi fədakar düşüncələrdənsə, daim “nə olursa olsun, ilk növbədə mən” fikiriylə hərəkət edilər.

İman edənlər nəfslərinin bu ehtirasına qalib gələrlər və Allahın razı olduğu əxlaqı yaşayarlar. Ancaq bəzi insanlar da; **“onsuz da dinin bəzi hökmlərini yerinə yetirirəm, hərdənbir öz mənfəətlərimi güdməyimin nə kimi pis tərəfi ola bilər”** kimi yanlış bir düşüncəyə qapılaraq, əxlaqlarındakı bu çatışmazlığı zərərsiz hesab edərlər. Üstəlik insanın öz mənfəətlərini güdməsini “həyatın bir həqiqəti” hesab edərlər. Yəni hər nə qədər Quranla, bunun səhv olduğu özlərinə izah edilsə də, şüur altlarında, yaşaya bilmək üçün öz mənfəətlərini ön planda tutmağın lazım olduğunu zənn edərlər. Bunu etmədiklərində isə, heç kəsin öz mənfəətlərini güdməyəcəyini, tapdalanacaqlarını və ziyana uğrayacaqlarını düşünərlər. Üstəlik, hər kəs bu əxlaqı göstərib öz mənfəətlərini güddükləri təqdirdə, təkcə özləri fədakar olsalar, bu vəziyyətdə ağılsız insan mövqesinə düşəcəklərini zənn edərlər. Bu düşüncələrindən ötrü, nəfslərini fədakar və incə düşüncəli olmaq üçün tərbiyə etməzlər. Halbuki insanın mənfəətlərini güdə biləcək yeganə güc sahibi var ki, bu güc sahibi də Allahdır. İnsan nə eqoistlik etməklə, nə də öz mənfəətlərinin arxasınca qaçmaqla özü üçün mənfəət təmin edə bilməz. Allah bu vəziyyəti bir ayədə belə bildirir:

**Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir. (Yunis surəsi, 107)**

İnsanların eqoistliyi özünü ən çox, mal-dövlət və cana olan ehtiraslarında büruzə verər. Gözəl və yaxşı olan hər şeyi özləri istifadə etmək istəyərlər. Məsələn, biri, əşyalarından istifadə etmək istədiyini dedikdə, vermək istəmədikləri üçün yalandan özlərində olmadığını söyləyərlər. Bu eqoist ehtiras, həyatlarının hər anında özünü göstərər. Gözəl bir yeməyin özlərinə qalmasını istəyərlər. Başqalarıyla bölüşməmək üçün, bu yeməyi, tək olarkən, evdə heç kim olmadıqda yeməyə çalışarlar. Bölüşmək zərurəti yarandıqda isə, yeməyin ən gözəl yerini özlərinə götürüb, digər insanlara qalan yerini verərlər. Eynilə görülməsi lazım olan çətin bir iş olduqda da, müxtəlif bəhanələr irəli sürməklə bu işdən qaçar və bunu başqalarının görməsini təmin etməyə çalışarlar. Öz canları digər bütün insanların canından daha şirindir. Bundan ötrü də, hər hansı biri daha çox yorğun və ya daha çox işi olsa, özlərinin də vaxtı olsa, yenə bir qaçış yolu axtararlar.

Bu insanların gizlətdiyi bu ehtiras yalnız mal-dövləti və yeməyi sahiblənmə duyğusuyla məhdudlaşmır, bu, bir çox mövzuda da ortaya çıxa bilər. Nəfsindəki eqoistlikdən imtina etməyən insan çox sadə şeylərə belə tamah sala bilər; daim öz istədiklərinin yerinə yetməsini istəyər, son sözü daim özü söyləməyi sevər. Məsələn, izdihamlı bir mühitdə öz bəyəndiyi musiqinin dinlənməsini, öz istədiyi televiziya kanalının seyr edilməsini istəyər. Başqalarının istəklərini isə, heç vaxt prioritet götürməz. Ən rahat yerə oturmağa tələsər. Əmək bölgüsü aparıldıqda, işin ən asan olanını boynuna götürər, çətin olanı isə daim başqalarına saxlamağa çalışar. Təcili görülməli bir iş olduqda və ya fədakarlıq tələb edən vəziyyətlərdə asta hərəkət edər, daim bir addım geridə dayanar. Qarşılıqlı söhbətdə təvazökarlıq göstərib güzəştə getmək əvəzinə öz dediyində təkid etməyi mərifət sayar.

Halbuki kiçik mənfəətlər əldə etmək üçün göstərdiyi bu cür rəftarlar, iman etdiyini söyləyən və Quran əxlaqından xəbərdar olan insanı böyük səmimiyyətsizliyin içinə sürükləyər. Səmimiyyətsizlik isə insanı daim narahatlıq içində yaşadar. Öz mənfəətlərinin arxasına düşən belə bir insan, daim bəlli etmədən ətrafındakı insanları aldada bilmək üçün böyük səy göstərər. Daim bu gizli səmimiyyətsizliyinin ortaya çıxması, ifşa olunması qorxusuyla yaşayar.

Saleh müsəlmanlar isə heç vaxt belə qorxular yaşamazlar. Quranda səmimi müsəlmanların Allahın rizasını qazanmaq üçün canlarını və mallarını ortaya qoyduqları, heç bir qarşılıq gözləmədən yaxşılıq etdikləri, digər müsəlmanların ehtiyaclarını özlərinkindən üstün tutduqları bildirilir:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər. (İnsan surəsi, 8-11)**

Görüldüyü kimi, fədakar əxlaqlarından ötrü Allah müsəlmanlara aydınlıq və nur verir. Bunun əksi olan rəftarı göstərdikdə, yəni eqoistlik etdikdə isə Allah insanlara gizli əzab yaşadar. Eqoistlik edərək, insanlara tələ qurduğunu və özünün ağıllı olduğunu zənn edən bu insanlar, əslində öz qurduqları tələyə düşərlər. Bu, Quranda bildirilən sirlərdən biridir. Fədakar insan bu əxlaqı göstərərkən, üzərinə daha çox məsuliyyət düşdüyü üçün kənardan baxanda daha çox yorular, malını verər, pulunu xərcləyər, öz qanuni haqqlarından və istəklərindən vaz keçər, amma vicdani baxımdan fərəhlənən, rahat, xoşbəxt, gözəl bir həyat yaşayan da odur. Eqoist və nəfsinə düşkün insan isə, daim nəfsinin istəklərini təmin etmə səyi içində sıxıntılı və çətin bir həyat yaşayar. Nəfsinə ağır gələn ən kiçik bir çətinlik onu bədbəxt və narahat etməyə kifayət edər.

# Kin və qəzəbin insanlara yaşatdığı gərginlik

Bir çox insanın sıxıntı və narahatlığa qapılmasına səbəb olan əxlaq xüsusiyyətləri arasında kin və qəzəbin yeri də olduqca əhəmiyyətlidir. Hər insan gündəlik həyatda xoşlamadığı bir çox hadisə və ya rəftarla qarşılaşa bilər. Bəzi insanlar bu cür vəziyyətlərdə dərhal qəzəblənər, hətta bununla da kifayətlənməyib kin tutmağa başlayarlar.

İman edənlər isə, nəfslərinin bu təlqinlərinə qulaq asmazlar. Çünki Allah, rizasını qazanacaq və cənnətinə qovuşacaq qullarını; **"onlar, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyən, qəzəblərini boğan və insanlardakı haqqlarından bağışlayaraq vaz keçənlərdir"** (Ali İmran surəsi, 134) ayəsiylə göstərir. Bundan ötrü də, möminlər qəzəblənməkdən və kin tutmaqdan Allaha sığınar və bunun üçün belə dua edərlər:

**Onlardan sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!". (Həşr surəsi, 10)**

İman edənlərə kin və ya qəzəb bəsləmək, həqiqi iman edən insanın qorxub çəkinməsi lazım olan vəziyyətdir. Çünki Quranda Allah; **"sizin dostunuz (vəliniz) yalnız Allah, Onun Elçisi və rüku etməklə namaz qılıb zəkat verən möminlərdir"** (Maidə surəsi, 55) ayəsiylə möminlərin bir-birlərinin vəliləri olduğunu bildirmişdir. Allahı sevən, Onun rizasını qazanmağa çalışan, Quran əxlaqını yaşayan və həyatını dinə xidmət etməyə həsr etmiş insanlara qarşı, insanın qəlbində kin və ya qəzəb kimi duyğular bəsləməsi, onun tam olaraq iman etmədiyini göstərər. Allaha və iman edənlərə qarşı qəlbində belə səmimiyyətsizlik olması, bu insanın imanın bəxş etdiyi rahatlıq və xoşbəxtliyi gərəyi kimi yaşaya bilməməsinə də səbəb olar.

Bu əxlaqı yaşayan insanlar görməzlikdən gəlib üstündən keçə biləcəkləri hadisələrin təsirindən heç cür xilas ola bilməzlər. Adi bir hadisə və ya bir insanın etdiyi cüzi bir səhv, bu insanların qəzəblənməsi üçün kifayətdir. Hətta bəzən qəzəbli olduqları üçün, insanların normal hərəkətlərini belə qəzəb oyandıran rəftarlar hesab edə bilərlər. Qəzəblərindən ötrü doğru düşünə bilməz, hadisələri ədalətli və obyektiv şəkildə qiymətləndirə bilməzlər. Daha da əhəmiyyətlisi qəzəblərini yatırtmaq istəyi həmin anda bir çox şeydən daha prioritetli olar. Allahın rizasını, qəzəblərini boğmaq, göz yummaq və bağışlayıcı rəftar göstərməklə qazanmağın mümkün olduğunu bildikləri halda, nəfslərinin təsiriylə özlərini qəzəblənməkdən saxlaya bilməzlər. Allah insanlara Quranda; **"sən bağışlama yolunu tut, (İslama) uyğun olanı əmr et və cahillərdən üz döndər"** (Əraf surəsi, 199) deyə bildirir. Bundan ötrü də, həqiqi mənada qəzəblənməli vəziyyət yarandıqda belə, Allahı sevən və Onun rizasını qazanmağa çalışan bir mömin, mömin qardaşının səhvini bağışlayar.

Bununla yanaşı kin və qəzəblərini kənara əks etdirməyib qəlblərində saxlamış olmaları da bu insanları yanıltmamalıdır. Çünki Allahın insanlardan istədiyi, gizlə və ya açıq da olsa, bu əxlaqı qətiyyən yaşamamalarıdır. Bu insanlar, Allahın insanların qəlblərində gizlətdiklərini də bildiyini unudarlar. Halbuki Allah bir ayəsində belə buyurur:

**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? (Məhəmməd surəsi, 29)**

Bununla yanaşı bütün digər əxlaq pozuntularında olduğu kimi kin və qəzəb, hamıdan çox insanın özünə zərər verən duyğudur. Çox vaxt qarşı tərəfin, insanın yaşadığı bu sıxıntıdan xəbəri belə olmaz. Amma eyni zamanda bu insanlar başqa heç bir şey düşünə bilməyəcək qədər bu mövzuya aludə olmuş olarlar. Qəlblərindəki qəzəbi yox etmədikləri müddətcə, başqa hər hansı bir mövzu üzərində diqqətlərini cəmləşdirmələri, ağıllarını işlətmələri, işlərini görə bilmələri və ya insanlarla normal ünsiyyət halına keçə bilmələri qeyri-mümkündür.

Həmçinin qəzəb, insanlara ciddi dərəcədə fiziki zərərlər verər; daxili narahatlıq, baş ağrısı, mədə ağrısı, yuxusuzluq kimi xəstəliklərin təməlində ümumiyyətlə bu cür əxlaq pozuntuları dayanır.

Göstərilən bu əxlaq, insanların həmin anda Allahı, taleyi, imtahan verdiklərini və axirətdə hesab verəcəklərini unutmuş olmalarından qaynaqlanır. Yoxsa saatlarla, günlərlə və yaxud həftələrlə bir hadisəni və yaxud da bir insanın göstərdiyi rəftarı düşünərək, bundan ötrü qəlblərində qəzəb bəsləmələri qeyri-mümkündür. Allahdan həqiqi mənada qorxan bir insan, nəfsinin özünü belə bir mövzuda qızışdırdığını gördüyü vaxt, Allahın bildirdiyi kimi davranar:

**(Allahdan) qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (əvvəlcə) yaxşı şəkildə düşünərlər (Allahı xatırlayarlar) və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 201)**

Kin və qəzəb, insanın səmimi dostluğu, sevgini və qarşılıqlı anlaşmanı yaşamasına mane olar. Belə insanların heç vaxt dostu olmaz və daim yalqız olarlar. Yalqız və dostu olmayan bir insanın, xoşbəxt olması, nemətlərdən zövq alması isə qeyri-mümkündür. İnsan, dostluqlardan, sevgidən, söhbətdən, sevincini kimlərləsə bölüşməkdən, etibar edəcəyi insanlarla birlikdə olmaqdan zövq alacaq şəkildə yaradılmışdır. Təklik, heç bir dost sahibi olmamaq, insanın fitrətinə zidd olduğu üçün, bu insanı depresiyyaya, sıxıntıya salar. Hər nə qədər bəzi insanlar təklikdən zövq aldıqlarını, heç kəsi sevmədiklərini, yalnız özlərini sevdiklərini və bu şəkildə rahat olduqlarını söyləsələr də, bunda səmimi deyildirlər. Onlar yalnız insanlara olan kinlərindən və ya həqiqi mənada dost tutacaqları insanlar tapa bilmədiklərindən ötrü, qətiyyən xoşbəxt deyildirlər. Bunları yalnız insanlara xoşbəxt görünmək üçün söyləyərlər. Dost tapa bilməyən insanların, əlacsızlıqdan pişiklərini, itlərini, quşlarını dost tutmalarının, onlara olduqca düşkün hala gəlmələrinin, hətta bir insanla danışırmış kimi onlarla danışmağa başlamalarının altında yatan səbəblərdən biri budur. Bundan ötrü də kin və qəzəb, insanın fitrətinə zidddir və insanı təkliyə, bədbəxtliyə və çarəsizliyə sürükləyər.

Unudulmamalıdır ki, Quranda; **"onlara deyiləcək: “Oraya sağ-salamat və xatircəmliklə daxil olun!” Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar"** (Hicr surəsi, 46-47) ayələriylə ifadə edildiyi kimi cənnət əxlaqında kin və qəzəbə yer yoxdur. Dolayısilə cənnəti qazanmağı hədəfləyən mömin də dünyada bu pis əxlaqı tərk etməlidir.

# İnsanı yoran və narahat edən bir xarakter: sünilik

Bəzi insanları süni rəftarlara sövq edən şey, insanlardan gizlətdikləri bəzi düşüncələrə sahib olmalarıdır. Göründükləri kimi olmadıqları üçün, içlərindən gəldiyi kimi təbii və səmimi davrana bilməzlər. Həmişə bəzi şeyləri gizlətmə, bəzi şeyləri təqlid etmə və insanları bəzi şeylərə razı salmağa səy göstərərlər. Bundan ötrü də, üzləri çox vaxt öz həqiqi üzləri, səsləri öz təbii səsləri olmaz və danışıqları öz səmimi düşüncələrini əks etdirməz. Süni rəftarlarından ötrü bu insanlarla birbaşa əlaqə yaratmaq qeyri-mümkündür. Gerçək şəxsiyyətlərini gizlədərlər; insanlar haqqındakı gerçək düşüncələrini, hadisələr haqqındakı gerçək şərhlərini, acizliklərini, istək və tələblərini daim gizlətməyə çalışarlar. Özlərinə içində olduqları vəziyyət izah çatdırıldıqda və ya süni rəftarları təsvir edilib səmimiyyətə dəvət edildiklərində belə, yenə eyni süni reaksiyalarla cavab verərlər. Buna görə də, bu insanların gerçək xarakterlərini anlaya bilmək, gerçək düşüncələrini öyrənə bilmək heç vaxt mümkün olmaz. Bundan ötrü də, bu insanların yanında heç vaxt rahatlıq tapmaq olmaz. Çünki gerçək üzünü gizlədən bir insanın, daim heç gözlənilməyən hərəkətlər və əxlaqsızlıq etmə ehtimalı var.

Halbuki mömінin ən əhəmiyyətli xüsusiyyətlərindən biri salam sifətinə sahib olması, yəni etibarlı bir insan olmasıdır. Ona bu etibarlılığı qazandıran; Allahdan qorxub çəkinməsi, hər nə səhvi və ya çatışmazlığı olsa da, bunları gizlətmək əvəzinə, düzəltmək üçün səmimi səy sərf göstərməsidir. Bunun əksi olan bir rəftar göstərmək özüylə birlikdə, əvvəlcə Allaha qarşı səmimiyyətsizlik, sonra da insanlara qarşı ikiüzlük gətirər.

İkiüzlülük isə insana əzab verər. Çünki səmimiyyət nə qədər asanlıq və nə qədər rahatlıq gətirirsə, ikiüzlülük də bir o qədər sıxıntı və çətinlik gətirər. Səmimiyyətsizlik, insanın həyatı boyu bir an belə fasilə vermədən "süni davranma"sını tələb edir. Süni davranmaq üçün, daim gərəksiz yerə diqqətcil olmaq, plan qurmaq və hesab aparmaq çox çətindir. Eynilə ürəkdən gələn gerçək istəklərin daim yerinə yetirilməməsi, gerçək xarakterin və təbii həyatın heç vaxt yaşana bilməməsi də insanları ciddi şəkildə əzaba sürükləyər. İnsanların, belə bir əzab içində yaşamaqdansa, qəlblərindəki mənfi xüsusiyyətlərdən xilas olub müsbət

xüsusiyyətlərə yiyələnmələri və bunun nəticəsində səmimi, təbii və rahat davranmaqdan çəkinməmələri olduqca asandır.

Dini və gözəl əxlaqı gerçək mənada yaşamaq və Allaha qarşı əsl mənada səmimi olmaq əvəzinə, bunları təqlid etməyə üz tutmaq insanın həm dünyanı, həm də axirəti itirməsinə səbəb olar. Bundan ötrü də, insan qəlbində Qurana zidd olan heç nə saxlamamalı, Allaha və möminlərə qarşı mümkün qədər ən səmimi rəftarı göstərməlidir.

# Qısqanclıq

Qısqanclıq, insanların dünyaya olan bağlılıqlarından qaynaqlanan mühüm rəftar pozuntusudur. Allah Quranda; **"...doğrusu, nəfslər qısqanclıq və eqoistlik etməyə hazırdır..."** (Nisa surəsi, 128) ayəsiylə insanların nəfsində belə bir duyğu olduğunu bildirmişdir. **"Nəfsini (günahdan) təmizləyən uğur qazanmışdır"** (Şəms surəsi, 9) ayəsiylə də, insanın qurtuluşu üçün nəfsini bu günahlardan təmizləməli olduğunu bildirir. Əksini etdikdə isə Quranda; **"onu (günaha) batıran isə məhv olmuşdur"** (Şəms surəsi, 10) ayəsiylə bildirildiyi kimi, nəfsindəki bu pisliklər insanı məhvə sürükləyər. Qısqanclığın insanlar üzərində yaratdığı mənfi təsir və verdiyi əzab, ayədə bildirilən məhvin dünyada necə baş verə biləcəyini açıq şəkildə göstərmişdir.

Cahiliyyət cəmiyyətində insanların qısqanclığa olan dünyagörüşləri Quranda bildiriləndən çox fərqlidir. Bu insanlar qısqanclığın hər insanda az-çox olması lazım olan, insana xas bir xüsusiyyət olduğunu düşünərlər. Hətta heç qısqanc olmadığını söyləyən insanları qəribə qarşılayarlar. Özləri isə həyatları boyu iç-içə yaşadıqları insanların demək olar ki, hər şeyini qısqanarlar; zəkalarını, gözəlliklərini, qabiliyyətlərini, mallarını, uşaqlarını, evlərini, işlərini və sair və il axır

Qısqanc insanlar başqalarının yaxşılığından, gözəlliyindən və ya müvəffəqiyyətindən həzz alıb xoşbəxt olmaz, əksinə bun onlara sıxıntı verər. Qısqandıqları insanların nemətə nail olmaları onları məhzun edər və daxilən kədərləndirər. Bu hərislikləri, onları qarşılarındakı insanlara zərər vermə istəyi duymağa qədər sövq edər. Bundan ötrü də, Allah Quranda möminlərin; "paxılın şərindən Allaha sığınmalarını" bildirir:

**De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən cadugər qadınların şərindən və həsəd apardığı zaman paxılın şərindən!". (Fələq surəsi, 1-5)**

Möminlər isə cahiliyyət insanlarının öyündükləri bu xüsusiyyətin əslində çirkin bir rəftar olduğunu bilərlər. Qısqanclığın əksinə bir-birlərinin gözəl xüsusiyyətləriylə öyünər, bir-birlərinin yaxşılığı üçün Allaha dua edərlər. Onsuz da Quranı bilən və Quran əxlaqını yaşayan bir insanın, bunun əksini edəcəyi düşünülə bilməz. Lakin buna baxmayaraq, iman etdiklərini söylədikləri halda, bu əxlaqı gərəyi kimi yaşamayan insanlar da var. Bu insanlar cahiliyyət cəmiyyətlərində olduğu kimi, qısqanclığı normal qarşılamaz və açıq şəkildə bu əxlaqı müdafiə etməzlər. Ancaq bəzi hallarda nəfslərinin bu istiqamətdəki təlqinlərinə qapıla bilərlər. Bəzən də öz aləmlərində qanuni hesab etdikləri bəzi vəziyyətlərdə bu hissləri yaşamalarının Qurana zidd olmayacağını düşünərək özlərini aldadarlar. Məsələn, qanuni və Qurana uyğun bir istək olaraq, möminlər arasında sevgi, dostluq, etibarlılıq kimi mövzularda ən öndə getmək istəyərlər. Əlbəttə ki, mömin, Allahın, Onun Rəsulunun və möminlərin sevgisini, dostluğunu və etibarını ən çox qazanmaq istəyər. Amma özü kimi digər möminlərin də bu nemətləri ən çox qazanmalarını istəyər. Əgər başqa bir insan özündən daha gözəl əxlaqa sahibdirsə, bu halda onunla öyünməli və ona ancaq qibtə etməlidir. Mömin əxlaqında qısqanclığa yer yoxdur. Ancaq bəhs olunan insanlar qibtə etmə duyğularını qısqanclıqla qarışdırırlar.

Əslində bu insanların hər biri din əxlaqını yaxşı bildiklərindən ötrü yaxşıyla pisi, doğruyla yanlışı çox açıq şəkildə ayırd edə biləcək anlayışa sahibdirlər. Quran ayələri və vicdanları, nəyin qısqanclıqdan, nəyin də qanuni istəklərdən qaynaqlandığını özlərinə göstərir. Buna baxmayaraq, öz-özlərini aldadarlar. Özlərini aldadarkən istifadə etdikləri üsullar isə, tamamilə Allaha qarşı səmimiyyətsizliyə əsaslanır. Bu səmimiyyətsizliyindən ötrü də, mömin əxlaqının bəxş etdiyi rahatlıq əvəzinə, daxilən cahiliyyə əxlaqının

gətirdiyi bu sıxıntını yaşamaq məcburiyyətində qalarlar. Qəlblərində qısqanclıq hisslərini yaşadan insanlar, daim dünyada bədbəxt yaşayarlar. Özlərindən daha yaxşı, daha gözəl, daha qabiliyyətli insanların varlığı, başqa birinin təriflənməsi və ya başqasına göstərilən sevgi, hər an kədər və sıxıntıyla üzləşmələrinə səbəb olar. Allahın özlərinə verdiyi nemətlərlə kifayətlənməyi, bunlar üçün şükür edib bunlarla xoşbəxt olmağı bacarmadıqları üçün əzab çəkərlər.

Daxilən yaşanan bu gizli əzabdan qurtulmağın yeganə yolu isə, nəfsi bütün pisliklərdən təmizləmək və hər şeyi Quran ayələri ilə qiymətləndirməkdir. Belə bir insan bütün gözəlliklərin, malın, mülkün əsl sahibinin Allah olduğunu, Rəbbimizin bütün bunları dünyada insanlara müxtəlif formalarda verərək onların əxlaqlarını sınadığını biləcək. Artıq bu həqiqətə görə hərəkət edəcəyindən ötrü, hər cür gözəllik özü üçün də zövq alınacaq bir nemətə çevriləcək.

# Yalançılıq

Yalan danışmaq cahiliyyət cəmiyyətlərində olduqca geniş yayılmış, pis bir əxlaq xüsusiyyətidir. İnsanların böyük hissəsi, öz aləmlərində, qarşı tərəfin anlamayacağı şəkildə özlərini hazır vəziyyətə gətirdikdən sonra, yalan danışmaqda hər hansı bir problem olmayacağına inanar. Çünki bu kəslər, yalnız insanlar qarşısında məsuliyyət daşıdıqlarını zənn edirlər. İnsanları aldadıb razı saldıqdan sonra artıq heç bir problem qalmadığını düşünərlər. Halbuki insan, bütün məsuliyyəti yalnız Allah qarşısında daşıyır və Allah Quranda; **"... yalan sözlərdən də çəkinin"** (Həcc surəsi, 30) ayəsiylə insanlara yalan danışmaqdan çəkinmələrini əmr edir. Bundan ötrü də, deyilən yalan, nə qədər ağılla uydurulmuş olsa və ya insanları inandırmağa kifayət etsə də, Allah həqiqəti bilməkdə və həmin insanın yalan danışdığını görməkdədir.

İman edənlər, yalanın Allahın insanlara haram buyurduğu davranış forması olduğunu bilər və ən kiçik bir mövzuda belə yalan danışmaqdan qəti surətdə çəkinərlər. Lakin nəfslərinin təsiriylə hərəkət edən bəzi insanlar, cahiliyyət dövründə qoymaları lazım olan bu əxlaqlarını hələ də davam etdirirlər. Əlbəttə ki, bu insanlardan soruşulduğu təqdirdə Allahın haram etdiyi belə bir hərəkəti qətiyyən açıq şəkildə və bilə-bilə etməyəcəklərini söyləyərlər. Amma çətin vəziyyətdə qaldıqlarında, dərhal yalana əl ata bilərlər.

Haram olduğunu bilə-bilə yalan danışan insan, ilk baxışda söylədiyi yalanla özünü qorumuş, bəzi şeylər qazanmış kimi görünə bilər. Ancaq həqiqət belə deyil. Yalan danışmaq, insanın vicdanını narahat edər, onu sıxar. Belə insan daim yalanlarının ortaya çıxmasından və bundan ötrü də, insanların gözündə alçalmaqdan qorxar, daim bunun gərginliyini yaşayar. Allahın haram buyurduğu bir şeyi etdiyini bildiyi üçün daxilən rahat ola bilməz. Üstəlik bir dəfə yalan danışmağa başlayan bir insan, yalanının ortaya çıxmaması üçün, özünü dalbadal yeni yalanlar söyləmək məcburiyyətində hiss edər. Hər dəfə bir qədər də yalan bataqlığına sürüklənər və daxilən bundan xilas ola bilməməyin stressini yaşayar. Həmçinin yalançı insanlar ətraflarındakı insanlar tərəfindən dərhal seçilərlər, bundan ötrü də onlara etibar və hörmət edilməz. Bu isə, yalançının daha da alçalmasına səbəb olar. Özünü ucaltmaq və özünə mənfəət təmin etmək üçün yalan danışan bu cür insanlar, gözlədiklərinin tam əksiylə üzləşərlər.

Allah, belə insanların şeytanın təsiriylə hərəkət etdiklərini Quranda belə bildirir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar həqiəti oyan-buyana döndərən, günaha düşkün hər bir yalançıya. Bunlar (şeytanların sözünə) qulaq asarlar və çox yalan danışarlar. (Şuəra surəsi, 221-223)**

Bundan çıxış yolu isə, bütün səmimiyyətsiz rəftarlarda olduğu kimi qəti şəkildə tövbə edərək Allaha sığınmaq, Quran əxlaqını tam şəkildə yaşamaqdır. Bu təqdirdə bu insanların həm dünya həyatındakı sıxıntılı həyatları sona çatacaq, həm də axirətdəki sonsuz əzabdan xilas olmağı ümid edə biləcəklər.

# Romantiklik

Romantiklik, insanlara sıxıntılı həyat yaşadan və eyni zamanda Allahın Quranla bildirdiyi anlayışa uyğun gəlməyən, lakin insanların böyük hissəsinin görə bilmədiyi ciddi bir təhlükədir. Hətta romantiklik çox vaxt insanlar arasında rəğbətlə qarşılanılar və insanlar buna təşviq edilər. Romantikliyin sevginin təzahürü olduğu zənn edilər, halbuki Quran əxlaqından yaşamayan insanların içlərində yaşatdıqları bir əzabdır. Əsl sevgi səmimi olar və o, səmimiyyətlə, açıq şəkildə, çəkinmədən, qürur olmadan göstərilən səmimi bir duyğudur. Romantiklik isə, sevginin gizlədilməsindən və ya Allaha yönəldilməsi lazım olan sevginin insanlara yönəldilməsindən qaynaqlanır. Bu cür davranan kəslər sevgilərini yönəltdikləri insanları sahiblənər, hətta onlara qarşı, onları bütləşdirməyə qədər gətirib çıxaran hisslər bəsləyərlər. Bundan ötrü də, daim iztirab içində yaşayarlar.

Romantiklik dinə zidd bir duyğudur. Quran əxlaqı insanlara, hadisələri həqiqi baxış prizmasıyla görə bilmə və ağıllı yanaşma tərziylə şərh edə bilmə qabiliyyəti qazandırar. Romantiklik isə insanları həqiqətlərdən uzaqlaşdıran, məntiqsiz düşüncələrə sövq edən və yanlış qərarlar almağa yönəldən bir duyğudur. İmanı və Quran əxlaqını qavrayan insanlar üçün, romantikliyin zövq alınacaq heç bir tərəfi yoxdur. Onlar bunun, insanları hüznə, məyusluğa və məhvə sürükləyən bir düşüncə tərzi olduğunu bilirlər. Bundan ötrü də, nə açıq, nə də gizli şəkildə, qəlblərinin belə bir acizliyə düçar olmasına icazə verməzlər.

İman etdikləri halda romantikliyin Qurana zidd olan bu cəhətlərini görməyən və ya bunlara əhəmiyyət verməyən insanlar isə, belə bir mövzuda zəiflik göstərə bilərlər. Bəzən yalnız öz-özlərinə daxilən yaşadıqları bu duyğu, bəzi hallarda açıq şəkildə rəftarlarına da hakim olar. Bu duyğunun ən nəzərə çarpan xüsusiyyətlərindən biri, bu insanların heç cür qarşısını ala bilmədikləri ağlama meylidir. Ağlama halı; bir insanın hər hansı bir şeyə dözə bilməyərək kədərlənməsindən ötrü yaranır ki, bu da həmin insanın Allahın yaratdığı taleyə könül rahatlığı və məmnuniyyətlə təvəkkül edə bilməməsindən qaynaqlanır.

Romantikliyin təsirindən ötrü, bu insanlar daim hüznlü olar. Yaşadıqları hər hadisədə mütləq kədərlənib hüznlənəcəkləri bir şey taparlar. Bundan ötrü də, həyatlarını daim ağlama meyli içində keçirərlər. Lakin ağlama deyildikdə, ağla yalnız insanın gözyaşı tökərək ağlaması gəlməməlidir. Bəzən bu cür də ağlayarlar. Amma bəzən də fiziki baxımdan gözyaşı tökmədikləri halda, ağlamağa davam edərlər ki, bu bədənin ağlamasıdır. Bu ruh halındakı insanın gözləri bəzən azacıq yaşardığı halda, bəzən də heç yaşarmaz. Amma sifətində hüznün səbəb olduğu nəzərə çarpan bir saralma və solma halı müşahidə olunar. Səsində, güc və canlılıq yoxdur. Baxışları donuq və kədərlidir. Üzərində ağırlıq və bitkinlik, danışıqlarında isə böyük ümidsizlik hakimdir. Bədənləri, keçirdikləri güclü stressdən ötrü öz funksiyalarını gərəyi kimi yerinə yetirə bilməz. Bundan ötrü də, bu insanlar ruhi cəhətdən çökməklə yanaşı, bədən cəhətdən də ciddi problemlər yaşayarlar. Bu ruh halına qapıldıqları anlarda önlərinə dünyanın ən gözəl nemətləri belə qoyulsa, bunların heç birindən gerçək mənada zövq ala bilməzlər. Heç biri onları bu sıxıntıdan qurtara bilməz. İmanın və təvəkkülün bəxş etdiyi hüzur və rahatlığı yaşamaq əvəzinə, öz əlləriylə özləri üçün sıxıntı dolu bir dünya yaradarlar.

Halbuki Allah Quranda inkar edənlər üçün; **"...qazandıqlarından ötrü az gülsənlər, çox ağlasınlar"** (Tövbə surəsi, 82) deyə buyurur. Yəni ağlamaq, hüznlənmək, kədərlənmək inkar edənlərə məxsus bir xüsusiyyətdir. Eynilə Quran ayələrində daim inkarçıların, cəhənnəm əhlinin bədbəxtliklərindən, sıxıntı dolu həyatlarından bəhs edilir. Möminlər isə, Quranda daim şən olmağa təşviq edilir, bir çox ayədə də, dünyada və axirətdə sevinəcəkləri mövzularla müjdələnirlər. Bu təqdirdə iman etdiyini söyləyən bir insan, əgər daim əzab dolu və ya ağlamağa meylli bir ruh halı içindədirsə, bu onun təvəkkül mövzusu başda olmaqla bir çox mövzunu səthi qiymətləndirdiyini və dinin ruhunu tam olaraq yaşamadığını göstərər.

Bundan ötrü də, dindar olduğunu söyləyən bir insan, hər nə səbəbdən olsa da, kədərlənməyi, sıxılmağı normal qarşılamamalı, bir mömin kimi belə rəftar göstərməkdən Allaha sığınmalıdır. Allahla dost olmağın, Ona arxalanmağın rahatlığını yaşamaq əvəzinə, belə əzab dolu bir həyat yaşamağı normal qarşılamamalıdır. Allahın Quranda; **"onlar: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq. Ey Rəbbimiz! Bizi oradan çıxart! Əgər bir də günah işlərə qayıtsaq, həqiqətən də, zalım olarıq"** (Muminun surəsi, 106-107) ayələriylə diqqət çəkdiyi kimi, dünya həyatında bədbəxtliklərinə məğlub olaraq, axirət həyatlarını peşmanlıq içində keçirən insanların vəziyyətindən ibrət almalı və həqiqi sarsılmaz imanı qazanmağa niyyət etməlidir.

# Küsəyənlik və küskünlük

İnsanların daxilən əzab çəkmələrinə səbəb olan rəftar pozuqluqlarından biri də küsəyənlikdir. Küsəyən insanlar, ortada heç bir səbəb olmamasına baxmayaraq, qapıldıqları romantik ruh halının təsiri nəticəsində, şahid olduqları hər hadisədən, eşitdikləri hər sözdən inciyib küsə bilərlər. Halbuki deyilən sözlərin onlarla heç bir əlaqəsi olmaz və ya bu insanlar özlərinə deyilən sözləri, küsəyənliklərindən ötrü tam fərqli şəkildə qəbul edərlər. Özlərinə izah edilmək istənilən hikməti görmək əvəzinə, heç əlaqəsi olmayan çıxarışlar edərək özlərinə, inciyə biləcəkləri şeylər taparlar və sonra da küsərlər.

Küsəyən insanlar, həm niyə küsdüklərini, həm də onları nəyin narahat etdiyini açıq şəkildə söyləmədikləri üçün, ətraflarındakı insanlar onların niyə belə bir rəftar göstərdiklərini anlaya bilməzlər. Onları başa düşmək üçün müxtəlif yollar sınayarlar, lakin çox vaxt bu insanların niyə incidiklərini tapmaq qeyri-mümkün olar.

Küsəyənliyin təməlində yatan səbəblərdən biri, bu insanların ətraflarındakı insanları dost hesab etməmələri, onların söz və rəftarlarını daim öz əleyhlərində qəbul etmələri və etibar etməmələridir. Digər bir səbəb də, bu insanların yaşadıqları narahatlıq və səmimiyyətsizlikdir. Çünki bu insanlar öz vicdansızlıqlarına şahid olduqları üçün, başqalarının da bunu görə biləcəyini və hər an bunları öz üzlərinə vura biləcəklərini düşünərlər. Buna görə də, hər sözün öz əleyhlərində olduğunu düşünərlər. Allah, ikiüzlü insanların bu xüsusiyyətini bir ayədə belə bildirir:

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!. (Munafiqun surəsi, 4)**

Bəzi insanlar da əslində küsəyən olmadıqları halda, bilə-bilə özlərini küsmüş kimi göstərərək, haqsız olduqları mövzularda özlərini sudan quru çıxartmağa çalışarlar. Küsməklə, öz aləmlərində qarşı tərəfi söylədiklərindən ötrü peşman etmək və geri addım atmasını təmin etmək istəyərlər. Halbuki bu cür üsul və rəftarlar, iman edənlərin özlərinə yaraşdırmayacağı rəftarlardır. Quran əxlaqına görə, qarşı tərəf cahil, yanlış və ya düşüncəsiz davranış göstərsə belə incimək və ya küsmək ağla və məntiqə ziddir. Çünki mömin qarşılaşdığı hər hadisəni, hər rəftarı, hər sözü Allahın yaratdığını bilər. Buna baxmayaraq, belə xoşagəlməz əxlaq göstərmək, Allaha qarşı səhvliyə yol vermək olar. Bundan savayı, möminlər Allah rizasının; göz yuman, əfv edici və bağışlayıcı əxlaq xüsusiyyətləri tələb etdiyini də bilirlər. Allah Quranda bu əxlaqın əhəmiyyətini belə bildirir:

**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və islah etsə (barışsa), onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir. (Şura surəsi, 40)**

Küsəyən insanlar heç kimlə dost ola bilməz, heç kimi sevə bilməz və sevilə bilməzlər. Daim kədər və sıxıntı içində yaşayarlar. Hamıdan inciyib küsdüklərindən ötrü, daim tənha yaşayar, yalqız qalarlar. Hər müsəlmanın, küsəyənlik və yaxınlarından küsmənin, Quran əxlaqına zidd bir rəftar olduğunu qəbul etməsi çox əhəmiyyətlidir. Müsəlman insan, haqlı da olsa, narahatlıq hissi keçirdiyi məsələni qarşısındakılarla açıq şəkildə danışar, əgər səhv özündədirsə bunu düzəldər. Əgər səhv davranan qarşıdakı tərəfdirsə, ondan küsməz, əksinə onu, Quran ayələrini xatırladaraq xəbərdar edər.

# Dünya ehtirasını yox edən mövzuları düşünməkdən çəkinmək

Bəzi insanların imanı qavradıqları halda, həyatlarının bəzi anlarını sıxıntı içində keçirmələrinin ən əhəmiyyətli səbəblərindən biri, dünya həyatına böyük ehtirasla bağlanmaları və bu ehtiraslarını yox edəcək mövzuları düşünməkdən çəkinmələridir.

Qurana baxdığımızda insanların, daim eyni mövzularda dünya ehtiraslarına qapıldıqlarını görərik. Mal-dövlət toplama ehtirası, cana olan düşkünlük, insanların gözündə dəyər qazana bilmə istəyi və etibar qayğısı bu mövzuların başında gəlir. Allah insanların ehtirasa qapıldığı bu mövzuları bir ayədə; **"qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının nemətləridir, gözəl qayıdış yeri isə Allah yanındadır"** (Ali İmran surəsi, 14) sözləriylə bildirmişdir. Əlbəttə ki, bütün bunlar dünya həyatının nemətləridir. Allah insanları bu nemətlərdən zövq alacaq şəkildə yaratmışdır. Doğru olan bütün bu nemətlərdən, bunları hamısını verənin Allah olduğunu bilərək, Ona şükür etməklə istifadə etməkdir. Səhv olan isə, bu nemətlərə sahib ola bilməyi axirət həyatını qazanmaqdan daha əhəmiyyətli hesab etmək və bunun üçün ehtirasa qapılmaqdır.

Quran ayələrində əhəmiyyətlə vurğulanan və insanların böyük hissəsinin düşünməyə yanaşmadıqları, dünya ehtirasını yox edən bir neçə başlıca mövzuları belə sadalaya bilərik:

## 1) Dünya həyatının müvəqqəti olduğunu düşünmək

İnsanların bir hissəsi dünya həyatının müvəqqəti olduğunu düşünməkdən çəkinər. Amma bu vəziyyət əslində, onların bu həqiqəti qavraya bilməmiş olmalarından qaynaqlanmır. Çünki demək olar ki, hər gün bu həqiqəti göstərən bir çox hadisəylə qarşılaşarlar. Bəzən bir yaxınlarının müflisləşdiyinə, bəzən bir qəzaya uğradığına, bəzən də həyatını itirdiyinə şahid olarlar. Hamısından əhəmiyyətlisi, başda özləri olmaqla bütün tanışlarının hər keçən gün ölümə daha da yaxınlaşdıqlarını bilavasitə yaşayaraq görərlər. Yaşlanmalarıyla birlikdə yox olan gözəllikləri, zamanla yaranan xəstəliklər, acizliklər və zəifliklər insanların dünya həyatının müvəqqəti olduğunu anlaya bilmələri üçün olduqca kifayətdir.

Buna baxmayaraq, bəzi insanlar bu mövzunu düşünməkdən çəkinərlər. Bunun səbəbi, düşündükləri təqdirdə dünyaya bağlana bilməyəcəklərini bilmələridir. Əgər insanlar, həyatın çox qısa olduğunu, hər an heç gözləmədikləri bir səbəbdən ötrü biləcəklərini, gözəllik, zənginlik, etibar kimi dəyərlərini hər an itirə biləcəklərini düşünsələr, bunlara yalnız layiq olduqları dəyəri verərlər. Bunun nəticəsində isə, dünya ehtiraslarına qapılmalarının məntiqsiz olduğunu anlayar və dolayısilə tam mənasıyla Allah rizasını və axirət həyatını qazanmağa yönəlməli olarlar.

Cahiliyyət cəmiyyətində geniş yayılmış, bu düşünməkdən qaçma xüsusiyyəti, bəzən iman etdiklərini söyləyən insanlarda da görülə bilər. Bu insanların dünya həyatına olan baxış prizmaları, əlbəttə ki, cahiliyyət insanlarından xeyli fərqlənir. Amma onların etdikləri səhv, dünya həyatının gerçək mahiyyətini çox yaxşı bildikləri halda, gərəyi kimi buna uyğun yaşamamalarıdır. Dünya ilə bağlı heç bir mövzuda ehtirasa qapılmamağın lazım olduğunu, ən çox 60-70 il ərzində həyatlarının sona çatacağını, insanın əsas olaraq, axirətdəki sonsuz həyatı üçün səy göstərməsinin lazım olduğunu çox yaxşı bilər və bunu hər fürsətdə başqalarına da deyərlər. Ancaq bildiklərini öz həyatlarında tətbiq etməzlər.

Bu insanların vəziyyətini belə bir nümunə ilə açıqlaya bilərik: Son model bir avtomobili olan insan, hər fürsətdə bu avtomobilin dünya həyatının müvəqqəti gözəlliklərindən biri olduğunu, bundan ötrü də, bu məsələdə ehtirasa qapılmağın məntiqsiz olduğunu insanlara başa sala bilər. Ancaq çox təcili vəziyyətdə avtomobilinin başqası tərəfindən istifadə edilməsi lazım gəlsə, bir anda bu izah etdiklərini unudub ciddi şəkildə mal ehtirasına qapıla bilər. Bu insan həmin ana qədər daim tam əksini izah etdiyi, bu cür rəftarlar göstərənləri kəskin qınadığı halda, real həyatda verdiyi nümunələrlə qarşılaşdıqda rəftarı tamamilə dəyişər.

Bu insanların vicdanən çox yaxşı bildikləri bu məsələləri, öz dünyəvi mənfəətləriylə zidd düşəndə görməzlikdən gəlmələri, özlərini ciddi mənada vicdan sıxıntısına düçar edər. Məhz bu da, həmin insanların doğru bildiklərini yaşamamalarının gətirdiyi mənəvi əzabdır. Bundan ötrü də, daim sıxıntılı ruh halı içində

olarlar.

Dünya ehtirası olan bir insan üçün yaşlanmaq, xəstələnmək, etibarını və mal-dövlətini itirmək kimi hadisələr də böyük gərginlik səbəbidir. Halbuki, bir gün öləcəyini, öldükdən sonra da heç bir əşyasını, pulunu və mülkünü özüylə apara bilməyəcəyini bilən bir insan, heç nəyin ehtirasına qapılmaz. Hər şeyindən, Allahın razı olacağı şəkildə, comərdliklə istifadə edər; dünyadakı olduqca qısa ömrünü necə yaşayacağını deyil, axirətdəki sonsuz həyatının necə olacağını düşünər və bundan ötrü çalışar.

# 2) Allahdan başqa İlah olmadığını unutmamaq

Kainatda meydana gələn hər hadisə ancaq Allahın istəyi ilə, Onun gücü və iradəsiylə reallaşır. Allahdan başqa heç bir güc yoxdur. Allah bu həqiqəti Quranda bu sözlərlə bildirər:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, onların gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, çox Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Lakin buna baxmayaraq, insanların böyük hissəsi Allaha şirk qoşmadan iman etməzlər. Bir ayədə Allahın; **"əgər sən onlardan: “Göyləri və yeri kim yaratmışdır?” deyə soruşsan, onlar mütləq: “Allah!” deyəcəklər. De: “Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?” De: “Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!”** (Zumər surəsi, 38) hökmüylə bildirdiyi kimi, bəzi insanlar bir tərəfdən Allahın gücünü qəbul edər, digər tərəfdən də özlərinə Allahdan başqa ilahlar qəbul edərlər. Ancaq insanların gözlərində böyüdüb razı salmağa çalışdıqları bu ilahlar, özlərinə belə fayda verməkdən aciz, heç nəyə gücü çatmayan və özləri də yaradılmış varlıqlardır. Allah Quranda insanların, Özündən başqa qəbul etdikləri ilahların bu acizliklərini ayələrdə belə bildirir:

**Onlar isə, Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə məbud götürdülər. (Furqan surəsi, 3)**

**Allahdan savayı tapındıqlarınız sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. (Əraf surəsi, 194)**

Ancaq bunu da unutmamaq lazımdır ki, bu insanların əksəriyyətindən soruşulsa, heç vaxt gözlərində böyütdükləri bu varlıqları "ilah" adlandırmaz, onları ilah hesab etdiklərini qəbul etməzlər. Necə ki, həyatları boyu göstərdikləri bütün rəftarlar, bu insanları ilahlaşdırdıqlarını göstərər. Yalnız Allahdan mədət ummalı, yalnız Ondan kömək istəməli və Ona şükür etməli olduqları halda, güc sahibi olduqlarını düşündükləri insanlardan mədət umar, onlardan kömək diləyər və onlara şükür edərlər. Eləcə də, yalnız Allahdan qorxub, yalnız Onun rizasını qazanmaq yolunu axtarmalı olduqları halda, insanlardan çəkinərək, ilk növbədə Allah rizasını deyil, onların məmnuniyyətini qazanmağa çalışarlar.

Bəziləri, Allahın; **"nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən?"** (Furqan surəsi, 43) ayəsiylə bildirdiyi kimi, özlərini də ilahlaşdıra bilirlər. Bu insanlar da, Allahın gücü qarşısındakı bütün acizliklərinə baxmayaraq, özlərinə məxsus müstəqil gücləri olduğuna

inanarlar. Özlərinə nemət verildikdə bunu öz səyləri nəticəsində qazandıqlarını, müvəffəqiyyətsizliyə və ya itkiyə məruz qaldıqlarında da, bunun öz səhvlərindən ötrü baş verdiyini zənn edərlər.

Əlbəttə ki, bütün bunlar bu insanların Allahın gücünü gərəyi kimi qiymətləndirə bilmədiklərindən qaynaqlanır. Halbuki Allahdan başqa İlah yoxdur. Kainatda meydana gələn hər hadisə kimi, bunlar da yenə Allahın istəyi ilə, Onun əmriylə reallaşır. İnsanların dualarına, istəklərinə cavab verə biləcək, onları düşdükləri sıxıntılardan qurtara biləcək, qəlblərinə rahatlıq və etimad duyğusunu yerləşdirə biləcək, gözəl həyat yaşamalarını təmin edə biləcək başqa bir güc yoxdur. Allahın Quranda bildirdiyi kimi; **"…şübhəsiz ki, “izzət və güc” bütünlüklə Allaha məxsusdur…”** (Yunis surəsi, 65)

Bəzi insanların bu mövzuda tez-tez qəflətə düşmələri, imanın gətirdiyi rahatlığı gərəyi kimi yaşaya bilməmələrinə və bir çox mövzuda sıxıntı çəkmələrinə səbəb olar. Sevgini, hörməti, rəğbəti, dostluğu, fədakarlığı, incə düşünə bilməyi, səbri, bağışlayıcılığı və daha bir çox gözəlliyi insanlardan gözləyərlər. Eynilə bütün bunları alacaqları tədbirlərlə, səy və iradələriylə qazanacaqlarını zənn edərlər. Halbuki Allah bir insanı başqa insana bəyəndirər, sevdirər, hörmət etdirər. Hər nə qədər çalışılsa da, heç kim insanların qəlbinə təsir edə bilməz. Quran əxlaqı yaşandıqda, bunun nəticəsində bir nemət olaraq, Allah həmin insanın qəlbində sevgi yaradar. Eynilə heç bir insan öz qəlbində başqa birinə qarşı sevgi yarada bilməz. Bu hissi ona verən də Allahdır. Bunlar kimi insanlara verilən maddi-mənəvi hər nə varsa, hər birini yaradan Allahdır. Allah, Quranda bu həqiqəti insanlara bu sözlərlə bildirir:

...**De: “Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir! Allah hər şeyi Əhatəedəndir, Biləndir”. O, Öz mərhəmətini istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir (Ali İmran surəsi, 73-74)**

**Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O, sizi təktənha və yardımsız qoyarsa, Ondan sonra kim sizə yardım edə bilər? Qoy möminlər Allaha təvəkkül etsinlər! (Ali İmran surəsi, 160)**

Bəzi kəslərin, insanların rizasını Allahın rizasını qazanmaqdan üstün tutmaları, həyatlarını Qurana görə deyil, əksinə insanların qayda və anlayışlarına görə tənzimləmələri, onlara böyük sıxıntılar yaşadar. Çünki insan eyni anda bir çox insanı razı sala bilməz. Bir insanın rizasına uyğun hərəkət etdikdə, digər bir insanı qəzəbləndirər. Bu hal daim təkrarlanar və belə insan həyatı boyu sıxıntılar yaşayar. Allah belə insanlar üçün Quranda belə buyurmuşdur:

**Allah (şirk qoşanlar üçün) bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

Yalnız Allahın rizasını axtaran bir insan üçün hər şey çox asandır. Həyatı boyu tabe olacağı doğrular və yanlışlar Quranda özünə bildirilmişdir. Bundan savayı insanların nə düşündüklərinin və ona necə rəftar göstərdiklərinin heç bir əhəmiyyəti yoxdur. Səmimi müsəlman Allahın rizasına uyduğu müddətcə, dünyada və axirətdə nicat tapacağını ümid edərək yaşayar. Bundan ötrü də, ətrafındakı insanlara görə daim özünü dəyişdirmək məcburiyyətində olan və insanların rizasını axtaran kəslərdən olduqca rahat, asan və gözəl bir həyat yaşayar.

Allah, insanların rizasını axtaran bu insanların vəziyyətini bir ayədə; **"onların çoxu Allaha iman gətirməz, ancaq Ona şirk qoşarlar"** (Yusif surəsi, 106) sözləriylə bildirir. Bundan ötrü də, hər insan şirk mövzusu barəsində diqqətlə düşünməli, imanını və həyatını bu həqiqətə görə tənzimləməlidir. Çünki Allahın bildirdiyi kimi; **"şübhəsiz ki, Allah Özünə şirk qoşulmasını bağışlamaz, bundan başqa günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şirk qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur"** (Nisa surəsi, 48)

Hər insan Allahın Quranda; **"bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan"** (İsra surəsi, 39)

ayəsiylə bildirdiyi bu əhəmiyyətli həqiqəti düşünməli və öyüd qəbul etməlidir.

# Nəticə

Bu hissədə, bəzi insanların yaşadıqları gizli əzabların bəzi səbəblərinə yer verildi. Həqiqi iman yaşandıqda heç vaxt əzab, sıxıntı, ələm, ümidsizlik hissləri yaranmaz. Bu cür hisslərə qapılan insan, ilk növbədə imanını nəzərdən keçirməli, Quran ayələrini düşünməli, həqiqətləri xatırlamalıdır. Əks halda, bir insan nə qədər Allaha iman etdiyini söyləsə də, gərəyi kimi iman etməmişdirsə, həyatını və dünyagörüşünü Quran ayələrinə görə müəyyənləşdirmirsə, mütləq sıxıntılarla üzləşər. Allahın bir ayədə bildirdiyi kimi, dini yaşamayanların qəlbində daim sıxıntı olar:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)**

# İnsanlar özlərini necə aldadırlar?

İnsanları dünyada sıxıntıya və görünməz əzablara sürükləyən şeylərdən biri, özlərini aldatmaları və batil şeylərə inanmalarıdır. İnsan təlqin yoluyla inanmaq istədiyi şey barəsində özünü istədiyi şəkildə razı sala bilər; hadisələri görmək istədiyi kimi qiymətləndirib, buna elə inanar ki, əksini müdafiə edənlərin, doğru söylədikləri çox açıq olduğu halda, böyük aldanma içində olduqlarını düşünəcək hala gələ bilər.

Bu mövzunu belə bir nümunə açıqlaya bilərik: Bir insan özünə verdiyi təlqinlə, yoldaşlarının özünü kifayət qədər sevmədiyini düşünə bilər. Qarşılaşdığı bütün hadisələri bu baxımdan qiymətləndirib haqlı olduğuna dair bir çox dəlil tapa bilər. Qarşı tərəf insanın bu inancını yox edəcək qədər qaneedici şəkildə danışsa, bütün rəftarlarıyla əksini sübut etsə də, özünü bu şeyin doğru olduğuna inandıran insan, bunların heç birinə inanmaz. Hər təfərrüatdan öz inancını daha da gücləndirmək üçün istifadə edər, daim özünü inanmaq istədiyi şeyə razı salacaq yeni dəlillər tapar. Halbuki ortada belə bir şey yoxdur. Amma bu insan dünyanı öz görmək istədiyi kimi görər, hadisələri də öz yaşamaq istədiyi şəkildə qiymətləndirər və bundan ötrü də, daim əzab içində yaşayar.

Cahiliyyət insanlarının bir çoxunda görülən bu xüsusiyyət, bəzən iman etdikləri halda, tam olaraq iman etməmiş, hadisələri Quran əsasında qiymətləndirməyi həyatlarına tam mənada hakim etməmiş insanlarda da görülər. Hadisələri və ya insanları Qurana görə qiymətləndirməməksə, insanı daim yanıldar. Çünki Quran meyar götürülmədikdə, insan, cahiliyyət cəmiyyətinin dünyagörüşünə görə, yəni nəfsinin və şeytanın tələblərinə uyğun diaqnozlar qoyacaq. Dolayısılə başda özüylə əlaqədar müəyyənləşdirdiyi şeylər olmaqla, ətrafında yaşanan bütün hadisələri yanlış anlayışla qiymətləndirəcək. Məsələn, Quran əxlaqı meyar götürülərək baxıldıqda düşüncəsizcə hərəkət etdiyi görünən insan, cahiliyyət dünyagörüşüylə, özünü olduqca incə düşüncəli bir insan hesab edə bilər və ya Qurana görə təkəbbürlü rəftar göstərən insan, Quranı meyar götürərək düşünmədiyi üçün çox təvazökar və təvazölü bir insan olduğuna inanmış ola bilər. Eynilə zəif imanlı bir insan da özünü, Allahdan çox qorxduğuna, Quran əxlaqına tam şəkildə tabe olduğuna, Allaha qarşı tamamilə dürüst və səmimi olduğuna da inandıra bilər. Lakin, əlbəttə ki, bu məqamda insanların özlərini inandırmaq və vicdanlarının səsini ört-basdır etmək üçün istifadə etdikləri, bəzi Qurana zidd məntiqlər var. Bu yanlış məntiqləri bir şəkildə məqbul hala gətirib, özlərini bunların dinə zidd olmadığına, Allah Qatında da bəhanə olaraq qəbul edilə biləcəyinə inandırarlar. Bu da bu insanların səmimiyyətdən uzaqlaşmalarına səbəb olar.

Özlərini aldadan insanlar, bir tərəfdən də təqvalı müsəlmanlar olduqlarını iddia etdikləri üçün, iddialarıyla rəftarları ziddiyyət təşkil edər. Bu isə, onların daim sıxıntı çəkmələrinə səbəb olar. Digər bir tərəfdən də şüur altlarında əsl üzlərini bildikləri və iddia etdikləri qədər gözəl əxlaqlı, gözəl düşüncəli olmadıqlarını gördükləri üçün, bunun gətirdiyi vicdan sıxıntısıyla yaşayarlar. Necə ki, bunları görüb, davranış və imanlarındakı nöqsanları düzəltmək əvəzinə, özlərini aldatmaq, səhvlərinin üstünü örtmək yolunu seçərlər. Bu da həmin insanlara müxtəlif maddi-mənəvi zərərlər verər.

Sonrakı səhifələrdə dünyada əzab olaraq yaşanan bu zərərin üzərində dayanacağıq.

# Səmimiyyətsizliyin insanlar üzərində yaratdığı mənfi təsirlər

Səmimiyyətsizlik insanlar üçün gizli bəladır; təkcə insanların həyatlarını çətinləşdirmək, onları sıxıntı və bədbəxtliyə sürükləməklə kifayətlənməz, həmçinin onları həm fiziki, həm də mənəvi cəhətdən böyük sürətlə çökdürər. Bu insanlar, bəzən üzərlərində yaranan bu mənfi təsiri görməyə bilərlər. Sahib olduqları gizli səmimiyyətsizlikdən ötrü ziyana uğramadıqlarını zənn etdikləri üçün, bunu həyat tərzi olaraq davam etdirməkdə heç bir problem görməzlər.

Halbuki həqiqi iman sahibləri, bu insanlar üzərində yaranan mənfi təsiri çox açıq şəkildə görərlər. Çox vaxt bu vəziyyəti qarşı tərəfə də bildirməyə çalışar, onları səmimiyyətə dəvət edərlər. Ancaq bəzi insanların içində olduğu ruh halı, özlərinə çatdırılmaq istənilən məlumatlara da eyni cür səmimiyyətsiz yanaşmalarına səbəb olar. Bundan götrüörə də, göstərilən bu həqiqətlərdən belə, gərəyi kimi faydalana bilməzlər.

Səmimiyyətsizliyin insanlar üzərində yaratdığı mənfi təsirlərdən bəzilərini, aşağıdakı başlıqlar halında qeyd edə bilərik:

# Ağılsızlıq

İmanın tələblərini yerinə yetirməyən insanlar üzərində görülən ən bariz təsirlərdən biri **"ağılsızlıq"**dır. Allah, ağlı insanlara, ancaq səmimi iman etdikləri təqdirdə verir. İnsan, bundan savayı göstərdiyi bütün qabiliyyətləri, ancaq zəkasıyla əldə edə bilir. Bəlkə ilk baxışda zəkalı insanın da ağıllı insanla eyni xüsusiyyətlərə sahib olduğu düşünülə bilər. Onsuz da insanların aldanıb özlərini ağıllı zənn etmələrinin səbəbi də budur. Ancaq əslində vəziyyət çox fərqlidir. Ağıl, Allahın insanlar üçün müəyyənləşdirdiyi və uyulduğu vaxt, ən mükəmməl nəticələr verən və insanın Qurana tabe olmasından qaynaqlanan üstünlükdür. Allah bir Quran ayəsində; **"ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir"** (Ənfal surəsi, 29) sözləriylə, ancaq Özündən qorxanlara verdiyi xüsusi bir bacarıqdan bəhs edir. Bu bacarıq, insanların, başda özləriylə əlaqədar olmaqla, həyata aid hər mövzuda nəyin doğru, nəyin yanlış olduğunu ayırd edə bilmələrini təmin edir.

Quran əxlaqından uzaqlaşanda və ya bəzi xüsuslarda belə olsa, səmimiyyətsizliyə yol verəndə, insanlar doğrunu yanlışdan yaxşı şəkildə ayırd edə bilməz. Bunun ən əhəmiyyətli əlaməti isə, insanların içində olduuqları vəziyyəti görüb Qurana uyğun şəkildə analiz edə bilməmələri, başqaları tərəfindən xatırladılsa belə yenə də bunu qavraya bilməmələridir.

Səmimi insanların fikirlərində əmələ gələn dəqiqlik, sadəlik və aydınlıq bu kəslərdə yoxdur. Tam tərsinə dumanlıq, bulanıqlıq və qarışıqlıq diqqəti çəkər. Xüsusilə də möminlərdə yaranan iti ağıl əlamətləriylə müqayisə edildikdə ortaya çıxan mənzərə bu vəziyyəti daha da dəqiq göstərər. Bu insanların ağlın kəskinliyi və analiz etmə qabiliyyətindəki itiliyini yaşaya bilməmələri, əslində dünya həyatında özlərinə verilən bir əzab növüdür. Özləri, zəif dumanlı ağla sahib olmalarından ötrü, çox vaxt bunun bir əzab olduğunu da bilməzlər. Amma həqiqi imanın gətirdiyi ağlın verdiyi rahatlığı heç vaxt yaşaya bilməzlər. Bu insanların, insanlar və ya hadisələr barəsində bildirdikləri fikirlər, bu ağılsızlığı çox açıq şəkildə əks etdirir.

# Mənəvi və fiziki ağırlıq

Ağılda yaranan zəif dumanla yanaşı, səmimiyyətsizliyi davam etdirən insanların uğradığı zərərlərdən biri də üzərlərində yaranan ağırlıqdır. Bu ağırlıq, bilə-bilə vicdanlarının səsinə qulaq asmamalarının, üzərlərində yaratdığı təzyiqdən qaynaqlanır. Vicdan əzabının verdiyi mənəvi sıxıntı, insanın həm ruh halına, həm də bütün fiziki funksiyalarına dərindən təsir edər. Belə bir insan, dünyanın ən gözəl, ən komfortlu evində, istədiyi hər neməti tezliklə əldə edə biləcəyi imkanlar içində, ən gözəl əxlaqlı insanlarla birlikdə yaşasa, sağlamlığı, gözəlliyi, zənginliyi dünya şəraitində ola biləcək ən mükəmməl səviyyədə olsa, yenə də içindəki bu sıxıntıdan qurtula bilməz. Ətrafındakı bu nemətlərin heç birindən gərəyi kimi zövq ala bilməz. Bu insana nə yediyi yemək, nə dostlarının səmimi söhbətləri, nə gözəl bir mənzərə, nə də getdiyi gözəl bir məkan zövq verər. Hər kəsin əyləndiyi, şənləndiyi bir mühitdə o için-için əzab çəkər. Özünü ətrafındakı insanlara hər nə qədər sevinc və xoşbəxt göstərsə də, içindəki mənəvi əzab bir an belə azalmaz. Heç vaxt təbii sevinc və təbii rahatlıq hissini yaşaya bilməz. Buna ancaq xüsusi iradə və diqqətlə nail ola bilər. Bu baş tutmadıqda üzərində daimi bir ağırlıq hakim olar. Bu ağırlıq, insanın fiziki cəhətdən oyanıq olduğu halda, bir növ yuxulu halda yaşamasına səbəb olar; gözləri açıq olar, amma gözündəki mat və donuq ifadə, iman edən insanda olması lazım olan şüurdan çox uzaqdır. Baxışlarında üzgün ifadə hakimdir.

Bu mənəvi təzyiqin səbəb olduğu ağırlıq, insana fiziki cəhətdən də güclü təsir edər. Qavrama, danışma, əl bacarıqları və bədənin qabiliyyət tələb edən digər bütün funksiyalarında geriləmə müşahidə olunar. Normalda həmin bu insanın heç bir fiziki narahatlığı yoxdur. Amma beyində yaranan təzyiq və donuqluq, onun həyatını normal insan kimi yaşamasını mane olar. Şüur altında daima vicdan əzabından

qaynaqlanan narahatlıq hissi keçirər. Bu narahatlığını yox etmədiyi müddətcə də rahatlığa qovuşa bilməz. Allah, Quranda tam mənada iman etməmiş, bu insanların sahib olduğu sıxıntılı ruh halını belə təsvir etmişdir:

**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik". (Taha surəsi, 124)**

# Maddi-mənəvi çirklənmə

Səmimiyyətsizliyin insanlar üzərində yaratdığı digər bir mənfi təsir də, Quranda bu ayə ilə bildirilir:

**O, ağlını işlədə bilməyənləri murdar edər. (Yunis surəsi, 100)**

Vicdanları qəbul etdiyi halda ağıllarını işlətməyən səmimiyyətsiz insanlar, etdiklərinin əvəzini Allahın **"murdar"** olaraq ifadə etdiyi bəla ilə alarlar. Allah bir ayədə; **"qəlbində xəstəlik olanlara gəlincə, o surə onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir qalaraq ölürlər"** (Tövbə surəsi, 125) deyə buyurmuşdur. Bu, Allahın istəməsi nəticəsində insanlar üzərində həm maddi, həm də mənəvi çirk halında görülə bilir. Allah istəsə bu insanlar həqiqətən fiziki cəhətdən də çirkli görünə bilərlər. Yaşadıqları narahatlıq və stress bədənlərinin normaldan olduqca sürətli şəkildə çirklənməsinə, hətta üz dərilərinin korlanmasına, ağız və bədənlərinin qoxmasına səbəb ola bilər.

Bununla yanaşı, bu insanlar fiziki cəhətdən bütün tədbirləri alsalar da, təmizliklərinə digər insanlardan olduqca artıq diqqət yetirsələr də, üzərlərində yaranan mənəvi çirkdən qurtula bilməzlər. Ətraflarındakı insanlara, daim çirkli insan olduqları təəssüratını verərlər. Əlbəttə ki, bu, Allahın bu insanların səmimiyyətsizliyinə qarşılıq insanların içinə verdiyi hissdir. Nə qədər təmiz olsa da, bu insanın oturduğu yerə oturmaq, yediyi yeməkdən yemək, əlini vurduğu bir şeyə toxunmaq belə insanlara narahatlıq verə bilər. Bu da qeyd olunan insanın daxilən yaşadığı əzaba çevrilər. Özü Allahı unutmuş və insanların rizasını axtaracağı bir həyat yaşamaq istəmişdir. Amma rizasını axtardığı insanlar ondan qaçır və ona əhəmiyyət vermirlər. Məhz bu da, vicdanları qəbul etdiyi halda həqiqi iman etməyən insanlara Allahın dünya həyatında verdiyi gizli bir bəladır.

# Nursuzluq

Əvvəlki hissədə verilmiş ayədə bildirilən mənəvi çirkin digər bir təzahür forması olaraq, səmimiyyətsiz insanların üzlərində nursuzluq əmələ gələr. Bu nursuzluq hər insanda eyni əlamətlərlə özünü göstərməz. Bəzi insanların üzündə, iman edənlərin üzündə yaranan həyat ifadəsi, şövqün və dürüst ifadənin olmamasıyla özünü bəlli edər. Bəzi insanların üzündə mənasız, həyatdan bezmiş, boş baxışların yaratdığı bir görüntü ortaya çıxar. Bəzi insanların üzündə isə, səbəbsiz yaranan qaralma diqqəti çəkər. Bütün bu əlamətlər, insanların yaşadıqları qaranlıq ruh halının kənara əks olunmasıdır.

Burada diqqət çəkən məqam isə, insanların fiziki gözəlliklərinin qətiyyən bu nəticəyə təsir edə bilməməsidir. Dünyanın ən gözəl üzünə, ən mükəmməl bədəninə, ən gözəl rəngli, ən gözəl formadakı gözlərinə sahib bir insan belə, səmimiyyətsiz əxlaq göstərdiyi təqdirdə üzündə nursuz ifadə yaranmasının qarşısını ala bilməz. Ortaya çıxan mənzərə gözəlliklərini tamamilə kölgə altına salar. Bunun səbəbi də, nurun, ancaq Allah Qatından səmimi-qəlbdən iman edənlərə verilən bir xüsusiyyət olmasıdır. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Yaxud onların əməlləri əngin dənizdəki qaranlığa bənzəyir. Onu bir dalğa, onun üstündən də**

**başqa bir dalğa örtər; onun da üstündə bir bulud vardır; bir-birinin üstündə olan qaranlıqlar! İnsan əlini çıxartsa, az qala onu görməz. Allah kimə nur verməsə, onun nuru olmaz. (Nur surəsi, 40)**

Allah səmimi və səmimiyyətsiz insanların ruhlarında yaşadıqlarının bədənlərinə göstərdiyi təsirinə Quranda belə bir müqayisə ilə diqqət çəkir:

**Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü vardır. Onların üzü nə qaralar, nə də zillətə bürünər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar.**

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür... (Yunis surəsi, 26-27)**

# Mənfi hal

Allah, Özünə səmimi-qəlbdən iman edənlərə dərgahından gözəllik, sevimlilik və nur verər. Bu insanlar varlıqlarıyla, girdikləri hər mühitə gözəllik və sağlamlıq gətirərlər. Üzlərinə baxmaq, səslərini eşitmək, Allaha olan güclü imanlarını hiss etdirən səmimi söhbətlərinə və rəftarlarına şahid olmaq ətraflarındakı insanlar üçün bir nemət olar. Quranda səmimi möminlərin bu xüsusiyyətlərinə və bunu göstərən, üzlərindəki **"səcdə izi"**nə belə diqqət çəkilir:

**Məhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir... (Fəth surəsi, 29)**

Səmimiyyətsiz rəftar göstərən insanların üzərində isə, möminlərin tam əksinə mənfi hal meydana gələr. Öz daxili aləmlərində yaşadıqları təvəkkülsüz, hüznlü, sıxıntılı və gərgin ruh halı, eləcə də, qürurları, bu insanların girdikləri hər mühitdə mənfi aura yaranmasına səbəb olar. Heç nə söyləməsələr, heç nə etməsələr də ətraflarındakı insanlara mənfi aura verərlər. Gərgin ruh halları, əzab dolu üzləri və narahatlıq verən səsləri insanlara bu vəziyyəti açıq şəkildə hiss etdirər. Səmimi olmadıqları, Allaha qarşı tam dürüst olmadıqları müddətcə bu mənfurluqdan qurtula bilməzlər. Ətraflarındakı insanlara sevimli görünə bilmək üçün hər nə etsələr də, müsbət təsir yarada bilməzlər.

Bu, Allahın insanlar üzərində yaratdığı möcüzəvi haldır. Belə mənfi halın yaranma səbəbini, bəzən tam şəkildə ifadə etmək olmaz, amma əksər insan belə insanları anlayar və onlarla eyni mühiti paylaşmaq istəməz. Bu da, üzərində mənfi hal yaranan insanın dünyada daxilən yaşadığı sıxıntılardan biridir.

Ancaq unudulmamalıdır ki, həmin insan qəlbini təmiz saxlayıb, Allaha qarşı səmimi olmağa niyyət etdiyi andan etibarən də, üzərindəki bu mənfi hal Allahın izniylə dərhal aradan qalxar və yerini nurlu üzə buraxar.

Bura qədər saydığımız xüsusiyyətlər, Allahın, həqiqi iman gətirmək istəməmələri müqabilində, insanlara verə biləcəyi qarşılıqlardan yalnız bir neçəsidir. Bunu unutmaq olmaz ki, Allah sonsuz güc sahibdir. Əgər yaranan bütün bu açıq əlamətlərə baxmayaraq, insan necə bir ziyana uğradığını görməzlikdən gəlsə və Allaha sığınmasa, Allah daha pis qarşılıqlar da verə bilər.

Heç kəs; "onsuz da, iman sahibiyəm, ibadətlərimi yerinə yetirirəm" deyərək özünü aldatmamalı, heç nədə səmimiyyətsizlik etmədən, Allah üçün qəlbini təmizləməlidir. Allahın; **"xeyr! İnsan, doğrudan da, yolunu azar - özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə"** (Ələq surəsi, 6-7) ayələriylə bildirdiyi kimi, bir nəticə əmələ gəlməsindən Allaha sığınmalıdır.

# Səmimiyyətsizliyin başa düşülməsi: 6-cı hiss

Gizlində əxlaqsız həyat tərzi yaşayan insanlar, bu vəziyyəti möminlərdən gizlədə bilmək üçün əllərindən gələn hər şeyi edərlər. Kənardan baxanda həyat tərzləriylə, danışıqlarıyla, rəftarlarıyla və ya gördükləri işlərlə, saleh möminlərin həyatını xatırladan bir həyat yaşayarlar. Əxlaqsızlıqlarını gizlicə davam etdirdikləri, bunların özlərinə verdiyi əzabı da gizlicə yaşadıqları üçün, ortaya həqiqətən də eyri-adi bir mənzərə çıxmaz. Lakin bəzi davranışlar da vardır ki, ortada gözəçarpan bir dəlil olmasa da, bu insanların bəzi xüsuslarda, saleh möminlərdən fərqli bir ruh halına sahib olduqları aydın olar. Bu vəziyyəti görənlər də, yalnız möminlər deyil. Cahiliyyət inanclarını mənimsəmiş bir insan da, qısa bir araşdırmadan sonra, bir insanın səmimi və ya səmimiyyətsiz ola biləcəyi mövzusunda fikir sahibi ola bilər.

Necə ki, bu hər cəmiyyətdə bilinən bir həqiqətdir; məsəl üçün deyə bilərik ki, bir hakim, qarşısındakı insanın günahkar olub olmadığına qərar verərkən, əlindəki dəlillərlə yanaşı onun rəftarına, danışıqlarına, davranış tərzinə, baxışlarına və adlandıra bilmədiyi amma hissləriylə gəldiyi qənaətə də böyük əhəmiyyət verər. Eynilə, ortada əleyhində heç bir dəlil olmasa da, günahkar insanın baxışları, danışıqları və rəftarları da qarşısındakı insanlara inanılmaz dərəcədə narahatlıq verər və həmin bu insanın günahkar ola biləcəyini düşünərlər.

Məlumdur ki, şirkətlər, özlərinə iş üçün müraciət edənləri yalnız təhsillərini və ya təcrübələrini qiymətləndirərək işə götürməzlər. Bu xüsusiyyətlərə cavab verməl期ərindən sonra, şirkət səlahiyyətlisi iş üçün müraciət edənlərlə şifahi müsahibə aparar. Bu müsahibə əsnasında verdiyi suallara aldığı cavablar və qarşısındakı insanın rəftarları, şirkət səlahiyyətlisinə bu insan haqqında məlumat verər. Bu insanın işə götürülmək üçün uyğun olub olmadığı, çalışqanlığı, intizamı, etibarlılığı haqqında təəssürat sahibi olar və bu müsahibə əsnasında əldə olunan qənaət nəticəsində həmin insan işə götürülər.

Məhz möminlər arasında olub da, bəzi xüsuslarda səmimiyyətsizlik edən insanların seçilməsində də vəziyyət bundan fərqli deyil. Hətta möminlər Qurana görə düşündükləri üçün, Allahın onlara verdiyi ağıl və haqqı batildən ayırd etmə bacarığı nəticəsində olduqca məqsədəuyğun analizlər apara bilərlər. Bu analizlərinin nəticəsini qarşı tərəfə çatdırmağa çalışsalar, bəlkə də, qənaətlərini konkret dəlillərlə sübut edə bilməzlər. Çünki bunlar konkret şəkildə ifadə edilə biləcək şeylər deyil. Bir mənada **"altıncı hiss"** olaraq da adlandıra biləcəyimiz bu analiz qabiliyyətinə sahib insanlar, Allahın ilhamıyla qarşı tərəfin səmimi və ya səmimiyyətsiz olduğunu hiss edərlər. Səmimiyyətsiz bir insan, hamının göstərdiyi rəftarı göstərsə, onlar kimi oturub-qalxsa, yemək yesə, içsə, gülsə, danışsa və bunları edərkən də, heç bir mənfi fikir oyandıran davranışa yol verməsə, möminlər bu insandakı fərqi yenə də hiss edə bilərlər.

Cəmiyyətdə tez-tez işlədilən "mənfi aura" deyimi, burada tam öz əksini tapır. Möminlər bu insanların mənfi və Quran əxlaqından uzaq bir ruh halına sahib olduqlarını ətraflarına yaydıqları, bu mənfi aura sayəsində anlayarlar. Çünki həmin bu insanlar digər möminlər kimi rahat, səmimi və sakit ruh halına sahib deyildirlər.

Danışıqlarındakı fərq də, yenə altıncı hiss sayəsində hiss edilən digər bir əlamətdir. Səmimiyyətsiz insanların danışıqlarında, bəlkə də, qeyri-adi heç nə yoxdur. Üstəlik, demək olar ki, digər möminlərin danışdığı kimi danışırlar. Amma yenə də danışıq üslublarında fərq olduğu hiss edilər. Danışdıqları vaxt səs tonlarında, səsin çıxış formasında, səlisliyində, səs tonlarının eniş və yüksəlişində, səmimi insanların qəlbində böyük narahatlıq yaradan gərginlik hakimdir. Həmçinin sözlərinin aralarına nəfslərinin istəyini ön plana çıxardan, eqoistliklərini bəsləyən ifadələr əlavə etmələri, beyinlərindəki bir plana və ya mənfi bir düşüncəyə əsasən danışmaları kimi səmimiyyətsizlikləri də onları ələ verər.

Bu insanların mənfi xüsusiyyətləri, həmin otaqda olan hər kəs tərəfindən hiss edilər. Necə ki, fikirləri soruşulduğunda, hamısının bu mövzuda həmfikir olduqları görülər. Bu kəslərin eyni hissləri yaşamaları da, səmimiyyətsizliyin analizində istifadə olunan əhəmiyyətli üsuldur.

Ancaq bu məqamda bunu da unutmamaq lazımdır ki, "altıncı hiss" deyildikdə insanlar ümumiyyətlə gələcəyi görmə, hadisələri qabaqcadan bilmə, qeyb haqqında xəbər vermə kimi, Allahın diləməsi xaricində qeyri-mümkün olan vəziyyətləri anlayarlar. Halbuki, **"qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir..."** (Ənam surəsi, 59) ayəsiylə bildirildiyi kimi, Allahdan başqa heç kəs qeybi bilməz. Burada "altıncı hiss" deyildikdə, tam fərqli bir şey nəzərdə tutulur. İnsan, altıncı hissiylə gələcəyə aid bir vəziyyəti deyil, hal-hazırda mövcud olan, həmin ankı vəziyyəti hiss edər, Allahın izniylə hiss edər.

Bundan ötrü də, səmimiyyətsiz insanın öz vəziyyətini möminlərdən gizlətməsi, Allahın izniylə elə də

mümkün olmaz. Qurana uyğun olansa, belə vəziyyətdə insanın qəlbində əskik və ya səhv olan hər nə varsa hamısını dürüstcə ortaya qoymasıdır. Bu vəziyyətdə möminlərdən də dəstək alaraq, səhvlərini düzəldib səmimiyyətə nail olması olduqca asan olacaq. Bunun əksi olduqda isə, gizlədilməyə çalışılan səmimiyyətsizlik getdikcə artacaq və bu, insanı Quran əxlaqından həddən artıq uzaqlaşdıracaq.

Həmçinin burada bunu da qeyd etmək lazımdır ki, möminlər altıncı hisslə bir insanın əxlaqsızlığını, səmimiyyətsizliyini hiss edə bilərlər. Amma vicdanlarının və ədalətlərinin tələbindən ötrü, bu insanları hər hansı günah işlədikləri barədə ittiham edə bilməzlər. Çünki insan daim yanıla bilən bir varlıqdır və qəlblər Allahın əlindədir. Burada hiss edilən mənfi hal yalnız bir hissdir və bir dəlili yoxdur. Belə bir hissə qapılan mömin yarana biləcək zərərlərin qarşısını almaq üçün alınmalı tədbirlər varsa onları alar, amma heç vaxt qarşı tərəfin qəlbini analiz edə bilməz, "sən səmimiyyətsizsən" deyərək onu şübhə altında qoya bilməz. Çünki insan açıq şəkildə etiraf etmədiyi müddətcə, qəlbindəkini yalnız Allah bilər.

## Möminlər ətraflarındakı insanları da səmimiyyətə dəvət edərlər

Allah Qurandakı; **"qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır"** (Ali İmran surəsi, 104) ayəsiylə, insanları yaxşı və gözəl əməllərə dəvət etməyi, onları yol verdikləri səhvlərdən qurtarmağı, möminlərin üzərinə məsuliyyət olaraq yüklədiyini bildirir. Allah digər ayədə isə; **"mömin kişilərlə mömin qadınlar bir-birinin himayədarıdırlar. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah üstün və güclüdür, hökm və hikmət sahibidir"** (Tövbə surəsi, 71) sözləriylə möminlərin, bir-birini qorumaq və bir-birinə nəzarət etmək xüsusiyyətlərinə sahib olduğunu xatırladır.

Məhz möminlər Allahın bu əmrindən ötrü bir-birlərində gördükləri çatışmazlıqları, yenə Quranda bildirildiyi şəkildə "sözün ən gözəlini söyləyərək" (İsra surəsi, 53) bir-birlərinə çatdırarlar. Yaxşı əməllər görməyi buyuran mömin, qarşı tərəfin verəcəyi reaksiyadan, verilən öyüddən pay götürüb götürməməsindən məsuliyyət daşımır. Allah bir ayəsində; **"şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yola yönələcək insanları daha yaxşı tanıyır"** (Qəsas surəsi, 56) sözləriylə bu həqiqətə diqqət çəkir və insanların, yalnız Allah istədiyi təqdirdə doğrunu görə biləcəklərini xatırladır. Bundan ötrü də, möminlər, bir-birlərinə yaxşı əməllər görməyi buyurub pis əməlləri qadağan edərkən, bunu Allahdan istəyərək edər və alınan nəticə nə olursa olsun buna təslim olarlar. Lakin, əlbəttə ki, səmimiyyətin gətirdiyi gözəllikləri və gerçək xoşbəxtliyi bütün insanların öyrənib yaşamasını da ən səmimi şəkildə arzulayarlar.

Bunun əksi olan bir həyatın, kənardan normal görünsə də, insanı daxilən gəmirən, ona narahatlıq və sıxıntı verən əzablarla dolu olduğunu çox yaxşı bilərlər. Bu insanların, sahib olduqları iyrənc fikir və ruh halını gizlətmələri üçün, maddi və mənəvi əziyyət çəkdiklərini unutmazlar. Bundan ötrü də, qarşılarındakı insanda az da olsa səmimiyyətsizlik hiss etsələr, ona qətiyyən mühakimə etmədən, yalnız Quran əxlaqına dəvət edərlər. Hər cür gizli əzab və sıxıntıdan, narahatlıq və bədbəxtlikdən qurtulmanın yeganə yolunun Allahın razı olacağı əxlaqı yaşamaq olduğunu ən gözəl şəkildə xatırladarlar.

# Allah yeganə sevgili halına gətirilmədən xoşbəxt həyat yaşamaq mümkün deyil

***Aparıcı:*** *"Salam mübarək hocam. Sizdən öyrəndiklərimi yoldaşlarımla danışıram. Lakin onların anlamadığı və sizdən soruşmaq istədiyim çox vacib bir sualım var, hocam. Allahın nədən razı qaldığını bilə-bilə, onun rizasının ən çoxunu qazanmaq üçün nəsə etməmək alınmır. Lakin danışdığım insanlarda, normal həyatımı da yaşayaram, Allah rizasını da qazanmağa çalışaram kimi məntiq var. Allah rizası üçün yaşanılan həyatla, onların hazırda yaşadıqları həyat arasında nə fərq var? Bunu görə bilmirlər və ya başa düşmürlər. Bu fərqi necə başa sala bilərəm?"*

***Adnan Oktar: Onsuz da ağıllı bir insan, Allahı sevmədən xoşbəxt həyat yaşaya bilməz. Əgər dərindən düşünsə, Allaha tam təslim olmadan, təkcə Onu sevmədən rahat yaşaya bilməyəcəyini görər.*** *Lakin səthi düşünürsə, sərxoş kimidir. Yəni onun sevgisi onsuz da sevgiyə bənzəməz, həyatı həyata bənzəmir, ölü kimi yaşayır, yəni çox narahat yaşayır. Nə etdiyini bilmir, özündə deyil. Nə danışdığından xəbəri olur, nə də yaşadığından. Onsuz da soruşduğumuzda da, xoşbəxt olmadığını deyir.*

***Aparıcı:*** *Etibar edəcəyi bir insan da olmur.*

***Adnan Oktar:*** *Əlbəttə. Belə ki, bunu şəxsən özü söyləyir; "mən xoşbəxt deyiləm" deyir. Qətiyyən xoşbəxt deyiləm deyir. Allah qorusun hətta intihar etməyi düşünür, narkotikdən istifadə edir, hər gün içki içir. Niyə içirsən deyəndə; unutmaq üçün, çəkdiyim əzabları yüngülləşdirmək üçün içirəm deyir. Bu xoşbəxtlikdir mi?* ***Allaha tam təslim olan, çox rahatdır, gözəl yaşayar.*** *Əlbəttə ki, biz rahat, gözəl yaşayaq deyə Allaha tam təslim olmarıq. Allahı sevdiyimiz üçün, Allah rizası üçün Allaha təslim olarıq. Həqiqətən bu cür olmasından ötrü, həqiqətən sevdiyimiz üçün. Çünki bütün gözəllikləri yaradan Odur deyə, bütün gözəlliklərə olan sevgimizin hamısı Allaha aiddir... (Adnan Oktarın 21 may 2010-ci ildə, Kocaeli TV-yə verdiyi reportajdan)*

# Səmimiyyətə çağrıldıqlarında səmimiyyətsizliklə cavab verənlər

Allaha, necə həqiqi mənada təslim oluna biləcəyini qavrayan insanların, bu həqiqəti başqalarına da çatdırmaq üçün, əllərindən gəldikləri qədər çalışdıqlarından bəhs etdik. Ancaq məsələyə bir də öyüd verilən insanların nöqteyi-nəzərindən baxanda, bəzən bəzi insanların bu xatırlatmalara eyni şövqlə yaxınlaşmadıqlarını və bunlara Qurana zidd reaksiyalar verdiklərini görərik.

Halbuki bir möminin, başqa bir insan üçün zəhmət çəkməsi, onun xeyri naminə çatışmayan cəhətlərini müəyyənləşdirməsi, çıxış yolları tapıb, təşviq edici və asanlaşdırıcı üslubla təqdim etməsi, bu insan üçün böyük qazancdır. Allahdan qorxan bir mömin, daim Qurana uyğun, səmimi və dürüst analiz aparar. Həmçinin obyektiv gözlə qiymətləndirərək, həmin bu insanın öz-özünə müəyyənləşdirə bilməyəcəyi bir çox qeyri-münasib rəftar və iman zəifliklərini açıq şəkildə müəyyənləşdirə bilər və mömin qardaşına bu mövzuda kömək edə bilər. Dolayısilə səmimi bir müsəlmanın xatırlatmaları, təşviq üçün söylədikləri, həmişə olduqca əhəmiyyətlidir və bunlara ciddi surətdə diqqət yetirilməlidir.

Necə ki, bəzi insanlar, bütün bunları çox yaxşı bildikləri halda, bəzən özlərinə yönəldilən tənqidləri qəbul etməzlər. Ancaq onlar hər nə qədər anlamazlıqdan gələrək tənqid və xatırlatmaları qəbul etməsələr də, Allah; **"əslində, insan öz əleyhinə şahiddir; üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da"** (Qiyamət surəsi, 14-15) ayələriylə, bu insanların həqiqətləri bildiklərini çatdırmışdır. Bundan ötrü də, insan hər nə qədər əvvəlcə özünü, sonra da ətrafındakıları razı salmaq, əksinə inandırmaq və ya aldatmaq istəsə də vicdanı həqiqəti görər. Üstəlik vicdanının çox yaxşı gördüyü həqiqətləri həyatına tətbiq etməməsinin gətirdiyi mənəvi sıxıntını yaşayar, belə ki, bu da tam səmimiyyətli olmağa niyyət etməyənlər üçün dünyada verilən gizli əzablardan biridir. Amma bəzi insanlar bu həqiqəti qəbul etmək istəməzlər. Öz yanlış hərəkət və düşüncələrindən ötrü, sıxıntı və narahatlıq yaşadıqlarını anlamazlıqdan gələrlər. Bundan ötrü də, özlərinə edilən xatırlatmalara Qurana zidd reaksiyalar verərlər ki, bu da əslində özlərinə deyilənlərin nə qədər doğru olduğunu sübut edən ikinci bir dəlil meydana gətirər. Çünki Qurana görə hərəkət edən səmimi bir möminin, daha gözəl bir əxlaqa dəvət ediləndə, göstərməsi lazım olduğu rəftar, bu dəvəti qəbul etməkdir. Allah səmimi möminlərin, səhvlərini gördükdən sonra nə etdiklərini belə bildirmişdir:

**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar bilə-bilə etdiklərində israr etməzlər. (Ali İmran surəsi, 135)**

Dolayısilə, insan, əgər iddia etdiyi kimi tam səmimiyyət sahibidirsə, səhvini görəndə dərhal Allaha sığınmalı və bu hərəkətində "bilə-bilə israr etməməlidir". Səmimi möminin məqsədi, daim Allahın rizasını və sevgisini qazanmağa çalışmaqdır. Allahın sevgisini qazanmağın yollarından biri isə, Quranın bir ayəsində; **"...Allah təmizlənənləri sevər"** (Tövbə surəsi, 108) sözləriylə bildirilir.

İman etdiklərini söyləyən bu insanların səmimiyyətə dəvət edildiklərində verdikləri Qurana zidd reaksiyalar, bu insanların əslində imanı tam mənasıyla qavraya bilmədiklərindən qaynaqlanır. Allah, Quranda kimlərin öyüd ala biləcəyini belə bildirir:

**Sən ancaq Zikrə tabe olub Mərhəmətli Allahı görmədən Ondan çəkinən şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox gözəl bir mükafatla müjdələ. (Yasin surəsi, 11)**

Sonrakı sətirlərdə, səmimiyyətsiz hərəkətlərin ümumiyyətlə sübut edilməz mahiyyətdə olmasına aldanaraq, özlərini aldadan bəzi insanların, səmimiyyətə dəvət edildiklərində göstərdikləri rəftar pozuntularına toxunacaq və bütün bunların Qurana zidd davranışlar olduğunu göstərəcəyik. Çünki insanların açıq şəkildə dəlilləndirilə bilinməyən bu gizli səmimiyyətsiz hərəkətlərdən qurtula bilmələri, bütün bunların Qurana zidd olduğunu və Allah dərgahında günah ola biləcəyini anlamalarıyla mümkün olar. Unudulmamalıdır ki, bu həqiqəti görüb rəftarlarını səmimiyyətlə dəyişdirən insanları; **"hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər.**

**Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir"** (Maidə surəsi, 39) ayəsiylə xatırladıldığı kimi, Allah bağışlayacaq və onlara rəhm edəcəkdir.

# Düşünməmələri və düşünmək istəməmələri

Şeytan iman edən insanları öz yoluna gətirmək üçün, əlindən gələn hər səyi göstərən bir varlıqdır. Ən istəmədiyi şeylərdən biri də, iman edənlərin mütləq səmimiyyəti qazanıb, Allahın razı olacağı əxlaqa yiyələnmələridir. Bundan ötrü də, bir insan həqiqi imana dəvət edildikdə, şeytan mütləq ona əks istiqamətdə təsir göstərməyə çalışacaq.

Şeytanın bu istiqamətdəki fəaliyyətlərindən biri, insanların düşünmələrinə maneə törətməkdir. Şeytan bunun üçün insanları, var gücləriylə nəfslərinin istəyini qorumağa, səhvləri üçün bəhanələr tapmağa sövq edər. Bu təsirə düşən insan, özünə xatırlatma edən möminə qarşı qəzəblənməyə başlayar və haqsızlığa uğradığını düşünər. Həmçinin düşündüyündə, həqiqətləri açıq-aydın şəkildə görəcəyini və səmimiyyətsizliyini etiraf etmək məcburiyyətində qalacağını gördüyü üçün, düşünməkdən tamamilə uzaqlaşar. Başını bu cür səmimiyyətsizliklərlə məşğul edən insan, əsl düşünməsi lazım olan mövzuları düşünüb səhvlərini düzəltməz.

Həmin bu insanlar, bu hallarının bir nəticəsi olaraq, diqqətlərini yalnız ağıllarından keçən bu qeyri-sağlam düşüncələrə yönəldər və gəldikləri qənaətdə sabit fikirli olarlar. Bu məqsədlə də, izah edilənləri mümkün qədər dinləməməyə, eşitməməyə və anlamamağa çalışarlar. Qarşı tərəfin izah etdikləri nə qədər təsirli və nə qədər diqqət çəkici olsa da, beyinlərində kök salmış düşüncələrdə heç bir dəyişiklik olmaz. Şeytan bu cür insanlardakı bu qaçışı elə sürətləndirər ki, onlar özlərinə Quran ayələriylə edilən xatırlatmaları belə düşünməyəcək və hətta düşünmək istəməyəcək rəftar nümayiş etdirə bilərlər. Belə ki, özlərinə Allahın varlığı, həmin anda özlərini gördüyü və onları rəftarlarından ötrü sorğu-suala tutacağı, Qurana uyğun davranmamalarına görə sonsuz cəhənnəm əzabıyla qarşılaşacaqları xatırladıldığında belə, bu həqiqətlərdən təsirlənməmələrinə səbəb olacaq vicdani laqeydlik və düşüncəsizlik edərlər.

Beləliklə də, bilə-bilə özlərinə təbliğ və izah edilən şeyləri düşünmək istəməzlər. Lakin, əlbəttə ki, hər nə etsələr də, əslində günahkar olduqlarını da bilirlər. Bundan ötrü özlərini, vicdan sıxıntısı və narahatlıq içində yaşamağa məhkum edərlər. Həm özlərinə edilən Qurana uyğun xatırlatmaları qəbul etməyərək, nəfslərinin istədiyi bir həyat yaşamaq istəyər, həm də belə bir həyatın özlərini dünyada və axirətdə böyük ziyana uğradacağını bilərlər. Bundan ötrü də, ömürlərini daim ixtilaf, vəsvəsə və sıxıntı içində keçirərlər.

Halbuki belə bir laqeydlik iman sahiblərində olmayacaq bir rəftardır. Belə bir vəziyyət qarşısında möminlərin göstərməsi lazım olan əxlaq, bunun tam əksini edərək düşünmək və öyüd almaqdır. Quranın bir çox ayəsində diqqət çəkilən bu xüsusiyyət Əla surəsində də bildirilir. Allah bu ayələrində öyüd-nəsihət götürməyin Özündən qorxanlara aid bir xüsusiyyət olduğunu bildirir:

**Öyüd və xatırlatmanın fayda verdiyini görsən, onlara öyüd ver və xatırlat! Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar. O kimsə ki, Cəhənnəmə atılacaq, O orada nə öləcək, nə də yaşaya biləcəkdir. Günahlardan təmizlənən kimsə isə uğur qazanmışdır. (Əla surəsi, 9-14)**

# Davranış pozuqluqları göstərmələri

İman etdiklərini söylədikləri halda, səmimiyyətsizlikdən tam mənada xilas ola bilməmiş insanların, səmimiyyətə dəvət edildiklərində verdikləri reaksiyaların əhəmiyyətli bir hissəsi səsdə, danışıq üslubunda və baxışlardakı pozuqluqlarla özünü büruzə edər. Əvvəlki sətirlərdə də qeyd etdiyimiz kimi, bu insanlar dünyada Allahın rizasını qazanmaqdan daha əhəmiyyətli bir şey olmadığını çox yaxşı bildikləri halda, insanlar arasındakı imiclərinə daha çox əhəmiyyət verə bilirlər. Tənqid edilmələri və ya səhv hərəkətlərinin ortaya çıxarılması bu imiclərini zədələyən ən əhəmiyyətli xüsuslardır. Bundan ötrü də, bu cür mühitlərlə qarşılaşdıqlarında böyük narahatlıq və buna bağlı olaraq da səs, danışıq və baxışlarında mömin əxlaqına yaraşmayacaq tərzdə fərqlər yaranar. Səmimiyyətsizliyin ortaya çıxarılması nəticəsində meydana gələn bu reaksiyalardan bəzilərini belə sadalaya bilərik:

## Səsdə yaranan reaksiyalar:

İnsanların duyğu və düşüncələrini kənara əks etdirən ən əhəmiyyətli vasitələrdən biri, şübhəsiz ki, səsdir. Bir insan nəşəsini, sevincini, sevgisini, diqqətini, qorxularını, narahatlığını və ya rahatlığını çox vaxt istər-istəməz səs tonuyla kənara əks etdirər.

Quran əxlaqını yaşayan bir insan, axirəti barədə edilən xatırlatma qarşısında şövq və istəklə izah edilənləri anlamağa və tətbiq etməyə çalışar. Bu şövq, açıq şəkildə səsindən aydın olar. Səmimiyyətsiz insan isə, səmimiyyətsizliyinin ortaya çıxarılmasından ötrü keçirdiyi narahatlıq hissini hər nə qədər gizlətməyə çalışsa da, bəzən bu vəziyyət səsində əks olunar. Gündəlik həyatındakı təbii, gur, canlı, səlist, sərbəst və sağlam səs tonunun yerini, narahat, donuq, soyuq, batıq, boğuq, çətinliklə eşidilən, udqunaraq çıxan, nə dediyi heç aydın olmayan, anlaşılmaz, zorla və rəsmi şəkildə çıxan səs tonu alar. Belə vəziyyətlərdəki bu səs və üslub, çox vaxt insanın həmişəki, xüsusən də, şən olduğu vaxtlardakı səsi deyil. Bunu anlamaq üçün ən yaxşı metod, özünə çox sevdiyi bir yemək verildikdə, bəyəndiyi bir musiqi parçası çalındığında və ya çox istədiyi bir şey hədiyyə edildikdə, işlətdiyi səs tonuyla o andakı səs tonunu müqayisə etməkdir. Çünki ümumiyyətlə insanın normal səs tonu, sevindiyi, sevincli və rahat olduğu anlardakı səs tonudur. Yaşadığı müsbət duyğular təbii olaraq səsinə də əks olunar. Özünə bir öyüd verildikdə və ya hər hansı bir şey xatırladıldıqda, yəni nəfsinin xoşlamayacağı bir mühitlə qarşılaşdığında bu səs tonunun yox olması isə, mənfi düşüncələrə sahib olmasından qaynaqlanır.

İnsanın səs tonunda yaranan bütün bu incəliklərin, əlbəttə ki, bir mənası və ehtiva etdiyi mesajlar var. İnsan bu səs tonuyla, tənqid olunmaqdan xoşlanmadığı, söhbətin tezliklə bağlanmasını istədiyi, əks halda qarşı tərəflə olan dostluğunun, yaxınlığının bitib, araya məsafə qoyulacağı barədə mesaj verir. Bu yolla, qarşısındakına çatışmayan və yanlış cəhətlərinin ortaya çıxarılacağı təqdirdə özündən çıxacağını, normal halındakı sevincini, rahatlığını itirəcəyini, dolayısilə özünə bu baxımdan heç toxunulmamasının və hətta geri addım atılmasının lazım olduğunu ifadə etmiş olar.

Belə bir insan, bu səs tonuyla etdiyi çıxışlarla, hər nə qədər müsbət şeylər söyləyirmiş kimi görünsə də, elə bil, qarşı tərəfə bunların tam əksini ifadə edər. Kənarda baxanda bəzən özünə xatırladılan şeyi qəbul etdiyi görülər, amma qəlbi buna qarşı çıxdığı üçün işlətdiyi bu səs tonu **"rədd etmə səsi"**dir. Bu, kitabın əvvəlindən bəri üzərində dayandığımız gizli səmimiyyətsizliyin əhəmiyyətli göstəricilərindən biridir. İşlətdiyi səs tonundan bu insanın özünə izah edilənlərə qatılmadığı, razı olmadığı və tənqid olunmaqdan xoşlanmadığı çox açıq şəkildə aydın olur. Ancaq sözləriylə, deyilənləri təsdiqləyirmiş kimi göründüyü üçün, bu vəziyyəti ona başa salmaq və etdiyinin səhv olduğu barədə razılığa gətirmək qeyri-mümkündür. Bu insan da, onsuz da bunu bilərək, belə şeytani bir üsul tətbiq edir və öz aləmində gizli etiraz üsulundan istifadə edir.

Lakin həqiqi mənada səmimi olan və səhvini düzəltmək istəyən biri, gözəl əxlaqa yiyələnməyə niyyət edərək, rəftarıyla, danışıqlarıyla və səsiylə, təvazökarlığını, təslimiyyətini və qəbulunu ən gözəl şəkildə qarşı tərəfə ifadə edə bilər, mehriban və səmimi bir üslubla Qurana uyğun çıxışlar edərək, qarşı tərəfdə etimad hissi oyandıracaq rəftar göstərə bilər.

Tərs davranan insanların mənfi rəftarları, əxlaqsız hərəkətlərini davam etdirmə və bu xüsusiyyətləriylə qarşı tərəfi narahat etmə istəklərindən qaynaqlanır. Ancaq unudulmamalıdır ki, Quran əxlaqından uzaqlaşmaq insanın ən çox özünə zərər verər. Əgər imana dəvət edildiyi, Quran ayələriylə

xəbərdar edildiyi və özü də həqiqəti gördüyü halda, gizlicə səmimiyyətsizliyində israr edirsə, bu təqdirdə, dünya həyatında gizli əzablara, axirətdə isə cəhənnəm əzabına layiq ola bilər. Allah, möminləri aldatdıqlarını, onlara qarşı müəyyən üsullardan istifadə etdiklərini zənn edən bu insanların vəziyyətini Quranda belə xəbər verir:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 9-10)**

## Səmimiyyətsizliyin danışıqlarda əks olunması:

Danışma pozuqluğu da, insanların səmimiyyətsizliyini üzə vuran ən bariz əlamətlərdəndir. Özlərinə Quran ayələri xatırladıldığında söz və rəftarlarıyla təslimiyyətlərini dərhal göstərən möminlərin əksinə, səmimiyyətsiz insanlar çox vaxt Quran əxlaqına zidd tərzdə danışarlar. İnsanın həqiqi ruh halını əks etdirmə məsələsində, sanki bir ayna vəzifəsi yerinə yetirən danışıq tərzinə, Allah Quranda; **"əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir"** (Məhəmməd surəsi, 30) ayəsiylə diqqət çəkir.

Bu insanların danışma pozuqluqları özünü bir çox şəkildə büruzə verər. Bunlardan ən vaciblərini belə sadalaya bilərik:

### Danışıqlarındakı məntiqsizlik:

Bu insanların bəzilərində böyük məntiqsizlik olar. Başqa insanların asanlıqla müəyyənləşdirdiyi bu məntiqsizliyi, adətən özləri görə bilməzlər. Məsələn, özlərinə yönəldilən tənqidin düzgün olmadığını sübut etməyə çalışarkən, tənqidin nə qədər haqlı olduğunu göstərən dəlillər meydana gətirərlər. Verdikləri hər açıqlama, əvvəlkindən daha yanlış bir məntiqə əsaslanır. Vəziyyəti hər dəfə öz xeyirlərinə dəyişdirmək istədiklərində daha da böyük məntiqsizlik edərlər.

### – Qurana zidd danışıqlar:

Mömінin ən əhəmiyyətli xüsusiyyətlərindən biri həyatının hər anında Quran əxlaqını yaşaması, hər sözünün Quran ayələrinə uyğun olmasıdır.

Özünə öyüd verilən, ancaq səmimi olmayan bəzi insanlar, Quran ayələrini söyləməkdən, Allahın adını xatırlamaqdan diqqətlə qaçına bilərlər. Çünki bu təqdirdə, dediklərini yaşamalı olduqlarını da bilirlər. Məsələn, özlərinə çatışmayan bir cəhətləri deyiləndə, Quranın; **"o kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar bilə-bilə etdiklərində israr etməzlər"** (Ali İmran surəsi, 135) ayəsində bildirilən mömin rəftarını dilə gətirsələr, ayəyə əsasən dərhal səmimiyyətsizliklərindən də imtina etməlidirlər. Eynilə Allahdan başqa mütləq varlıq olmadığını, Allahın gücü qarşısındakı acizliklərini, hər şeyin Allahın yazdığı tale əsasında baş verdiyini, Allahın qəlblərin dərinliklərində gizlənən şeyləri bildiyini, səmimiyyətsizliklərindən ötrü insanları dünyada və axirətdə əzablandıracağını, cəhənnəmin əbədi olduğunu,

oradakı əzabın mahiyyətini və daimiliyini tezliklə düşünüb dilə gətirsələr, əxlaqsızlıqda israr etməyə cəsarət göstərə bilməyəcəkləri çox aydındır. Bu vəziyyətdə belə bir insan artıq nəfsinin istəyini müdafiə edə bilməz və cahil bir üslub işlədə bilməz. Hər şey tam tərsinə dönər, eqoist istəklərini təmin edə bilməz. Rəftarı, üslubu və hətta səs tonu belə normal halına qayıdar. Nə sünilik, nə küsəyənlik, nə də qarşı tərəfə etiraz məqsədli hərəkətlər edə bilər. Nə qədər qüruruna sığışdıra bilməsə və nə qədər formalaşdırdığını güman etdiyi imicinə xələl gəlsə də, səhvini qəbul edib tezliklə bunu düzəltməli olar.

Quran ayələrinə uyğun düşünməkdən qaçınan bu cür insanların, düşünmələrini təmin edə bilmək üçün onlara xatırladıla biləcək ən əhəmiyyətli mövzulardan biri cəhənnəmdir. Bu insana; "cəhənnəmin kənarında olsan, göstərəcəyin rəftara görə bir an sonra ya cəhənnəmə atılsan ya da xilas olsan, yenə də bu rəftarlarını davam etdirərsən mi?" kimi bir sual verildikdə, nəfsi çıxılmaz vəziyyətdə qalacaq. Çünki heç kim cəhənnəm odunun kənarında dayanarkən Quran əxlaqından uzaq bir rəftar göstərməyə cəsarət edə bilməz.

Belə bir müqayisə, insanların bir çoxunun səmimiyyətsizliyinin, ya Allahın əzabını uzaq görmələrindən ya da axirətə qəti məlumatla inanmamalarından qaynaqlandığını göstərir. Allah bir ayədə bu cür insanları belə xəbərdar edir:

**Yoxsa onlar ancaq ya mələklərin, ya Rəbbinin və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər? Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir. De: "Gözləyin, şübhəsiz ki, Biz də gözləyirik". (Ənam surəsi, 158)**

Nəticə etibarilə, bir insanın, yuxarıdakı ayəni yaddaşından çıxartmaması, səmimi olaraq cəhənnəmi və etdiklərinin əvəzində cəhənnəm əzabıyla üzləşə biləcəyini düşünməsi, səmimiyyətsizlikdən imtina etməsi, dürüst insan olaraq həyatına davam etməsinə vəsilə ola bilər.

## − Güclü müdafiə və etiraz:

Səmimiyyətsizlikdə israr edən bəzi insanların tənqid qarşısında etdiyi çıxışlarında diqqət çəkən digər bir xüsus da, bu insanların bəzi hallarda izah edilənləri anlamağa çalışmaqdansa, güclü etiraz və müdafiə psixologiyası içində olmalarıdır. İmanlı bir insan, müəyyənləşdirilmiş bir xüsusiyyətini və ya tövsiyəni diqqətlə dinləməli, soruşmalı, anlayıb öyrənməyə çalışmalıdır. Belə bir insan bundan sonra özünə edilən xəbərdarlığı anladığını göstərərək, Qurana uyğun səy göstərməlidir. Amma bəhs olunan xarakterdə çox vaxt belə bir səy müşahidə olunmaz.

Allah Quranda hz. Yusifin gözəl rəftarını möminlərə nümunə olaraq verir. Hz. Yusif özünə atılan böhtan qarşısında haqlı olmasına baxmayaraq, özünə bəraət qazandırmadığını bildirmişdir. Həmin ayə belədir:

**Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs insana pis işləri əmr edər. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir". (Yusif surəsi, 53)**

## − Susqunluq:

Səmimiyyətsizliyi büruzə verən digər bir reaksiya da, normalda aktiv və şən bir xarakter nümunəsi sərgiləyən, ardıcıl, səlist və səmimi çıxışlar edən insanların bir tənqid qarşısında anidən susqunlaşıb, danışa bilməz hala gəlmələridir. Həqiqi imana sahib möminlərin, ən çətin anlarda və ən çətin şərtlərdə belə, şövqləri və iradələri zəifləməz. Hətta tam əksinə bu cür vəziyyətlərdə daha da şövqlənərək, daha da böyük səy göstərərək imanlarının gücünü göstərərlər.

Əlbəttə ki, bu cür vəziyyətlərdə qaneedici açıqlamalar verməkdənsə susmağı seçənlər, bunu açıq bir aksiya və etiraz nümayişi olaraq edərlər. Bu yolla, özlərinə xatırlatma edən mömin qardaşlarını qorxutmaq istəyərlər. Ancaq özlərinə bu etdiklərinin çirkin bir rəftar olduğu deyilsə, deməyə bir söz tapmadıqlarından

ötrü susduqları kimi bəhanələr ortaya atarlar.

Bu cür rəftarlar, əlbəttə ki, gizlicə edilər və sübut edilə bilməz. Daha əvvəl də ifadə edildiyi kimi, ancaq altıncı hiss sayəsində görülüb aydın ola bilər. Səmimiyyətsiz insan isə, dəlil olmamasından istifadə edərək, hərəkətlərini davam etdirər. Ancaq bu xoşagəlməz inadkarlığından ötrü, həm Allahın rizasını, həm də möminlərin etimad, hörmət və sevgilərini itirər. Buna baxmayaraq, özünü ağıllı və qazanclı hesab etməsi də, onun nə qədər zəif ağla sahib olduğunun açıq bir göstəricisidir. Üstəlik, həmin bu insan, gizlincə qurduğu planlardan ötrü olduqca qarışıq ruh halına sahib olar. Etdiklərinin səmimiyyətsizlik olduğunu bilmənin gətirdiyi vicdan sıxıntısını yaşayar. Buna görə də, daim sıxıntı və narahatlıq içində yaşayar. Bu da, Allahın bu dünyada gizli səmimiyyətsizlik etməyə çalışanlara verdiyi gizli əzablardan biridir.

## -Süni danışıqlar:

Allahın, qəlblərində gizlətdiklərini bildiyini unudan insanlar, hər hansı bir məsələdə yalnız ətraflarındakı insanları razı salmağın kifayət edəcəyinə inanarlar. Belə vəziyyətdə də, içlərində olanı gizlədə bilmək üçün süniliyə müraciət edərlər. Qəlblərində olmayan şeyləri insanlara varmış kimi göstərə bilmək, eləcə də, qəlblərində olub da gizlətmək istədikləri şeyləri insanlardan gizlədə bilmək üçün süni rəftar və danışıqlarla qarşı tərəfi razı salmağa çalışarlar. Allah bir ayəsində bu cür insanlardan belə bəhs etmişdir:

...**Qəlbləri qarşı çıxdığı halda, dildə sizi razı salmağa çalışarlar. Onların çoxu fasiqlərdir. (Tövbə surəsi, 8)**

Daima bu ikiüzlü ruh halını davam etdirmək, əlbəttə ki, insana olduqca sıxıntı verir. Bir insanın, hiss etmədiyi şeyləri hiss edirmiş kimi görünməsi, ciddi bir səy tələb edir. Bu da olduqca bezdirici haldır. Belə davranmağı davam etdirən insan özünə əzab verir.

Bu insanlar özlərinə bir öyüd veriləndə, deyilənləri, şişirdilmiş mimika və eyhamlarla, təfərrüatlı və uzun-uzadı açıqlamalarla qəbul etdiklərini söyləyərlər. Halbuki çox vaxt tam əksini düşünər və yalnız söhbətin bağlanmasını istədikləri üçün deyilənləri qəbul etmiş kimi görünərlər. Qarşı tərəfin necə bir cavab gözlədiyini nəzərə alaraq, heç düşünmədən, hiss etmədən və qavramadan qarşı tərəfə rahatlıq verəcəklərini düşündükləri şəkildə danışarlar. Ancaq bu əsnada ümumiyyətlə rəftarlarında müsbət bir dəyişiklik olmaz. Müsəlmanlar isə, yenə Allahın köməyi ilə bu insanların danışıqlarındakı süniliyi hiss edərlər.

Bu hiyləgərliyi edən bir insan, həmin an özünü təmizə çıxardıb xilas olduğunu zənn edər, halbuki, Allah onun içindən keçənləri, ən yaxşı gizlətdiyi şeyləri belə bilir. Allah Quranda, qəlbindəkiləri gizlətdiyini zənn edən insanlar barədə belə buyurur:

**Baxın, onlar ürəklərini qısırlar (küfrü ört-basdır edirlər) ki, Allahdan gizlənsinlər. Doğrusu, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir. (Hud surəsi, 5)**

## -Tərs bir üslubdan istifadə etmək:

Bəzi insanların özlərinə verilən öyüdü qəbul etməmək üçün, əl atdıqları üsullardan biri də, tərs bir üslubdan istifadə etmələridir. Bu yolla, qarşılarındakı müsəlmanı yaxşı əməllər görməyi buyurub, pis əməlləri qadağan etməkdən imtina etdirə biləcəklərini düşünərək yanılarlar. Çünki, saleh bir müsəlman yalnız doğruları göstərməklə məsuldur, qarşı tərəfin rəftarı onun Allahın rizasına uyğun davranmasına təsir göstərməz.

Bu ikiüzlü insanlar, tərsliyi də digər davranış pozuqluqları kimi, hiyləgərcəsinə edərlər, həddən artıq əlamət və dəlil verməməyə çalışarlar.

Danışıqlarında hər şeydən əvvəl gizli inadkarlıq hakimdir. Tam da bəlli olmayan mimika və eyhamların köməyi ilə qarşılarındakı insana gizlincə meydan oxuyarlar. Deyilən sözlər ilk baxışda ədəbli və

məqbul görünə bilər. Ancaq bu sözlərin söyləniş tərzi, istifadə edilən eyhamlar, sərt baxışlar və xoşagəlməz mimikalar həmin insanın tam əksini söylədiyi təəssüratını verər.

Quran əxlaqında nə açıq, nə də gizli şəkildə göstərilən tərs bir rəftara qətiyyən yer yoxdur. Möminləri cahil insanlardan fərqləndirən əhəmiyyətli bir xüsusiyyətləri üzüyola, təvazökar, təslimiyyətli, səbirli və şəfqətli insanlar olmalarıdır. Bütün bu xüsusiyyətləri bir insana qazandıra biləcək tək şey isə Allah qorxusudur. Bundan ötrü də, gizlicə tərslik edən bir insan, Allahdan gücü çatdığı qədər qorxaraq dərhal bu əxlaqından imtina etməli və möminlərə qarşı üzüyola və təslimiyyətli əxlaq nümayiş etdirməlidir.

# Baxışlardakı pozuqluq

Danışmaq qədər, insanların xarakterlərini, duyğularını, düşüncələrini və ya səmimiyyət dərəcələrini göstərən digər bir əlamət də baxışlardır. Bir insan daxili aləmində nə yaşayırsa, qəlbində nə gizlədirsə və ya ağlından hər nə keçirirsə, bu çox vaxt baxışlarına əks olunar. Bu, əslində xalq arasında da bilinən bir həqiqətdir və "gözlər qəlbin aynasıdır" deyimiylə ifadə edilər. Dolayısilə insanların bir-birlərini tanıyıb analiz edə bilmələrində baxışların mühüm yeri var.

Allah Quranda baxışların insanların daxili aləmlərini əks etdirən əhəmiyyətli bir meyar olduğunu bildirir. Baxışlara diqqət çəkilən ayələrdən bəziləri belədir:

**Həqiqətən, inkarçılar Zikri (Quranı) eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr... (Qələm surəsi, 51)**

**Allah gözlərin xaincəsinə baxışını və kökslərin nələr gizlətdiyini bilir. (Mümin surəsi, 19)**

Yuxarıdakı ayələrdə də görüldüyü kimi, ikiüzlü insanların həqiqi ruh hallarını və düşüncələrini baxışları əks etdirər. Belə insanlar yaşamadıqları gözəllikləri yaşayırmış kimi görünməyə səy göstərərlər. Məsələn, nəfslərinə zidd düşən bir hadisə baş verdikdə dərhal qəzəblənərlər. Amma Quran əxlaqında qəzəblənməyə yer yoxdur; bundan ötrü də, qəzəblərini gizlətməyə çalışarlar. Belə edərək həm öz əxlaqsızlıqlarına bilavasitə şahid olub sıxıntıya qapılar, həm də əbəs yerə güclü qəzəb kimi hisslərlə özlərinə əzab verərlər.

Səmimi bir insanın baxışları isə, dürüstlüyünü əks etdirər. Özlərinə zülm edən insanların əksinə, içi-çölü bir, rahat və razı bir ruh halı, gözlərdə də bir canlılıq və dərinlik olaraq özünü göstərər.

# Dərhal ümidsizliyə qapılmaları

Səhvləriylə əlaqədar tənqidlərə məruz qaldıqlarında, Quran əxlaqını gərəyi kimi yaşamayan insanların verdikləri ən diqqətçəkici reaksiyalardan biri də dərhal ümidsizliyə qapılıb ruhdan düşmələridir. Ümidsizliyə qapılmaq, Allahın sonsuz gücünü, iman gətirmiş qulları üzərindəki rəhmətini və bağışlayıcılığını qavrayan insanların qətiyyən göstərməyəcəyi bir rəftardır.

Allah, Quranda hz. Yaqubun ümidsizlik mövzusundakı bu sözlərini bildirir:

**Ey oğullarım! Yusifdən və qardaşından xəbər tutmaq üçün yola düşün, Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq inkarçılar ümidlərini kəsər". (Yusif surəsi, 87)**

Çatışmayan cəhətlərini görmək bir insan üçün böyük nemət və fürsətdir. Beləliklə bu insan, səhvlərindən qurtulma imkanı qazanır. Lakin bəzi insanlar, özlərinə xatırlatma edildikdə və ya səhv bir hərəkət etdikdə dərhal ümidsizliyə qapılarlar. Bu, təvəkkülsüz olmalarının əlamətidir. Təvəkkülsüzlük isə, insan üçün dünyadakı ən böyük bəlalardan biridir. Çünki bəzi hadisələrin Allahdan müstəqil meydana gəldiyini zənn edən insan, hər hadisəyə özü nəzarət etmək istəyər. Amma bunu da əsla bacara bilməyəcəyi üçün həyatını daim qorxu, sıxıntı, narahatlıq və stress içində keçirər. Allahın sonsuz qüdrətini və hər şey üzərindəki hakimiyyətini unudan insanların yaşadıqları bu ruh halı, əslində özləri üçün dünyada yaradılmış əzab növlərindən biridir.

# Haqsızlığa uğrama psixologiyası və əks hücumlar

Allahın ədalətini, iman gətirmiş qulları üzərindəki mərhəmətini, eləcə də, mömin əxlaqındakı gözəllikləri gərəyi kimi qavraya bilməmiş insanlar, özlərinə xəbərdarlıq edildikdə, bunu özlərinə istiqamətlənmiş haqsız səy hesab edərlər. Özlərini xəbərdar edən insanların, heç bir mənfəət güdmədən, yalnız onların dünya və axirət həyatını gözəlləşdirmək üçün, səmimi səy göstərdiklərini görə bilməzlər. Allahın; **"onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?"** (Maidə surəsi, 50) ayəsiylə diqqət çəkdiyi kimi, bu mövzunu cahil meyarlarla qiymətləndirərlər. Cahil cəmiyyətlərdə insanlar özlərini üstün göstərmək, qarşı tərəfin nöqsanlarını aşkarlayıb onu hörmətdən salmaq və biabır etmək məqsədilə bir-birlərini tənqid edərlər. Bu düşüncəyə görə tənqid; qarşı tərəfə bəyənilmədiyini, rəftarlarının xoş qarşılanmadığını bildirmək üçün edilər, yoxsa tənqiddəki məqsəd; məsələni həll etmək və ya qarşı tərəfin çatışmayan cəhətlərini düzəltməsini təmin etmək, onu daha yaxşı olana yönəltmək və sonsuz axirət həyatını qazanması üçün vəsilə olmağa çalışmaq deyildir. Məhz bundan ötrü də, hadisələri Qurana uyğun dünyagörüşüylə deyil, əksinə cahil meyarlar əsasında qiymətləndirən səmimiyyətsiz insanlar da, özlərinə təqdim edilən gözəlliyi əleyhlərinə olduğunu güman edərlər.

Qurana uyğun hərəkət etməyən bu insanlar, nəfslərinə zidd düşən belə bir vəziyyətlə qarşılaşdıqlarında, ümumiyyətlə haqsızlığa uğradıldıqlarını düşünər, əksərən də, özlərinə xəbərdarlıq edən insanı incidəcək sözlər söyləyər, qəzəblənər, küsər, araya məsafə qoyar və soyuq rəftar nümayiş etdirərlər.

Ancaq bilinməlidir ki, bu hərəkətlərinin heç biri Quran əxlaqına uyğun deyil. Hər şeydən əvvəl insanların üzərində Allahın mütləq ədaləti təcəlli edir və Allah; **"həqiqətən, Allah zərrə qədər də olsa haqsızlıq etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah bunu artırar və Öz tərəfindən böyük mükafat verər"** (Nisa surəsi, 40) ayəsiylə, heç kimin haqsızlığa uğramayacağını bildirir. Mömin bir insan, hər vəziyyətdə Allahın ədalətinin təcəlli edəcəyindən əmin olar, bundan ötrü də, təvəkküllü və təmkinli rəftar nümayiş etdirər. Allaha iman etdiklərini söylədikləri halda, Onun ədalətini və gücünü unudanlar isə, haqsızlığa uğrama psixologiyasıyla daim sıxıntılı və gərgin bir həyat yaşayarlar.

# "Sərhəd prinsipi"ylə edilən hiyləgərliklər

Bu kitabın mövzusunu meydana gətirən əxlaqdakı bəzi insanlar, həm Qurana tabe olduqlarını söyləyər, həm də gizlində hiyləgərcəsinə cahilliyyə əxlaqını yaşamağa davam edərlər. Ancaq bütün bunları **"sərhəd prinsipi"** çərçivəsində edərlər. "Sərhəd prinsipi"nin mənası isə budur: İnsan hər cür gizli səmimiyyətsiz hərəkəti, sübut edilə bilməyəcək və açıq şəkildə Qurana zidd olmayacaq şəkildə edər. Bütün gizli hərəkətlərini daim müəyyən sərhəd çərçivəsində edər. Bütün gizli hərəkətlərini daim müəyyən sərhəd çərçivəsində edər. Bunu bacara bilmək üçün, lazım gəldikdə kobud və ya dəqiq nizamlama əməliyyatları aparar. Kobud nizamlama əməliyyatını əvvəlcədən aparar. Dəqiq nizamlama əməliyyatını isə, edilən hərəkətlər möminlər tərəfindən ortaya çıxarıldıqdan sonra aparar. Məsələn, tərs-tərs danışdıqda, bunun mömin əxlaqına uyğun olmadığı özünə deyilsə, dərhal tərs və normal danışıq tərzi arasında nizamlama əməliyyatı apara bilər. Hər dəfə özünə xatırladılanda, tərsliyinin dərəcəsini bir qədər də azaldar, amma bunu yenə də içində şeytani izlər buraxaraq edər və hər vəziyyətdə Quranla verilən nəsihətləri qəbul etməz. Amma qəbul etməyə meyil edə bilər. Gizli kobudluq, gizli etirazlar, gizli inadkarlıqlar daim bu sərhəd prinsipi çərçivəsində sübut edilməyəcək dərəcədə edilər.

Halbuki səmimiyyətsizlikləri gizlətmək və qorumaq naminə bu qədər sıxıntı və qarışıqlıq içinə düşmək tamamilə yersizdir. Belə bir həyatı yaşamaq, daxilən özünü gəmirən vicdan əzabını, sıxıntıları yaşatmaq böyük ağılsızlıqdır. Səmimiyyət olduqca asan, olduqca gözəl və sadədir. Əks təqdirdə unudulmamalıdır ki, Allahın; **"o gün siz məhşərə gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcəkdir"** (Haqqə surəsi, 18) ayəsiylə bildirdiyi kimi, dərəcəsi azaldılmış da olsa, Allah mütləq bütün bu səmimiyyətsiz hərəkətləri görür və bilir. Bunlarla yanaşı; **"zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır"** (Zəlzələ surəsi, 7-8) ayələriylə bildirildiyi kimi, hər şeyin əvəzi axirətdə mütləq veriləcək. Məhz bundan ötrü də, Allah ayələriylə insanlara günahın aşkarından da, gizlisindən də əl çəkmələrini söyləyərək, onlara əzaba düçar olmamaq üçün xəbərdarlıq edir:

**Günahın aşkarından da, gizlisindən də əl çəkin! Şübhəsiz ki, günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar. (Ənam surəsi, 120)**

**...Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın... (Ənam surəsi, 151)**

# Etiraz və aksiya psixologiyası

Cahil cəmiyyətlərdə insanların böyük hissəsi hər hansı bir insanın dediyi bir söz və ya rəftarından ötrü qəzəblənib incidiklərində evin qapılarını, şkaf qapaqlarını çırpmaq, qarşılarındakı insana soyuq davranmaq, danışmamaq, özləri üçün hazırlanan yeməyi yeməmək, görülməsi lazım olan işi görməmək kimi hərəkətləri heç çəkinmədən edərlər. Quran əxlaqından xəbərdar olan insanlar isə, bu rəftarların qətiyyən mömin əxlaqına uyğun olmadığını bildiklərindən bu cür hərəkətləri etməzlər.

Səmimi imana sahib olmayan bəzi insanlar isə, Quran əxlaqına zidd olduğunu bilə-bilə etiraz hərəkətlərini davam etdirməkdən çəkinməzlər. Amma bunu həmişə açıq şəkildə etməzlər; daha çox tərsləşmə, susqunlaşıb sakitləşmə kimi rəftarlarla edərlər. Belə ruh halına girən insan, özünə bir sual verildikdə düzgün və normal cavab verməz. Bəzən qısa və başdansovdu cavab verər, bəzən də "bilmirəm", "bəli" və ya "xeyr" kimi yarımçıq cavablar verərək gizlicə qarşı tərəfə etirazını bildirər. Burada məqsəd, cavab verirmiş kimi görünmək və özündən "niyə cavab vermirsən" deyə soruşulduqda "məgər cavab vermədim" deyərək qarşı tərəfi haqsız göstərməyə çalışmaqdır. Bəzən də verilən suala tam da aydın olmayan şəkildə gecikdirərək cavab verər. Niyə susduğu və ya gec cavab verdiyi soruşulduğunda da "fikirləşirdim", "söyləyəcəyim şeyi xatırlaya bilmədim" kimi yenə səmimiyyətsizliklə edildiyi bəlli olan, lakin qəti şəkildə sübut edilə bilməyəcək bəhanələr ortaya atar. Hər kəsin gülüb əyləndiyi bir mühitdə, o ürəyincə əylənməz, yalnız təbəssüm etməklə kifayətlənər, ağır və soyuq davranar. Ancaq niyə belə davrandığı, bir problemin olub olmadığı soruşulduğunda, heç nə olmadığını söyləyərək qarşı tərəfə eyhamlı

şəkildə cavab verər. Bəzən də, narahat və ya yuxusuz olduğu kimi bəhanələr ortaya ataraq etiraz hərəkətlərini bu cür pərdələr altında sübut edilə bilməz hala gətirər. Bu vəziyyətdə rəftarına görə tənqid edilsə, qəsdən nə isə etmədiyini, narahat olduğu üçün bu cür davrandığını söyləyəcək.

Belə çirkin rəftarlar göstərən insanlar bilməlidirlər ki, göstərdikləri bu əxlaqın sıxıntısını yaşayan da yenə yalnız özləridir. Əksər insan, əllərində açıq bir dəlil olmasa da, qarşılarındakı insanın gizlində səmimiyyətsiz rəftar göstərdiyini anlayar. Mömin insan, yenə Quran əxlaqına uyğun olaraq bu cür insanlara fayda verəcək, onları gözəl əxlaqa dəvət edəcək şəkildə səmimiyyətlə cavab verər və gözəl əxlaq göstərmənin rahatlığını yaşayar. Gizli əxlaqsız hərəkətlər göstərməkdə israr edən insanın özü isə, başqalarına etiraz nümayişi edəcəyindən ötrü ürəyincə əylənə bilməz, gülə bilməz, danışa bilməz. Hadisələri və ya insanları daim pis gözlə qiymətləndirdiyi üçün gözəllikləri görə bilməz, bunlardan zövq ala bilməz. Hər şeyi problem hesab edib, daim sıxıntı və əzab içində yaşayar. Məhz bu, insanın öz əliylə özünə zülm etməsidir və bundan qurtulmağın yeganə yolu, insanın Allahdan qorxaraq Quran əxlaqına yönəlməsidir. Yalnız səmimi-qəlbdən Allaha yönələn və Onun razı olmayacağı hər şeydən şiddətlə çəkinən insanlar, dünyada və axirətdə rahatlıq və xoşbəxtliyə nail ola bilərlər.

# Allah səmimiyyətsizliklərində israr edənlər üçün dünya əzabını artıra bilər

Rəbbimiz; "**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər...**" (Nisa surəsi, 17) ayəsiylə, qəbul edəcəyi tövbənin necə olmasının lazım olduğunu bildirir. Digər bir ayəsində isə, Allah saleh möminləri; "**o kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar bilə-bilə etdiklərində israr etməzlər**" (Ali İmran surəsi, 135) sözləriylə xarakterizə edir.

Allah, avamlıq və ya cahillikdən ötrü edilən, ancaq pis iş olduğu məlum olduqda dərhal imtina edilən və bilə-bilə təkrar edilməyən səhvləri bağışlayacağını bildirir. Məhz Allaha qarşı tam səmimi olmaq istəyən mömin bu ayələr istiqamətində düşünməli və gizlətdiyi bütün səmimiyyətsizliklər üçün Allahdan bağışlanma diləməlidir.

Lakin bu məqamda yenə səmimiyyətlə qiymətləndirilməsi lazım olan bir xüsus da var: Allahın axirət günü insanları yalnız açıq şəkildə göstərdiyi səmimiyyətsiz rəftarlardan ötrü məsul tutmayacaq. O insanları, vicdanən bildikləri, amma insanlardan gizlətməyə çalışdıqları gizli səmimiyyətsiz hərəkətlərindən ötrü də hesaba çəkəcəkdir. Quranın bir ayəsində; "**...Allah sizin aşkara çıxardığınızı da, gizlində saxladığınızı da bilir**" (Nur surəsi, 29) hökmüylə xatırladıldığı kimi, qarşılarındakı insanların sübut edə bilmədiyi xüsuslarda da, Allah insanın içindən keçənləri bilir. Bundan ötrü də, insan, özünü qiymətləndirərkən yalnız kənardan görülə bilən və dəlilləndirilə bilən rəftar pozuqluqlarını deyil, gizli səmimiyyətsizliklərini də nəzərə almalı və bunların hamısından imtina edərək Allahdan bağışlanma diləməlidir.

Bunun əksini etsə, belə ki, özünə xatırladılanlardan yararlanmaq istəməsə, ehtiyacsız olduğunu zənn etsə və üz döndərsə; "**xeyr! İnsan, doğrudan da, yolunu azar özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə**" (Ələq surəsi, 6-7) ayələriylə bildirilən insanların mövqeyinə düşə biləcəyini bilməlidir. Bu vəziyyətdə bilə-bilə səmimiyyətə yanaşmadıqları, Allahın ayələrini bildikləri, doğru yolu gördükləri halda, rəftarlarını bilə-bilə dəyişdirmədikləri üçün, Allah da bu insanları anlama qabiliyyətindən tamamilə məhrum edə bilər. Allah qullarını bu vəziyyətə qarşı belə xəbərdar edir:

**Haqsız olaraq yer üzündə təkəbbürlük göstərənləri ayələrimdən uzaqlaşdıracağam. Onlar bütün möcüzələri görsələr də onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bu ona görədir ki, onlar ayələrimizi inkar edir və onlara məhəl qoymurdular". (Əraf surəsi, 146)**

Həm Quran ayələriylə, həm vicdanlarıyla, həm də səmimi möminlər vasitəsiylə açıq şəkildə xəbərdar edildikləri halda, səmimiyyətsizliklərində israr edən insanların dünya həyatında ala biləcəkləri qarşılıq, bununla da kifayətlənməyə bilər. Allah Quran haqqında yaxşı şəkildə düşünməyən insanların artıq istəsələr də, özlərinə verilən öyüdləri qəbul edə bilməyəcəkləri şəkildə, qəlb gözlərinin korlaşa biləcəyini belə xəbər verir:

**Onlar Allahın lənətlədiyi, qulaqlarını kar və qəlb gözlərini kor etdiyi kimsələrdir. Məgər onlar Quran haqqında yaxşı şəkildə düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllıdır? (Məhəmməd surəsi, 23-24)**

Bütün bunlar Allahın, səmimiyyətsizlikdə israr edən insanlara dünyada verə biləcəyi qarşılıqlardan yalnız bir neçəsidir. Unudulmamalıdır ki, Allah hər şeyi yaratmağa qadirdir. İstəsə dünya həyatında insanlara verdiyi əzabı artıra bilər. İnsanların səmimiyyətsiz olduqlarından ötrü yaşadıqları gizli əzablar, həyatlarının hər anını əhatə edə bilər. Allah istəsə dünyanı insanlara dar edə bilər. Quranda, keçmişdə yaşamış bir çox qövmün, belə əzab qarşısında Allaha təslim olub səmimiyyətə yönəldiklərindən bəhs edilir. Bir ayədə isə Allah; "**sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə, dində Ona**

**“səmimi-qəlbdən və xalis bağlılar (muhlis)” olaraq Allaha dua etməyə başlayarlar: “Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq"** (Yunis surəsi, 22) deyə bildirərək insanların əlacsız vəziyyətdə, dənizin ortasında dalğalarla əhatə edilmiş halda qaldıqlarında “dində Ona “səmimi-qəlbdən və xalis bağlılar (muhlis)” olaraq” Allaha yönəldiklərini xatırladır.

Məhz insanlara bu səmimiyyəti qazandıran, Allahın əzabını görərək, Onun gücünü və qüdrətini dərk etmiş olmalarıdır. Diqqət çəkən məqam isə, bu insanların belə bir vəziyyətdə səmimiyyəti qazanmaq üçün, heç bir çətinlik çəkməmələridir. Əzabı gördükləri anda vicdanlarından və iradələrindən tam şəkildə istifadə edə bilir və Allahın razı olacağı əxlaqa nail ola bilmək üçün, əllərindən gəldiyi səmimi bir səy göstərə bilirlər. Bu da insanların əzabla qarşılaşmadan əvvəl, səmimi ola biləcəklərini göstərir. Əslində, başqalarının özlərini başa salmasına, səmimiyyətsizliklərini sübut etməyə çalışmasına ehtiyac yoxdur. Yalnız vicdanlarının səsinə qulaq asmaqla da, Allahın razı olacağı bu xüsusiyyəti qazana bilərlər. Buna baxmayaraq, özlərinə xatırladıldığı, səmimiyyətə dəvət edildikləri halda, üz döndərsələr, bu təqdirdə Allahın dünya həyatında verə biləcəyi əzabdan şiddətlə qorxub çəkinməlidirlər.

Çünki Allah istəsə, insanları səmimiyyətsizliyə cürət etdikləri anda tezliklə əzablandıra bilər. İnsanın əlindən bütün mal-dövlətini, etibarını alıb, gücsüz və möhtac edə bilər. İnsana, düşünməklə ağlına belə gətirə bilməyəcəyi dərəcədə daxili narahatlıq, bədbəxtlik və kədər verə bilər. Bədənini diri saxlayıb, ruhunu həyatının sonuna qədər heç bir nemətdən, heç bir gözəllikdən zövq almayacaq şəkildə qatılaşdıra bilər. Ölənə qədər sevmənin, sevilmənin, dostluğun, səmimiyyətin gözəlliyini dada bilməyəcəyi bir həyat yaşada bilər. Bu mənəvi əzablarla yanaşı, Allah bu insanlara amansız dərd və xəstəliklər də verə bilər. Bir ayəsində Allah insanlara bu vəziyyəti; **"de: “Allah başınızın üstündən və ya ayaqlarınızın altından sizə əzab göndərməyə, ya da sizi qarışıqlığa salıb dəstə-dəstə etməyə və birinizə digərinin gücünü daddırmağa qadirdir”. Gör ayələrimizi necə izah edirik ki, bəlkə başa düşsünlər"** (Ənam surəsi, 65) hökmüylə xatırladır, bütün insanlara əzaba düçar olmamaları üçün xəbərdarlığını bildirir. İnsan bütün bu ehtimallardan qorxub çəkinməli və dərhal səmimiyyətə yönəlməlidir.

Özlərinə verilən möhlət də, insanları aldatmamalıdır. Allah, insanlara mərhəmətli, əfv edici və bağışlayıcı olduğundan ötrü doğru yola yönəlmələri üçün müəyyən möhlət verir. Əgər insan bu möhləti öz xeyirinə istifadə etməsə Quranın; **"neçə-neçə şəhərlərə, əhalisi zülm edərkən möhlət verdim, sonra onları əzabla yaxaladım. Dönüş də ancaq Mənədir!"** (Həcc surəsi, 48) ayəsiylə bildirildiyi kimi, qaçınılmaz bir əzaba düçar ola bilər. İnsan özünə verilən möhlətin nə vaxt bitəcəyini bilməz. Bundan ötrü də, hər an öləcəkmiş kimi, imanını gücləndirmək və əxlaqını gözəlləşdirmək üçün ciddi səy göstərməlidir. Unudulmamalıdır ki, ölənə qədər hər insanın hər an yenidən başlama, yenidən iman etmə və səmimi surətdə Allaha təslim olma imkanı var. Səmimiyyətsizlikdən qurtulmağın yolu çox asandır. İnsan, Quran ayələri istiqamətində niyyətinə yenidən nəzər salmalı, həyatının heç bir anında, heç bir mövzuda, gizli və ya açıq heç bir səmimiyyətsiz hərəkət etməməlidir.

# Dünya həyatındakı gizli əzablar axirətdə sonsuz əzaba çevrilə bilər

Kitabın əvvəlindən bəri, insanların, qəlblərindəki səmimiyyətsizlikdən tamamilə qurtulmadıqca yaşadıqları bədbəxt həyatdan, heç kəsə bəlli etmədən çəkdikləri gizli əzablardan qurtula bilməyəcəklərini çatdırdıq. Bu hissədə isə, xəbərdar edilib qorxudulduqları halda, səmimiyyətsizlikdə israr edən və həqiqi imanı yaşamağa yanaşmayan insanların, axirətdə də bədbəxt ola biləcəklərini xatırladacağıq. Unudulmamalıdır ki, insan dünya həyatında sınanmaqdadır; nəfsiylə olan mübarizəsində Allahın bəyəndiyi əxlaqı və imanı, nə qədər yaşaya bilsə axirətdə də, bir o qədər qarşılıq alacaq. Nəfslərini təmizləyənlər cənnətə, onu günah və pis əməllərə batıranlar isə cəhənnəmə gedəcək.

Dünyada olarkən dürüst və səmimi olmayan, təvazökarlıqdan, təslimiyyətdən xəbərsiz, inadkarlığı, üsyanı və ikiüzlülüyü özləri üçün qanun qəbul etmiş insanlar, axirətdə bu əxlaqlarına uyğun qarşılıq alacaqlar. Allah, cənnəti bütün pisliklərdən, çatışmazlıqlardan təmizləmişdir. Cənnətinə qəbul etdiyi insanlar da dünya həyatında nəfslərindəki bütün pislikləri təmizləməyə çalışmış insanlardır. Cənnətə qəbul edilmək istəyən bir insanın, dünyada özünü bütün pisliklərdən təmizləməli olduğu aydındır. Çünki dünya həyatında pisliklərindən təmizlənməyən, gözəl əxlaqı yaşamayan, sevməyi, sevilməyi, gözəlliklərdən zövq almağı bacarmayan bir insan, şübhəsiz ki, axirətdə də birdən-birə bunlardan zövq alan bir insana çevrilə bilməz. Dünya həyatı onun üçün öyrənmə yeridir, yalnız burada nəfsinə bu xüsusiyyətləri qazandırdığı təqdirdə, axirətdə də bu xüsusiyyətlərə sahib ola bilər. Bunun əksini etdiyi təqdirdə, dünyada yaşadığı əxlaqa qarşılıq olaraq axirətdə də eyni sıxıntıları, əzabları və bədbəxtlikləri yaşamağa davam edəcək.

Məhz bundan ötrü də, hər insan özünü gözləyən bu təhlükədən qorxmalı, buna qarşı hazırlıq görməli və hələ vaxt olduğu halda, tam səmimi imanı yaşaya bilmək və Allahın bəyəndiyi əxlaqa nail ola bilmək üçün əlindən gələn bütün səyi göstərməlidir. Sonrakı sətirlərdə, düşündürücü olması baxımından, dünya həyatında səmimiyyətsiz əxlaq göstərən insanların axirətdə ala biləcəkləri qarşılıqlara toxunacağıq.

# Dünyada böyüklənən insanların axirətdə alçaldılacaqları unudulmamalıdır:

Nəfslərindəki böyüklənmə və eqoizm duyğularından qurtula bilməyən kimsələr, insanlar qarşısında böyüklənmək, daim hər yerdə hamıdan daha yaxşı və daha üstün bilinmək üçün böyük səy göstərərlər. Belə ki, bu səy onların dünya həyatında bədbəxtlik və əzab içində yaşamalarına səbəb olar. Bu insanlar etdiklərinin qarşılığını axirətdə xor görülərək, alçaldılaraq, biabır edilərək alacaqlar. Allah bu insanlar üçün Quranda belə buyurur:

**Sizin məbudunuz Tək olan İlahdır. Axirətə inanmayanların qəlbi haqqı inkar edir. Özləri də təkəbbürlüdürlər. Şübhə yoxdur ki, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, təkəbbürlü olanları sevmir. Onlardan: "Rəbbiniz peyğəmbərinə nə nazil etmişdir?" deyə soruşduqda, onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır!" deyərlər. Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir! Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi. Sonra Qiyamət günü Allah onları rüsvay edəcək və deyəcək: "Haqqında mübahisə etdiyiniz şəriklərim haradadır?" Elm verilmiş kimsələr deyəcəklər: "Şübhəsiz ki, bu gün kafirlərə rüsvayçılıq və əzab üz verəcək!" Mələklər özlərinə zülm edən kimsələrin canlarını aldıqları zaman onlar boyun əyib: "Biz heç bir pislik etmirdik!" deyəcəklər. Onlara belə deyiləcək: "Xeyr! Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir. Elə isə içində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin! Təkəbbürlülərin qalacağı yer necə də pisdir!" (Nəhl surəsi, 22-29)**

**...Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: “Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz alçaldıcı əzabla cəzalandırılacaqsınız!” dediklərini bircə görəydin. (Ənam surəsi, 93)**

Dünya həyatında böyüklük arzusuna qapılanlar, axirətdə “alçaldıcı halda cəhənnəmə doğru üzüstə süründürülərək” göstərdikləri əxlaqın qarşılığını alacaqlar:

**“Alçaldıcı şəkildə süründürülərək” Cəhənnəm oduna atılacaqları gün; (Tur surəsi, 13)**

**Doğrudan da, kafirlərdən ötrü zəncirlər, buxovlar və alovsaçan od hazırlamışıq. (İnsan surəsi, 4)**

**...başlarına da qaynar su töküləcəkdir. (Həcc surəsi, 19)**

**Üzüstə sürüklənib Cəhənnəmə toplanılacaq kimsələr, məhz onlar yerləri ən pis olan, haqq yoldan ən çox azan kimsələrdir. (Furqan surəsi, 34)**

# Mübahisəçi insanlar cəhənnəmin daim bir-biriylə mübahisə edən insanlarla dolu olduğunu unutmamalıdırlar

Müsəlmanların dəvətlərinə lazımi əhəmiyyəti verməyən, bunlara gözəl şəkildə deyil, tərs rəftarlarla, mübahisəçi üslubla cavab verən insanlar, axirətdə ala biləcəkləri qarşılığı düşünməlidirlər. Eynilə axirətdə də, özlərini əbədi əzab içində mübahisə edən vəziyyətdə görə biləcəklərini unutmamalıdırlar. Dünyada bu səmimiyyətsiz əxlaqın özlərinə yaşatdığı əzabın, axirətdə sonsuz əzaba çevrilə biləcəyini bilməlidirlər. Bu əxlaq, bu insanların dünya həyatında heç kəslə dost ola bilməmələrinə, sevib-sevilə bilməmələrinə, bu nemətlərdən məhrum qalmağın əzabını yaşamalarına səbəb olar. Allah istəsə həmin bu narahat mühiti, bu insanlar üçün sonsuza qədər yarada bilər. Çünki Quranda cəhənnəm əhlinin də daim mübahisə apardığından, odun verdiyi ağrıyla yanaşı bir də bu narahat mühitin gətirdiyi mənəvi əzabı da daddıqlarından bəhs edilir:

**Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir. (Sad surəsi, 64)**

**Onlar orada höcətləşərək deyərlər: “Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik, (Şuəra surəsi 96-97)**

**Allah deyəcəkdir: “Mənim hüzurumda höcətləşməyin. Mən əvvəlcədən sizi xəbərdar etmişdim. (Qaf surəsi, 28)**

Allahın ayələrini oxuyan və bilən insanlar, mübahisə etməyin cəhənnəm əhlinin xüsusiyyəti olduğunu bilərək, bu pis əxlaqdan şiddətlə çəkinməlidirlər.

# Dünya həyatında bədbəxt olanlar, cəhənnəm əhlinin də bədbəxt olduğunu unutmamalıdırlar

İmanı qavradıqları halda, dünya həyatında daim bədbəxtlik içində yaşamağı normal hesab edən insanlar, bədbəxtliyin, cəhənnəmə aid xüsusiyyət olduğunu unutmamalıdırlar. Allah bu həqiqəti bu ayəsiylə bildirir:

**Mən sizi alov saçan bir odla qorxutdum. Ona ancaq ən bədbəxt kimsə girər. O kimsə ki, haqqı yalan sayır və ondan üz döndərir. Allahdan ən çox qorxan isə o Oddan uzaqlaşdırılar. (Leyl surəsi, 14-17)**

# Möminlərin öyüdlərinə qulaq asmayanlar, axirətdə “kaş ki, qulaq assaydım" deyərək peşmançılıq çəkə biləcəklərini unutmamalıdırlar

Dünya həyatında özlərinə verilən öyüdlərə qulaq asmayanlar, bəhanələr ortaya ataraq özlərini təmizə çıxartmağa çalışanlar, bu rəftarlarından ötrü özlərini mənfəətli hesab etməməlidirlər. Bəhanələrinin, dünyada qəbul edilsə də, axirətdə özlərinə heç bir fayda verməyəcəyini bilməlidirlər. Allah ayələrində insanları bu vəziyyətə qarşı belə xəbərdar edir:

**Həmin gün zalımlara bəhanələri fayda verməyəcək və onlardan tövbə etmələri tələb olunmayacaqdır. (Rum surəsi, 57)**

**O gün zalımlara bəhanələri heç bir fayda verməyəcəkdir. Onları həm lənət, həm də pis yurd gözləyir. (Mömin surəsi, 52)**

Bəhanələri qəbul edilməyən bu insanlar, dünya həyatında özlərinə verilən nəsihətləri qəbul edib Allahın bəyənəcəyi əxlaqı haqqıyla yaşamadıqları üçün, əbədiyyən davam edəcək böyük peşmançılıq çəkəcəklər:

**Onlar deyəcəklər: “Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!”. (Mülk surəsi, 10)**

**Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: “Kaş biz Allaha itaətkar olaydıq, Onun Elçisinə itaətkar olaydıq!”. (Əhzab surəsi, 66)**

Allah, dünyada olarkən özlərinə saysız-hesabsız tövbə etmə imkanı verdiyi bu insanlara, çəkəcəkləri peşmançılığın axirət günü özlərinə heç bir fayda verməyəcəyini bildirir. Ayələrdə, dünya həyatında edilən dəvətdən üz döndərən bu insanların artıq heç bir köməkçilərinin olmadığı və əbədi əzabla qarşılaşacaqları belə bildirilir:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. Onlara deyiləcək: “Məgər orada sizə düşünəcək**

**kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz". (Fatir surəsi, 37)**

Belə peşmançılıq çəkməməyin yolu isə olduqca asandır. Bu yol, qarşısındakı insanın dünya və axirət əzabından qurtulmasını hədəfləyən kimsələrin verdiyi öyüdləri nemət hesab etmək, daha gözəl əxlaqa yiyələnmək üçün bunları itaətkarlıqla qəbul etməkdir.

## Eqoistlik edənlər, axirətdə, əzabdan qurtulmaq üçün sahib olduqları hər şeyi fidyə olaraq vermək istəyəcəklərini unutmamalıdırlar

Dünya həyatlarında nəfslərindəki eqoistliyi yox etməyənlər, fədakarlıq etməkdən çəkinənlər, bu əxlaqlarının axirətdə özlərinə zərər verə biləcəyini düşünməlidirlər. Mallarından, canlarından, vaxtlarından, əməklərindən Allahın rizasına uyğun istifadə etməyib, əvvəlcə rahatlıqlarını və mənfəətlərini güdənlər, axirətdə böyük peşmançılıq çəkəcəklər. Bu insanlar dünyada olarkən ehtiras duyduqları, özlərinin olmasını istədikləri, fədakarlıq edib başqalarıyla paylaşmaq istəmədikləri hər nə varsa, bunların hamısını əzabdan xilas ola bilmək üçün fidyə olaraq vermək istəyəcəklər:

**Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur. (Məaric surəsi, 11-15)**

**Əgər zalım olan hər kəs yer üzündə olanların hamısına sahib olsaydı, mütləq onu əzabdan qurtarmaq üçün fidyə verərdi. Onlar əzabı gördükdə dərindən peşman olarlar. Onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz. (Yunis surəsi, 54)**

Lakin Allah, dəyər verdikləri hər şeyi versələr belə, yenə də bu insanlardan heç nəyin fidyə olaraq qəbul edilməyəcəyini bildirir:

**Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Kafir olduqlarına görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır. (Ənam surəsi, 70)**

Bundan ötrü də, nəfslərinin az da olsa eqoistliyə meyil etdiyini hiss edən, öz nəfslərinin ehtiyac və istəklərini digər möminlərinkindən üstün tutan kimsələr, bu əxlaqı bilə-bilə davam etdirən insanların axirətdə alacaqları qarşılığı düşünməlidirlər.

## Dünya həyatında ümidsizliyə qapılan kimsələr, axirətdə qurtulmaqdan birdəfəlik ümid kəsmiş insanlar kimi olmaqdan qorxmalıdırlar

Allahın sonsuz gücünü, rəhmətini, qullarına olan sevgisini, bağışlayıcılığını gərəyi kimi qavraya bilməyən insanlar, yaşadıqları ən kiçik çətinlikdə belə dərhal ümidsizliyə qapıla bilər və Allahın rəhmətindən ümidlərini kəsə bilərlər. Halbuki Allah; **"...Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq inkarçılar ümidlərini kəsər"** (Yusif surəsi, 87) ayəsiylə bunun inkarçılara məxsus bir xüsusiyyət olduğunu bildirmişdir. Bundan ötrü də, Quranın bu hökmünü bildikləri halda, əxlaqlarındakı bu mühüm çatışmazlığı aradan qaldırmağa yanaşmayanlar, əbədiyyən bu sıxıntı içində yaşamaqdan, axirət həyatında ümidsizliyə qapılmaqdan çəkinməlidirlər. Allah, Quranda insanların cəhənnəmdə naümid qalacaqlarını belə bildirir:

**Onların əzabı yüngülləşdirilməyəcək və onlar orada naümid qalacaqlar. (Zuxruf surəsi, 75)**

**O Saatın gələcəyi gün günahkarlar ümidlərini itirəcəklər. (Rum surəsi, 12)**

## Sahib olduqları nemətlərə nankorluq edənlər, axirətdə bütün nemətlərdən məhrum qala biləcəklərini unutmamalıdırlar

Sahib olduqları gözəl nemətlərdən zövq ala bilməyən, əllərindəki nemətlərə nankorluq edən, Allahın lütfünü gərəyi kimi qiymətləndirməyi bacarmayan insanlar, bu əxlaqlarından ötrü dünya həyatını bədbəxtlik içində keçirərlər. Bu insanlar, Allahın özlərinə verdiyi nemətlərə nankorluq etməklə cavab verdiklərinə görə, cəhənnəm əzabına düçar olacaqlar. Allah ayələrində dünya həyatında nankorluq edən bu insanlar üçün, ən şiddətli əzabın hazırlandığını belə bildirir:

**Allah əmr edib deyəcək: “Atın Cəhənnəmə hər bir inadcıl nankoru, xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allaha tay tutanı. Atın onu şiddətli əzabın içinə (Qaf surəsi, 24-26)**

## Möminlərə səmimi davranmayan insanlar, axirətdə inkarçılarla bir yerdə olmaqdan qorxmalıdırlar

Həyatlarını Allah rizasını qazanmağa və Quran əxlaqını ən gözəl şəkildə yaşamağa həsr etmiş, iman edənlərə qarşı mümkün qədər səmimi, təvazökar və sevgi dolu əxlaq sərgiləyən möminləri qiymətləndirməyi bacarmayan insanlar, əbədiyyən bu üstün insanlardan uzaqda yaşamaqdan qorxmalıdırlar. Allahın dostu olan və Onun rizası üçün çalışan insanlar olduqlarını gördükləri halda, möminlərlə dost ola bilməyən, onlara səmimi davranmağı bacarmayan insanlar, axirətdə inkarçılarla bir yerdə yaşamaq məcburiyyətində qala bilərlər.

Dünya həyatında olarkən möminlərin yanında sıxılan, narahat olan, təbii davrana bilməyən, şövqsüz və soyuq rəftarlar göstərən, onlardan gələn öyüd və xatırlatmalara pis gözlə baxıb, xoşagəlməz mövqe nümayiş etdirən insanlar, axirətdə onların yanındakı bu etibarlı mühiti peşmançılıqla axtara biləcəklərini unutmamalıdırlar. Belə bir əxlaqı yaşamağın qarşılığının, yenə bu əxlaqı göstərən insanlarla birlikdə olmaq olacağı aydındır. Bu həqiqəti axirətdə görən insanlar, Allaha, özlərini bu insanlarla bir yerdə toplamaması üçün son dəfə yalvaracaqlar. Lakin Allah ayələrində eyni əxlaqı göstərən bu insanların cəhənnəmdə görüşüb əbədiyyən birlikdə yaşamaq məcburiyyətində qalacaqlarını bildirir:

**Həqiqətən, Cəhənnəm onların hamısının görüşmə yeridir. (Hicr surəsi, 43)**

Artıq heç bir dostlarının olmadığını anlayan bu insanlar, peşmançılıqla bunları deyəcəklər:

**İndi isə bizim nə şəfaətçilərimiz, nə də bizə canıyanan bir dostumuz var! Bir də dünyaya qayıda bilsəydik, möminlərdən olardıq. (Şuəra surəsi, 100-102)**

İman edən bir insan, dünyada və axirətdə insanların yeganə dostunun əvvəlcə Allah sonra da Allahın elçiləri və saleh möminlər olduğunu bilməli, qəlbində iman edənlərə qarşı cüzi də olsa kin tutmadan, onları tam səmimiyyətlə sevməlidir. Ancaq bu yolla axirətdəki sonsuz həyatında da, bu insanlara birlikdə ola biləcəyini unutmamalıdır.

# Sübut edilə bilməyən səmimiyyətsiz hərəkətlərlə iman edənləri aldatdıqlarını zənn edənlər, axirətdə əllərinin, ayaqlarının və dərilərinin bütün bunları etiraf edəcəklərini bilməlidirlər

Özünə öyüd verən, gözəl əxlaqa dəvət edən insanları müxtəlif bəhanələr ortaya ataraq aldatdıqlarını düşünən insanlar, bu səmimiyyətsiz hərəkətlərinin axirətdə qarşılarına çıxacağını bilməlidirlər. Dünyada olarkən gizlətdiklərini zənn etdikləri hadisələr, axirətdə ortaya çıxacaq. O gün insanın əlləri, ayaqları və dərisi öz əleyhinə şahidlik edəcək, etdiyi bütün səmimiyyətsiz hərəkətləri deyib ortaya tökəcək. Bu da ikiüzlü davranan insanların əzabdan qaça bilməyəcəklərinin göstəricisidir. Quranda bu həqiqət belə bildirilir:

**o gün ki, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. O gün Allah onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər. (Nur surəsi, 24-25)**

**Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir. Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şahidlik edirsiniz?” deyəcəklər. Dəriləri deyəcək: “Hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz axırda Ona qaytarılacaqsınız”. Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahid olmasından çəkinib gizlənmirdiniz. Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir. Sizin öz Rəbbiniz barəsində bu zənniniz sizi məhv etdi və siz ziyan çəkənlərdən oldunuz. Əzaba dözsələr də, onların yeri oddur. Onlar mərhəmət diləsələr də, onlara mərhəmət göstərilməz (Fussilət surəsi, 20-24)**

# Möminlərə qarşı səmimiyyətsizliklərini susmaqla ifadə edən insanlar, Allahın cəhənnəm əhliylə danışmayacağını bilməlidirlər

Ümumiyyətlə istənilən mövzuda istədikləri kimi danışa bildikləri halda, nəfslərinə zidd düşən vəziyyətlərdə möminlərə etiraz etmək üçün susqunlaşan insanlar, bu səmimiyyətsizliklərinin axirətdə qarşılarına çıxa biləcəyini düşünməlidirlər. Allah, axirətdə cəhənnəm əhlinin danışmasına icazə verməyəcək və onlarla danışmayacaq. Ayələrdə cəhənnəm əhlinin bu vəziyyəti bu sözlərlə izah edilir:

**Allah buyuracaq: "Orada qalmağa alışın və Mənə heç nə deməyin!" (Muminun surəsi, 108)**

**Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Qiyamət günü Allah onları danışdırmayacaq, üzlərinə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır. (Ali İmran surəsi, 77)**

Dünya həyatında kiçik hesab edilən səmimiyyətsiz bir hərəkət belə mütləq axirətdə insanın qarşısına çıxacaq. Burada möminlər tolerantlıq nümayiş etdirə və görməzliyə vurub bağışlaya bilərlər. Lakin bu vəziyyət insanları aldatmamalıdır; əgər insanların qəlbində gizlətdikləri bir səmimiyyətsizlik varsa, Allah bunu bilir və bunun qarşılığını axirətdə mütləq verəcək. Bundan ötrü də, hər insan etiraz əlaməti olaraq susmağın Allah Qatında mütləq qarşılıq görəcəyini bilməli və belə bir rəftar göstərməkdən qorxub çəkinməlidir.

# Möminlərə səmimiyyətsiz baxanlar, axirətdə heç baxa bilməyəcək hala düşməkdən, kor olaraq bir yerə toplanılmaqdan qorxmalıdırlar

Möminlərin bütün xatırlatmalarına və xəbərdarlıqlarına baxmayaraq, baxışlarında Allaha olan imanlarını və bağlılıqlarını əks etdirmək əvəzinə, səmimiyyətsizliklərini əks etdirən insanlar, bu rəftarlarından ötrü axirətdə haqq-hesaba çəkilə biləcəklərini unutmamalıdırlar. Dünya həyatında səmimiyyətsizlik etməkdən çəkinməyən insanlar axirətdə istəsələr də, heç baxa bilməyəcək vəziyyətə düşməkdən qorxmalıdırlar. Çünki bu vəziyyətdə, artıq istəsələr də, gözlərində təbii bir ifadə yarana bilməyəcək; gözləri korlaşacaq, üzləri sərtləşəcək, baxışlarını qorxu və dəhşət bürüyəcək. Allah Qiyamət günü insanların baxışlarının alacaqları şəkli belə təsvir edir:

**Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır. (İbrahim surəsi, 42)**

**O gün sur üfürüləcək və o gün günahkarları (üzləri qara, gözləri daş kimi, kor və) göm-göy göyərmiş halda bir yerə toplayacağıq. (Taha surəsi, 102)**

**O gün onların baxışları qorxudan və dəhşətdən yerə dikiləcək, üzlərini də zillət bürüyəcəkdir. Budur onların xəbərdar edildikləri (Qiyamət və əzab) günü! (Məaric surəsi, 44)**

Əlbəttə ki, heç bir insan belə bir qarşılıq almağı istəməz. Bundan qurtulmağın yeganə yolu isə, dünya həyatında bütün səmimiyyətsiz hərəkətlərdən imtina edib, Allah və möminlər qarşısında dürüst əxlaqa nail olmağa çalışmaqdır.

## Dilləriylə söyləyə bilmədikləri səmimiyyətsiz sözləri, üz ifadələri və mimikalarıyla çatdıran insanlar, axirətdə üzlərinin düşə biləcəyi vəziyyətdən qorxmalıdırlar

Quranda yanlış olduğu bildirilən rəftarları açıq şəkildə göstərə bilməyib gizlində baxışlarıyla, üz ifadələri və ya mimikalarıyla yaşamağa çalışan insanlar, bunun axirətdəki qarşılığını düşünməlidirlər. Allah istəsə bu insanların üzünü bir də istəsələr belə, istifadə edə bilməyəcəkləri hala sala bilər. Artıq istəsələr də dürüst və səmimi üzlə baxdıqlarını göstərə bilməyəcəkləri bir formaya düşə bilərlər. Unudulmamalıdır ki, Allah, Quran ayələrində cəhənnəm əhlinə verəcəyi qarşılıqlardan birinin də, bu insanların üzlərinə tuş gələcək əzabla alçaldılmaq olduğuna diqqət çəkir:

**Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə, onlar çirkinləşdiriləcək insanlardır. (Qəsas surəsi, 42)**

**O gün neçə-neçə üzlər də qaralıb turşumuşdur. (Qiyamət surəsi, 24)**

**Tezliklə Biz onun burnuna damğa vuracağıq. (Qələm surəsi, 16)**

**Aləmi Bürüyənin xəbəri sənə gəlib çatdımı? O gün neçə-neçə üzlər zəlil olub yerə dikiləcək, üzülüb əldən düşəcək, çox qızmar oda girəcək, (Ğaşiyə surəsi, 1-4)**

Hər insan, Allahın ayələrdə bildirdiyi bu qarşılığı düşünməli və tezliklə səmimiyyətsizlikdən imtina edib saleh möminlərə məxsus, səmimi rəftara yiyələnməyə çalışmalıdır. Həmçinin axirətdə bəzi insanlara üz verəcək belə əzabla qarşılaşmamaq üçün, dünyada olarkən mömin rəftarı göstərmək bütün insanların məsuliyyətidir.

# Dünyadakı gizli əzablardan qurtulma yolu

Kitab boyunca izah edilənlər, bəzi insanların depressiv, bədbəxt, içinə qapalı, gərgin bir ruh halına sahib olduğunu göstərir. Bu kitabın yazılma məqsədi, yalnız insanlara niyə bədbəxt olduqlarını, hansı səmimiyyətsiz hərəkətlərin özlərinə əzab olaraq geri qayıtdığını, dünyada və axirətdə özlərini nə kimi təhlükələrin gözlədiyini bildirmək deyil, hər şeydən əvvəl onlara bu ruh halından xilas olmağın, səmimiyyəti qazanmağın yollarını göstərməkdir. Hər kəs bilməlidir ki, bu sıxıntılı ruh halından qurtulmaq, dünyada və axirətdə rahat və xoşbəxt bir həyat yaşamaq əslində olduqca asandır. Üstəlik, bu həm məqsədəuyğun, həm də doğru olandır.

Bunun üçün bir insan, iman gətirmiş də olsa, hər şeydən əvvəl, səmimi şəkildə "əsl dindar" olmağa niyyət etməlidir. Allah Quranda saleh möminlərin xüsusiyyətlərini təsvir etmişdir. Yalnız bir cür "saleh mömin" əxlaqı var. Allah bu əxlaqı yaşayan bir insanın dünyada və axirətdə nicat tapacağını vəd etmişdir. Bunun üçün insan, əvvəlcə meydana gələn hər hadisənin və hər müsibətin Allahın izniylə və Allahın nəzarəti altında baş verdiyini unutmamalıdır. Bu, olduqca mühüm bir həqiqətdir. Bunu bilmək və hər an buna uyğun hərəkət etmək, insanın dünyadakı gizli əzablardan qurtulmasının ən əhəmiyyətli yollarından biridir. Bunu bilən və tam mənasıyla qavrayan bir insan başına hər nə gəlsə də, yaşanan hadisələr nə qədər pis görünsə də, əslində bunun özü üçün xeyirli olduğunu bilər və bütün bunları gözəl şəkildə qarşılayar.

Əsl dindarlar taleyə iman ediblər və heç bir insanın öz taleyini dəyişdirə bilməyəcəyini bilirlər. İnsanın taleyi, hələ o dünyaya gəlmədən əvvəl məlumdur. Allah bu məsələni ayələrində belə bildirir:

**Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır. (Fatir surəsi, 11)**

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

Bu həqiqət qarşısında insan, taleyini yaşayarkən qarşılaşdığı hər hadisədən və hər təfərrüatdan razı qalmalı, bunlardakı xeyirləri görməyi bacarmalıdır. Məhz bunlar saleh mömin olmağın şərtləridir. Bu məlumatlara sahib olan və bunları qavrayan bir insanın kədərlənməsi, duyğulanması, ağlaması, haqsızlığa uğradığını düşünməsi, qısqanclıq hissinə qapılması, inciməsi, küsməsi, hadisələr qarşısında etiraz etməsi, hiddətlənməsi, ümidsizliyə qapılması kimi hallar yaşanmaz. Mömin bunun əvəzinə həyatının hər anından razı, anbaan yaradılan gözəllikləri görə bilən, Allahın nəzarəti altında bir həyat yaşamağın gətirdiyi rahatlığa şükür edən bir ruh halına sahib olar. Hikmətini anlayıb anlamamasından asılı olmayaraq, Allahın yaratdığı hər hadisədən razı qalar. Belə bir insanı dünyada heç bir hadisə kədərləndirə, narahat edə və qorxmasına səbəb ola bilməz. Bu insan yalnız taleyində olanı edə biləcəyini bildiyi, niyyəti də saf və təmiz olduğu üçün, daim Allahdan gözəllik və xeyir bəxş etməsini gözləyər. Həyatında heç bir mənfiliyə yer verməz.

Bu əzablardan qurtulmağın ən mühüm şərtlərindən biri də insanın **"həqiqi mənada səmimi olmağa niyyət etməsi"**dir. Nəzərdə tutulan səmimiyyət, özüylə birlikdə dürüstlüyü, nəfsin istəyini qorumamağı, şəxsi mənfəətlərlə zidd düşən vəziyyətlərdə belə Allaha və möminlərə sadiq qalmağı, Quran əxlaqını və ya möminlərin rahatlığını öz mənfəətlərindən üstün tutmağı tələb edən bir səmimiyyət anlayışıdır.

Bununla yanaşı insan, **"daim qəlbən Allaha bağlanmalı və nəfsinin mənfi təlqinlərinin təsirinə düşməyərək, qəlbini təmiz saxlamalı"**dır. Allahın insanları hər an eşitdiyini və gördüyünü, hətta insana şah damarından belə yaxın olduğunu unutmamalıdır. Allah bu həqiqəti Quranda belə bildirir:

**İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın (Qaf surəsi, 16-18)**

Bu həqiqəti anlamaq da səmimi mömin olmağın ən əsas şərtlərindəndir. Belə bir insan hər an Allahın nəzarəti altında olduğunu bildiyi və Allahın rizasını qazanmağı qarşısına məqsəd qoyduğu üçün səmimiyyətsizliyi doğuracaq bütün rəftarlardan şiddətlə çəkinər. Bir insanın Allahın özünü eşitdiyini və gördüyünü bilərək möminlərə yalan danışması, onları narahat edəcək sözlər söyləməsi, səmimiyyətsiz baxışlarla baxması, eqoist rəftarlar göstərməsi, əsl xarakterini gizlədərək süni davranması qeyri-mümkündür. Çünki Allahın hər an yanında olduğuna qəti məlumatla iman edir. Etdiyi hər cür vicdansızlıqdan ötrü, mütləq axirətdə hesab verəcəyini bildiyi üçün, daim vicdanlı davranıb, hər an Allahı razı salacaq bir əxlaq göstərər. Sübut edilə bilməyəcəyini düşündüyü rəftarlara, gizli xainliklərə heç vaxt yaxın durmaz. Çünki Allahın kökslərdə olanlardan da xəbərdar olduğunu bilir. Eynilə özünü aldatmaq, günahsız olduğuna inandırmaq kimi üsullara da əl atmaz. Allahın bunu da bildiyini bilər. Digər insanlar bilməsə də, Allahın bildiyi bir həqiqəti, insanlardan gizlətməyə çalışmaz. Çünki əhəmiyyətli olan Allahın ondan razı qalmasıdır.

Bütün bunların nəticəsində isə, tərtəmiz, vicdanlı, dürüst, səmimi bir insan ortaya çıxar. Belə bir insan onsuz da, hər an Allahın rizasına uyğun hərəkət etməyin gətirdiyi rahatlıq, arxayınlıq və daxili sevincini yaşayar. Səmimi insan dünyada gözəl həyat yaşadığı kimi, axirətdə də iman edənlər üçün hazırlanmış sonsuz gözəllikdəki cənnətdə, əbədiyyən bənzərsiz bir xoşbəxtliyi yaşayar.

# İslam əxlaqının hakim olmamasından ötrü insanlar xoşbəxt deyil

**Adnan Oktar:** *İslam əxlaqının hakim olmamasından ötrü insanlar xoşbəxt deyil, dünyadakı insanların 99,9%-i xoşbəxt deyil. Əvvəla bu, Quranın haqq olduğuna, möcüzə olduğuna dair açıq bir dəlildir.* ***Quran olmadıqda xoşbəxt ola bilmirlər.*** *Birindən: "niyə xoşbəxt deyilsən?" deyə soruşanda, "bilmirəm" deyir. Bilməyəcək bir şey yoxdur,* ***Quran əxlaqı dünyaya hakim olmasa xoşbəxt olmazsan. Quran əxlaqı dünyaya hakim olsa, böyük xoşbəxtlik, yəni böyük xoşbəxtlik yaşanar.*** *Heyvanlar belə xoşbəxt olar; "göydəki quşlar, sudakı balıqlar hətta razı qalacaq" deyir. İnsanlar, İslam əxlaqının hakim olması nəticəsində yaranan mal bolluğundan, iqtisadi rahatlıqdan, sosial təminatdan deyil, Allah xoşbəxtlik verməsindən ötrü xoşbəxt olurlar. Başqa səbəblərdən asılı deyil, kənar səbəblər olmasa belə, məsələn, bir insan adada belə olsa, dolanışığının yaxşı olmasından, yəni bol yemək yeməsindən, evinin mükəmməl olmasından və ya ədalət sisteminin hakim olmasından ötrü xoşbəxt olmaz.*

*İnsanlar sırf bunlardan ötrü xoşbəxt olmaz, belə şey olmaz. İnsanı mükəmməl ədalət sistemi içində yaşatsan, bütün hüquqları təmin edilsə, tam təhlükəsizlik içində yaşasa, bol-bol da yeyib içsə belə, yenə də xoşbəxt olmaz.* ***Xoşbəxtlik, Allah tərəfindən möcüzə kimi xüsusi olaraq yaradılır. Xoşbəxtlik xüsusi olaraq yaradılacaq, insanlar bundan ötrü xoşbəxt olacaq. Allah sevinc yaradır, səbəbsiz yerə sevinir insan, yəni yemək yeməkdən, təhlükəsizliyi təmin edildiyindən ötrü deyil, səbəbsiz deyərkən, yəni bu səbəblərdən ötrü deyil, Allah eşqindən xoşbəxt olur. Allaha olan sevgisindən, Ona qorxusundan ötrü xoşbəxt olur.***

*Cəmiyyətdə belə bir səhv düşüncə var; elə düşünürlər ki, insanlar, məhz bol-bol yeyib içdikləri, təhlükəsizlikləri təmin edildikləri, borclarının, alacaqlarının olmadığından ötrü xoşbəxt olur; xeyr insan bunlardan ötrü xoşbəxt olmaz, niyə bunlardan ötrü xoşbəxt olsun? Yenə xoşbəxt olmamaq üçün bir şey tapar, özünə iztirab çəkdirər. Allah eşqi ətrafı bürüyür, insanları bürüyür; bundan ötrü xoşbəxt olurlar.*

**Oktar Babuna:** *Hocam, Peyğəmbərimiz (s.ə.v)-in danışdığımız mövzuyla əlaqəli bir hədisini oxuyuram.*

*"Hz. Mehdi (ə.s)-ın zühuru, yalnız iman edənlər üçün deyil, yer və göy əhli üçün belə sevinmə səbəbi olar. Quşlar, vəhşi heyvanlar, dənizdəki balıqlar belə sevinərlər". (Kıyamet Alametleri, səh. 162, 163)*

*"Onun dövründə canavarlarla qoyunlar bir yerdə oynayacaq, ilanlar uşaqlara heç bir zərər verməyəcək. İnsan bir ovuc toxum atacaq, 700 ovuc məhsul götürəcək". (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

**Adnan Oktar:** *Əlbəttə ki, məsələn, insanların bəsirəti fərasəti açılır, yəni bu bol yemək yeməklə olmaz. Məsələn, bərəkət, ədalət sisteminin bərpa edilməsindən ötrü artmayacaq, Allah eşqindən ötrü artacaq. İnsanlarda, Allaha olan sevgilərindən, iman həqiqətlərindən qaynaqlanan iman coşğusu olacaq. Allah insanlara hz. Mehdi (ə.s) vəsiləsiylə, "Hadi" adıyla təcəlli edəcək. Coşğulu bir iman yaranır, bunun sayəsində bərəkət meydana gəlir. İnsan səhərlər yuxudan sevinc içində qalxır.*

*Allah imtahan edəcək, yenə imtahan edər, insanın qolu da qopar. Qolu qopur yenə xoşbəxt olur, bayram sevinci yaşayırmış kimi sevinir. Məsəl üçün bir gün də ayağı qopar, lakin daha da sevinc içində olar. Bu tam fərqli bir şeydir, bu Allahın sirridir... (Adnan Oktarın 1 sentyabr 2010-cu tarixli HarunYahya.TV reportajından)*

# Nəticə

Allah insanları asanlığa dəvət edir. Bəzi insanlar isə, özlərini əzaba sürükləyəcək bir əxlaqa yiyələnməklə çətinliyi seçir və öz-özlərinə zülm verirlər. Dünya həyatının gözəlliklərindən, Allahın özləri üçün yaratdığı nemətlərdən doyunca zövq almaq, imanın gətirdiyi sevgi, səmimiyyət və etimad mühitinin hərarətini hiss etmək əvəzinə, həyatlarını min bir cür dərd içində keçirirlər.

Halbuki xoşbəxt olmağın yolu çox asandır və bunun üçün heç kim gecikməmişdir. Allah; **"yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır"** (Loğman surəsi, 22) hökmüylə çıxış yolunu insanlara göstərir. Digər bir ayədə isə, Allah, insanların üzərindəki hüznü, kədəri və qorxuları yox edəcək çıxış yolunu belə bildirir:

**Həqiqətən də: “Rəbbimiz Allahdır!” deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! (Fussilət surəsi, 30)**

Məhz insanın məsuliyyəti Allahın bildirdiyi bu yola tabe olmaqdır. Uca Allah bu əxlaqı göstərən insanlara dünya həyatında da, axirətdə də xoşbəxtliyin, nəşənin, sevincin ən gözəlini yaşadacaq, onları sonsuz rəhmətinə qovuşduracaq. Qəlblərindəki hüznü, sıxıntıları və əzabları yox edəcək, yerinə həqiqi imanın gətirdiyi rahatlıq və etimad duyğularını yerləşdirəcək.

# Din çox asandır. Din, hz. Mehdi (ə.s)-ın dövründə, Peyğəmbərimiz (s.ə.v)-in dövründəki kimi sadə halıyla yaşanacaq

***Adnan Oktar:*** *...Allah var, axirət var, ədalət var, cənnət var, cəhənnəm var, keçmiş peyğəmbərlər var. Mələklər var, cinlər var. Şeytanları Allah yaratmışdır,* ***imtahan olunuruq, din çətin deyil. Halallar, haramlar bəllidir və Allah dini çox asan yaratmışdır.*** *Şeytandan Allaha sığınıram, Allah;* ***"hz. İbrahimin dini kimi asandır"*** *deyir,* ***"Allah sizin üçün çətinlik diləməz, asanlıq diləyər"*** *deyir. Mehdi (ə.s) məhz bu ayəni tətbiq edəcək, bu ayəni bax;* ***"Allah sizin üçün çətinlik diləməz, asanlıq diləyər"*** *ayəsini tətbiq edəcək, buna hədislərdən də oxuyuruq və bütün məzhəbləri aradan qaldıracaq. Dinə əlavə edilmiş bütün bidətləri yox edəcək. "Allah sizin üçün çətinlik diləməz, asanlıq diləyər" və "hz. İbrahim (ə.s)-ın dini kimi asandır" ayələri, tam mənasıyla Axırzamanda yenidən gerçəkləşəcək. Peyğəmbərimiz (s.ə.v)-in dövründə gerçəkləşmişdi, indi yenidən gerçəkləşəcək inşaAllah. Dini sonradan çətinləşdirdilər, mürəkkəb hala gətirdilər. Din ən sadə halıyla, səhabələrin dövründəki kimi, Peyğəmbərimiz (s.ə.v)-in dövründəki halıyla, eynisiylə yenidən nur kimi zühur edəcək inşaAllah. (Adnan Oktarın 5 iyul 2010-ci il tarixli HarunYahya.TV reportajından)*

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən

əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir

əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### **İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, -deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus, homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott*

*Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ

gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına

baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində

necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**